# ŞEHİNDƏN GÖYÇƏNİN QOXUSU GƏLİR

## Yusif Əlioğlu Bayramov

## Şeir kitabı

## Bakı, 2019

**Elektron nəşr - ISBN: 978-9952-536-01-0**

**Tərtibatçılar:**
Nuru Bayramov
İqrar Bayramov
Atilla Bayramov
**Korrektorlar:**
Asim Bayramov
Təranə Bayramova
Ədalət Rüstəm

DOI https://doi.org/10.25045/k.nurubay.sehinden
ISBN 9789952536010
ORCID iD https://orcid.org/0000-0001-6958-5412

# METADATA

| | |
|---|---|
| **Type** | Book |
| **Title** | Şehindən Göyçənin qoxusu gəlir |
| **Editor** | Bayramov Nuru, Bayramov İqrar, Bayramov Atilla, Bayramov Asim, Bayramova Təranə, Rüstəm Ədalət |
| **Edition** | |
| **Authors** | Bayramov Yusif Əlioğlu |
| **Experts** | |
| **Year** | 02.02.2019 |
| **Pages** | 284 |
| **Abstract** | Kitabda Yusif Bayramovun həyatı, şeirləri, Nərimnlı kəndinin tarixi, ziyalılıarı, qabaqcıl adamları, şəhidləri və Belylərin şəcərəsi barədə məlumatlar yer almışdır. |
| **Keywords** | Şeir, Göyçə, Nərimanlı, şəhidlər, alimlər, polkovniklər, Baleyli, şəcərə, tarix |
| **City** | |
| **Publisher** | Author |
| **Language** | Azerbaijani |
| **Type of work** | |
| **URL** | |
| **DOI** | 10.25045/k.nurubay.sehinden |
| **ISBN** | 9789952536010 |
| **ORCID iD** | https://orcid.org/0000-0001-6958-5412 |

Hörmətli oxucular!

Yusif müəllimin 90 illik yubileyinə həsr olunmuş bu şeir kitabında 130-dan çox şeiri təqdim edilmiş, həyatın müəyyən məqamlarını əks etdirən şəkillər, əlyazmaları, soyağacı və Nərimanlı kəndi barədə qısa məlumat yer almışdır. Bu kitabda Yusif məllimin özü və ailəsi barədə əlyazmaları orjinal və latın qrafikalı varinatlarda verilmişdir. Kitabda verilən soyağacı İqrar və Atilla Bayramovlar tərəfindən tərtib edilmişdir. Kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkür edirik.

***Tərtibatçılar***



# Yusif Əli oğlu Bayramov

(1929-2013)

Yusif Əli oğlu Bayramov 1929-cu il fevralın 3-ündə Göyçə mahalının Basarkeçər rayonunun Nərimanlı (Hüseyinquluağalı) kəndində ruhani ailəsində anadan olmuşdur.

Atası Molla Əli kəndin və o bölgənin savadlı adamlarından olmuşdur. Ulu babası Kərbəlayi Məhəmməd (ona Emin Ağa oğlu Baley deyiblər) XVIII əsrin ortalarında Çar Rusiyası tərəfindən İrəvan xanlığının Uluxanlı (Zəngibasar) kəndindən Göyçənin Basarkeçər bölgəsindəki Hüseynquluağalı kəndinə köçürülmüşdür. Baleyin övladları çar hökuməti dövründə və Sovet hakimiyyəti illərində elmə, maarifə bağlı adamlar olublar.

Yusif müəllim ibtidai təhsilini Nərimanlı kəndində alır, Böyük Vətən müharibəsindən sonra isə iqtisadi çətinliklərə baxmayaraq atasının təkidi ilə orta məktəbi 1947-ci ildə Məzrə kəndində bitirir. O dövrdə müəllimlərin az olduğu dövr idi və orta məktəbi bitirənləri ibtidai sinif müəllimi kimi təyin edirdilər. Yusif müəllim 1947-ci ildə 18 yaşında Qaraqoyunlu kənd məktəbində müəllimlik fəaliyyətinə başlayır. Yenə də atası Molla Əlinin təkidi ilə ali məktəbə yollanır və 1948-ci ildə İrəvan Pedaqoji İnstitutuna daxil olur.

1948-1953-cü illərdə Ermənistanda yaşayan Azərbaycanlılar məcburi və kütləvi şəkildə Azərbaycana köçürüldükdən sonra İrəvan Pedaqoji İnstitutu da Azərbaycana köçürüldü. Ona görə də təhsilini Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsində davam etdirən Yusif Bayramov həmin institutu 1954-cü ildə qiyabi bitirir.

1948-ci ildən 1988-ci ilə qədər Nərimanlı kəndindəki orta məktəbdə müəllim işləyib. 1988-ci ildə ermənilərin Qərbi Azərbaycan türklərinə qarşı yeni soyqırımı ilə əlaqədar yenidən köçə-köç başlandı. Elə bu zaman Yusif Bayramov da Azərbaycana - Gəncəyə köçüb oradakı 10 saylı məktəbdə, 1997-ci ildən 2010-cu ilə qədər isə Xanlar (Göy-göl) şəhərindəki 3 saylı orta məktəbdə müəllim işləyir. Peşəsinə vurğunluq, ədəbiyyata, sənətə böyük bağlılıq Yusif Bayramovu həm şagirdlərinin, həm də el-obanın sevincinə çevirmişdi. Onun yetişdirdiyi şagirdlər arasında çoxlu elm və sənət adamları, siyasi xadimlər var. Respublikanın Maarif Əlaçısı, Müharibə və Əmək Veteranı olmuşdur.

Ömrünün son illərində Bakıda və Gəncədə yaşamışdır, 2013-cü ilin 26 fevralında 84 yaşında dünyasını dəyişmişdir, Göy-göl qəbrstanlığında dəfn edilmişdir.

Yusif müəllim yaşadığı və işlədiyi dövrdə şeir, söz yaradıcılığından da qalmayıbdır. Onun bədii yazıları mətbuat səhifələrində çap olunub, efirdə səsləndirilibdir, “Uş ay qartal” və “Dağıldı” şeirləri dillər əzbəridir. Yusif müəllimin iki şeir kitabı çap olunub. “Dərmanım Göyçənin havasındadı” adlanan birinci kitabı 1999-cu ildə Ankarada nəşr edilib və bu kitabda 79 seiri çap olunub. “Çalmalı dağ zirvəsidi Göyçənin” adlanan və 91 şeiri əhatə edən ikinci kitabı 2000-ci ildə Bakıda işıq üzü görüb. 90 illik yubileyi ilə əlaqədar çap olunan bu üçüncü kitabında 128 şeiri ilə yanaşı özü və ailəsi haqqında əlyazmaları da təqdim edilir.

Müdrik el ağsaqqalı, böyük müəllim və maarifpərvər Yusif məllimin 63 il müəllimlik təcrübəsi və 3 kitabı ilə yanaşı minlərlə şagirdi, 6 övladı, 23 nəvəsi, 35 nəticəsi və 1 kötücəsi var.

**Ruhu şad olsun!**

## BİLİRƏM

Keçmişi oxudum, yenini gördüm,
Bu dünyanın qulluğunu bilirəm.
Amiranə mənəm-mənəm deyənin
Varlığını, yoxluğunu bilirəm.

Çərxi gərdiş fürsət versə əlinə,
Hədyan demək, qadağan et dilinə,
El malıynan sığal verən telinə
Sonra çəkib yolduğunu bilirəm.

Varlananda keçmişini unutma,
Qohumu qohum bil, dostunu satma.
Halaldan əl çəkib haramı tutma,
Axır məkan nə olduğun bilirəm.

Həqiqət incələr, amma üzülməz,
Halal maya azalsa da, tükənməz,
Halal axtar, halal dolan, halal gəz
Halal malın bolluğunu bilirəm.

Yusif, yaxşı düşün, olmaynan nadan
Haqqa itaət et, mərhəmət qazan,
Süleyman tək hökmdarm dünyadan
Beş arşın ağ apardığın bilirəm.

## GÖZLƏR

Həqiqi dost dosta şəstilə baxar,
Amma yağı düşmən ayağı gözlər.
Xain qonşusuna zülmət arzular,
Mömin gözəl, günəş ay ağı gözlər.

Qəzanın qədəri çərxin gərdişi,
Gah şad edər, gah da verər təşvişi,
Heç kimin nadana düşməsin işi
Olar qarı düşmən ay yağı gözlər.

Yaxşı dolan yaxşılığın deyərlər,
Zalım olsan övladını söyərlər,
Namərd cismin sin içinə qoyarlar,
Qalar quru cəsəd ay ağı gözlər.

*22. 12. 1956*

## DOSTU İMTAHANA ÇƏKƏSƏN GƏRƏK

Yaxşı bilsin, dostum çoxdu deyənlər,
Dostu imtahana çəkəsən gərək.
Kamil öyrənəsən xeyirdə, şərdə
Xələti boyunda biçəsən gərək.

Qəzadan dostun ki damanda qalsa,
İşi dara düşüb ümmana dalsa,
Düşmən qarşısında qeyrətin olsa,
Qurtara mülkünü tökəsən gərək.

Qəlbi axtar, nə işin var dilinnən,
Çoxları dost olur fitnə felinnən,
Ömrünün şəriki dostun əlindən
Acını bal kimi içəsən gərək

Aşkara sən ölmə, mən ölüm deyən,
Bəxtin yüksələndə döşünə döyən,
İş dara düşən də qaçıb gizlənən,
Bunları yerbəyer seçəsən gərək.

Ürək dostu, çörək dostu, dil dostu,
Ömür dostu, mövsüm dostu, il dostu,
Seç içindən ikisini, bil dostu
Dördünün varağın bükəsən gərək.

Yusif, möhkəmdirsə dostunun tağı,
Yüz olsa nə edər nanəcib, yağı,
Yalançını, iki üzlünü, yaltağı,
Vaxtikən başından əkəsən gərək.

## DAHA

Cavanlıq bir quş tək uçdu da getdi,
Hərlənib o təvə düşmərəm daha.
Divanə misallı eşqin çayından,
Düşmüşəm şövqidən keçmərəm daha.

Qocalığı saqqal edib aşikar,
Daha dəli könül taparmı şikar,
Eşqin piyaləsi eyləsə qübar,
Qırxa yaxınlaşdım içmərəm daha.

Yusif, yaş artdıqca kəc olur işlər,
Köhnəlmiş qızlar da yan verib keçər,
Gəlinlər axtarıb cavanın seçər
Mən ləli gövhərdən seçmərəm daha.

## OLMASAYDI

Cəmiyyət cahanda cana doyardı,
Zimistanın ömrü az olmasaydı.
Bülbül nalə çəkib qan ağlayardı,
Qarlı qışın sonu yaz olmasaydı.

Fərhad dağı dəldi Şirin yolunda,
Qayaları çapıb atdı qolunda,
O, kama yetərdi işin sonunda,
Şapurun xəbəri tez olmasaydı.

Son qoy haqsızlığa, ədalət ara,
Həqiqət əyrini çəkəcək dara,
Yusif qəm əlindən yanardı nara
Züleyxa təzədən qız olmasaydı.

Namərd olan bir gün keçəcək girə,
Yüz daxıl düşsə də ocağa, pirə,
Yusif qəm yükünü qoymazdın yerə,
Sinəndə sədəfli saz olmasaydı.

*4.04. 1957-ci il.*

# GÖRDÜNMÜ

Buludla öpüşən qocaman "Tərsə",
Söylə bizim kimi mehman gördünmü.
Bağrını qan edən bəylər, ağalar,
Dövr etdi sinəndə pünhan, gördünmü?!

İndi gör kimlərdi yad edən səni,
Cah-cəlallı edən əlvan sinəni,
Nə olar, dilə gəl agah et məni
Keçib getdi şirin dəhan gördünmü?!

"Tərsədağ", "Xan Keyti" kəsmir yığnağın,
Bu gyn Nərimanlı oldu qonağın,
Öpür gül nərgizi, şaddı damağın,
Yusif kimi bir saz çalan gördünmü?!

*13.06.1961*

## DAĞLAR

Nədəndi solubdu gülün, nərgizin,
Kim sizi salıbdı bu hala dağlar.
Hələ bahar fəsli yetməyib sona
Bir azdan kim köçə, nə qala dağlar.

Qovrulub sinəndə yaşılın, alın,
Səndən üz döndərir o cəh-cəlalın
Aclıqdan qərq olub dövlətin, malın,
Tutubdu sizləri nə bəla dağlar.

Leysan gəlmir, kəsilibdi pənahın,
Ərşdə cövlan edir amanın, ahın,
El-oba bilir ki, yoxdur günahın,
Sən nahaq dalıbsan xəyala dağlar.

Göydə bulud ara sıra boylanır,
Yusif deyər o behuda dolanır,
Çiskin vurur, uca dağlar sulanır
Yaman həsrət çəkir o bala dağlar

*1961-ci illərin quraqlıq ayları*

## SAZIM

İşrətli məclisin şövqi sən idin
De niyə toz tutub güllərin sazım.
Gülündən ayrılıb qəfəsə düşmüş
Bülbül tək susubdu tellərin sazım.

Keçəndə zimistan, gələndə bahar,
Səsinə yığılardı gəlinlər, qızlar
De nədəndi bu il qəmgin oldular
Dağıldı başından ellərin sazım.

Misiri, Şərili, gah da Sarıtel,
Çalardın hər yandan alqışlardı el,
İndi də Dilqəmi həm bəhri təbil
Sızıldat Kərəmi simlərin sazım.

## GƏLMİŞİK

Çoxdan həsrət idik vəfalı dağlar,
Əgər qəbul etsən, mehman gəlmişik.
Bahar köçən vaxtı, yay gələn zaman
Bizik, sizi yada salan gəlmişik.

Qoy yadigar qalsın 56 sənə,
25 iyunda sehri gülşənə,
Unudulmaz "Qumlu bulaq" üstünə
Əlimizdə güli-reyhan gəlmişik.

Güneyin gülləri, quzeyin qarı,
Süsən-sunbül yola salır baharı,
Açın süfrə, başlayağın naharı
Bəxtəvərik belə zaman gəlmişik.

Bir nazənin cəm eyləyib elini,
Dəstə bağlar guneylərin gülünü,
Şad olaram, olsan-anam gəlini,
Gəl eyləyək əhdi-peyman, gəlmişik.

Bahar salıb gör kimləri təşvişə,
Bükübdü boynunu nərgiz bənövşə,
Yusif, şəkk eyləmə çərxi-gərdişə,
Yəqin edər dərdə dərman, gəlmişik.

*Xəlil, Əvəz, Abbas, Zərbalı və Yusif, "Qumlu bulaq" üstündə*
*25.06.1956*

## GÖYÇƏNİN

Deyirlər qədimdən daşa yazılıb,
Kəm görünən etibarı Göyçənin.
Vəfasız deyiblər ata-babalar,
Çox olsa da dövlət-varı Göyçənin.

Yayın əvvəlində mayın sonunda
Məlumdur ki, isti düşür hər yanda,
Kim inanar möcüzədir cahanda,
Qırğın edir boran-qarı Göyçənin.

Qış ayları yönün düşsə Arana
Yaşıllıq görərsən baxsan hər yana,
Altı ay zimistanda doyuruq cana,
Ərşə çıxır ahu-zarı Göyçənin.

Düzünü deyirəm qoy aləm bilsin,
İstər əhsən desin, istərsə gülsün,
Yayın əvvəlində gəzməyə gəlsin,
Əgər varsa intizarı Göyçənin.

Ancaq bircə şeydə israr edirəm,
Onu da hamıya izhar edirəm,
Əbəs yerə, giley-güzar edirəm,
Səfalıdı yaylaqları Göyçənin.

Yusif, gileylənmə döz, Vətənindi,
Ata-baba yurdu, öz Vətənindi,
Nə qədər cavansan, gəz, Vətənindi,
Şəfalıdı bulaqları Göyçənin.
*30.05.1968*

**GETDİK**

Köç-köç oldu ellər köçdü Arana
Əlimiz Göyçədən üzüldü getdik.
Kimi qaldı, kimi getdi gümana
Köçümüz yollara düzüldü getdik.

İndi arançılar çıxırlar dağa,
Qız gəlinlər bəzək verir bulağa,
İndən sonra həsrət qaldıq yaylağa,
Əlimiz oylaqdan üzüldü getdik.

Yusiflə vidalaş, ayrılaq dağlar,
Cənnət mənzərəli gözəl yaylaqlar,
Əldən çıxdı "Yelli", "Qumlu" bulaqlar,
Suyumuz daşlardan süzüldü getdik.

## SALAMLARI VAR

Bu köhnə vətəndən təzə vətənə
Ayrılmış ellərin salamları var.
Odlu günəş atəş verən bədənə
Bu sərin yellərin salamları var.

Qohuma, qardaşa, bizim ellərə,
Qocaya, cavana, əhli dillərə,
Qürbət eldə təzə bitən güllərə,
həsrət bülbüllərin salamları var.

Yusif, əsəbləşmə çərxi gərdişə,
Zəhmətsiz cahanda olarmı nəşə,
Bahar fəsli güneylərlə yenişə,
Səslənən ellərin salamları var.

**EDƏSƏN**

Arvadla dolanmaq bir fəlsəfədir,
Gərək hər bir şeyi fikir edəsən,
Ahu-zarsız baş girləmək az olar
Teztəb olmayasan səbr edəsən.

Gendə dolan bədnəzərin elindən,
İnciməynən əsil dostun dilindən,
Arvadın şərindən, şeytan felindən,
İgidsən özünü zahir edəsən.

Onun on sözündən beşinə inan,
hələ o beşdə də çox olur yalan,
Yusif deyər, onlar qoyurlar palan,
İstər xatirinə xütr edəsən
*1944.*

## GÖZƏL ALMA

Atalar sözüdür çox eşitmişəm
Dillərdə dastandır hey gözəl alma.
Deyirlər çirkin al qoy əsil olsun
Aldanıb bədəsil hey gözəl alma.

Qəlbim tüğyan edir gedəni görmüş,
Sanki Şəmsi yaşıl ala bürünmüş,
Üzü al-qırmızı içi çürümüş,
Cəlb edir, cahanı hey gözəl alma.

Yusif, bu nişanda gər canan olsa,
Yoxsulluq, qürbətlik oduna yansa,
həm gözəl, həm əsil, həm qanan olsa
Demək düzgün deyil hey gözəl alma.
*1956 Aprel.*

## KÖNÜL

Bir zaman deyirdin hey gözəl alma
Durmursan sözünə divanə könül.
Görəndə gözəlin gül camalını
Düşürsən hər cürə gümana könül.

Misal çəkib aldadırsan sən məni,
İndi də görəndə bir nazənini,
Düşürsən dalınca ovsunçu kimi
Görmürsənmi gəlir zəmanə könül

Nə vaxt dedim gözəl alma həmişə,
Dedim eləsin al düşmə təşvişə,
Yusif, pərvanə tək cumma atəşə
Keçiribsən vaxtı, dayana könül.
*9 Oktyabr 1956*

## GÖNDƏR GƏLSIN

Əzizim möhtərəm ay Sənəm bacı
Necədi əhvalın yaz göndər gəlsin.
Üstündə əsməsin o yellər acı
Qışda yol bağlanır yaz göndər gəlsin.

Yazıb bu naməni verdim yellərə,
Salam göndəririrəm sizin ellərə,
Oxuyun bu sözü salın dillərə
Mümkünsə cavabın tez göndər gəlsin.

Düşübsən küncünə uzaq qürbətin,
Yusifə bəllidir sənin qeyrətin,
Əgər bu meydanda varsa cürətin
Sözümün qabağına söz göndər gəlsin.
*1944-cü il*

## ƏVƏZİNDƏ

*Qənbərin toyuna çağırılarkən*

Nə oldu gəlmədin, ay Sənəm bacı
Gözlədik bir günü ay əvəzində
Gərək sən bu yolda gələydin coşa
Keçəydin dəryanı çay əvəzində.

Gəlmədin Suliddin sənsə də barı
Natamam eylədin tam arzuları
Mən olsam sanmazdım boranı, qarı
Aşardım Qoşqardan yay əvəzində.

Elsiz nə ləzzəti məclisin, toyun
Gələrdin Yusiflə tutardın oyun,
Demədim ki, mən göndərən məktubun
Müxtəlif bəhanə say əvəzində.

*5 fevral 1959*

## GƏLİN

Səhər-səhər niyə məlul durursan
Çəkirsən nədənsə intizar gəlin.
Sən elə baxanda canım alırsan
Salırsan könlümə min azar gəlin.

Adətdir çırpmır qəfəsdə bülbül
Sən ki, qəm yüklüsən nə danış, nə gül,
Elçilər gələndə tutulaydı dil
Çıxaydı qarşıya bədnəzər, gəlin.

Nə edim həsrətlə baxırsan mənə
Bilirəm tay deyil o kəmtər sənə
Sarmaşıq sarınıb gül bədəninə
Qismət olub xara laləzar gəlin.

Sən sərgəştdə uydun mən səngi dilə,
Sən bülbülə həsrət, məndə ki gülə,
Neçə ki əlimiz çatmayıb ələ
Çəkək hər ikimiz ahu-zar gəlin.

Doyubsan fələyin qəm kötəyindən,
Billəm kudurətin baş verib nədən,
Əl çəkmə Yusifin tut ətəyindən
Təbibdi dərmanın o yazar gəlin.

*12 avqust 1960, Nərimanli*

## GƏLİNİN ÇAVAVABI

Kaş ki lal olaydım fani dünyada
Anlamaz nadana yar deməyəydim
Bundansa tay-tuşa qohum-qardaşa
Mənim də sevgilim var deməyəydim.

Elçilər gələndə içmədim ağı,
Çəkdilər sinəmə cəhənnəm dağı,
Çıxaydım dağlara Məcnun sayağı,
Boran deməyəydim qar deməyəydim.

Əllərim qoynumda qalmışam belə,
Çıxmaq olmur nə qonşuya, nə elə,
Gərək əzəl gündən gələydim dilə,
Atamdan ayıbdı, ar deməyəydim.

Daha sızıldaram mən yana-yana,
Dadıma yetişməz nə ata-ana,
Kor olan gözlərim baxaydın buna,
İndi də dünyaya dar deməyəydim.

Qəm dağını nə dırmanım, nə aşım,
Hələ çox bəlalar çəkəcək başım
Bahar leysanı tək axan göz yaşım
Olubdu üzümdə car deməyəydim.

*13 avqust 1960, Nərimanlı*

## QAZANIRAM

Elm aləmində kal qanan arvad
Elə gileylisən az qazanıram
Yeyirsən, geyirsən, gəzirsən azad
hələ eyləyirsən naz, qazanıram.

Gündə toğlu yesə ferma müdiri,
Sənin tək düşünmür irəli, geri,
Bir də görüsən ki haradır yeri,
Mən də azad gəzib yüz qazanıram.

Düz deyirsən çırpışdırıb yeyirlər,
40 gün çəkir üst açılır bilirlər,
Köpün alıb vəzifədən silirlər,
Çökdürürlər yerə diz, qazanıram.

Mühəndis öyrədir, loğman yetirrəm,
Xəstələrə şəfa, dərman yetirrəm,
Göyləri fəth edən insan yetirrəm,
Alimdən dərs alıb söz qazanıram.

Bufetçi, briqadir görürəm mən də,
Əyrisin əyirlər yeri gələndə,
Yusifəm, müəlliməm öz sənətimdə,
Tutmuşam doğru yol, düz qazanıram.

***11 iyul 1966***

## DÖNDƏRİR

Əmioğlu, yazdığın yanğılı sözlər,
Oxuyanda bağrım qana döndərir
Təqsirsiz qürbətdə tənha qalmağım
Əlif qəddim əyib yana döndərir.

Bir vaxt oldu üz döndərdi ellərin,
Aydın oldu günahsızdı əllərin,
Düşəndə yadıma azad günlərin,
Bahar könlüm zimistana döndərir.

Dünyada çox olub fırıldaq, kələk,
Yusif az görməyib yan əsən külək,
Bir də görürsən ki, səbrli fələk
Miskinini Süleymana döndərir.

*1957-ci il.*

## DAĞLAR

Hər il yayda həsrətini
Çox çəkirəm bilin dağlar,
Aranın qəza qədərin
Mən deyim, siz gülün dağlar.

İlin laləzar çağında,
Odlu Xəzər qırağında,
Bədənimdən tər axanda
Yada düşür yelin dağlar.

Mən gedəndə ellər gəlir,
Çeşmələr əlvan bəzənir,
hanı indi görünməyir,
Köçüb gedib elin dağlar.

Hər avqust ayı gələndə
Geri qayıdıram mən də,
Görürəm solub çəməndə
Süsənin, Sünbülün dağlar.

Mən də gəzmək arzularam,
İnşallah nail olaram,
Yusifəm məskən salaram,
Olaram bülbülün dağlar.

*Baki-Kəlbəçər-Nərimanli, 21 avqust 1953.*

## DAĞLAR

İlin laləzar çağında
Mehman oldum sizə dağlar
Belə bilsəm gəlməz idim
Sözün düzü üzə dağlar

Leysanın həddini aşıb,
Güllərin qəmə uğraşıb,
Çovğun dümana qarışıb
Göz görünmür gözə dağlar

Gör nə zillət verdin elə
Guruldadın gəldin dilə
Obalar nər oldu selə
Hörmət qoydu bizə dağlar

Xeyli müddətdi gəlmişəm
Bir doyunca gəzməmişəm,
Yay günündə qar görmuşəm
Hey verirsən məzə dağlar

Yoxsa məni sevməyirsən,
Qonaq qəbul etməyirsən,
Yusif gedər sonrasa sən
Köksün əlvan bəzə dağlar

*Başlıbel - Ağcaqız yaylağı, 3 iyul 1957.*

## QIZLAR

Çöllər al-əlvan görünür
Yayılıbdı düzə qızlar
Qar altından bənövşə tək
Bəzəniblər təzə qızlar

Məcnun görsə ayaq şaxlar
Kərəm pərvanətək yanar
Fərhad qələm-qaşdan umar
Mən mayılam gözə qızlar

Əyləşibsiz şah taxtında
Əsli, Şirin büsatında
Yusif bu ahıl vaxtında
İstəp sizlə gəzə qızlar

*29 may 1956.*

## YANA DUR

Pəncərədən baxan gözəl
Canımı aldın yana dur,
Yardan yaralı könlümü
Atəşə saldın yana dur.

Hər gözəldə bir eyib var,
Səhv edib deyən atalar,
Gəlib səndə tapsa onlar,
De eşqə daldın yana dur.

Məni məcbur etdin niyə,
Yek günəşi du bilməyə,
Biri qalxdı seyr etməyə,
Yerdə sən qaldın yana, dur.

Al yanaqlı ləbi şirin,
Bu söhbətə nədi fikrin,
inan Yusif bilər qədrin,
Demə qocaldın yana dur.

*Sarıyaqub kəndi, 1959-cu ilin qışı*

# YELLİ

Ellərin gözəl yaylağı
Pərişandı halın, Yelli.
Göyçənin adlı bulağı
Dəyişib xəyalın, Yelli.

Səni yayda arzulayan,
Payız fəsli oldu mehman
Qovub töküb kəndə duman,
Yoxdu cah-cəlalın, Yelli.

Bu gün səndə məskən saldıq,
Bahar fəslindən də artıq,
Keçmişindən soraq aldıq
Kəsib qeyli-qalın, Yelli.

Solub vəfasız güllərin,
Köçüb gedibdi ellərin.
Yusif kimi bülbüllərin
Soruşur əhvalın, Yelli.

*Xəlil, Qaytaran, Yusif. 1952 sentyabr*

## AĞLADI

*Əli Qurbanovun məktubuna cavab*

Oxudum məktubun, ay Əli qardaş,
Baharım dil dedi, yazım ağladı
Çox çalışdım tox saxlayam özümü,
Ürək məcbur etdi gözüm ağladı.

Təsəlli verirsən hanı dünyada,
Mərhumların varmı sanı dynyada,
ilk dəfə vəfasız fani dynyada,
Bacım nalə çəkdi, qızım ağladı.

Miras qoyur övladına anası,
Yusif bu qüssəni, kədəri, yası,
Elə bil duymuşdu taxta parçası,
Toxuncaq siminə, sazım ağladı.

*24 aprel 1967*

## YADIMA DÜŞDÜ

Yenə coşa gəldi qəlbimin tarı,
Qohumum, qardaşım yadıma düşdü.
Xalam, xalam oğlu, xalam qızları,
Qürbət eldə bacım yadıma düşdü.

Unutmaq olarmı Göyçədə yazı,
Toplaşa başına gəlini, qızı,
Böyük ev damında çalardıq sazı,
Cavanlıq yoldaşım yadıma düşdü.

Ayrılıq artırıb bu dərdi, səri,
Qohumun qohumdan yoxdu xəbəri,
Biz ki yad olmuşuq o gündən bəri,
Yusifəm, sirdaşım yadıma düşdü.

*Slavyanka-Musa, 1961-ci il*

## DÜŞÜBDÜ

Gördünmü Məcnunu dağlar qoynunda
Yazıq Leyli deyə nə hala düşdü
Biçarə Leyli də qəm otağında
O da Məcnun deyə xəyala düşdü.

Kərəm Əsli üçün keçdi canından
Əsli Kərəm deyin çıxdı yolundan
Zalım keşiş tutdu onun qolundan
Baş alıb mahaldan mahala düşdü.

Fərhad, Şirin deyib dağları dəldi
Şirin də Fərhadın yanına gəldi
Xəyyam bu dövrana baxdı da güldü
Yusifin əlindən piyalə düşdü.

## ÇIXIBDIR

Zalım qızı, niyə mənə qəsd etdin
Qalxıb hərarətim yüzə çıxıbdır
Əqlim gedib, huş başımdan yayınıb
Dərdim dalğa vurub dizə çıxıbdır.

Duruşu maraldı, baxışı ceyran
Qanrılıb baxanda ovlayır insan
Ərmağan gətirmiş qarlı dağlardan
Göllərdə sonadır üzə çıxıbdır.

Məst edir Yusifi Ənbəri suyun
Şöhrəti, ziynəti sənsən bu toyun
Cilvələnən Məhtabana ad qoyun
Əvvəlki ay deyil, təzə çıxıbdır.

*Qaraqoyun kəndi, 31 dekabr 1959*

## ONDAN AYRIL

Ay bimürvət, məni dilə gətirdin
Xəstəyəm yanıma gəl ondan ayrıl
Bəlkə təbibimsən, dərman yetirdin
Bu pünhan dərdimi bil, ondan ayrıl.

Sinəm yolun olsun, özüm də qulun,
Saxlasan nökərin, satsan da pulun,
Ləblərin ləbimdə, boynumda qolun,
Axan göz yaşımı sil ondan ayrıl.

Mən səni sevdiyim xeyli zamandı
Firqətindən cismim alışdı yandı
Demirsənmi bu Yusifdi, cavandı,
Gedirsən göz-gözə gəl ondan ayrıl.

*1947-ci ilin payızı*

# İNCİMƏSİN

Hər zaman önümdən keçən bəxtəvər
Asta cövlan eylə yol inciməsin
Danışa bilmirsən işarə eylə
Gəlin başa düşüb dul inciməsin.

Yoxsa incimisən alagöz, məndən,
Ona görə gizlənirsən gözümdən
Bir busə istərəm o gül yerindən,
Elə götürərəm xal inciməsin.

Yadma düşməsin uzaq diyarın
Tərk etmə özgəyə o gül nübarın
Sən mənim sevgilim, mən sənin yarın
Səcdə qıl Yusifə, qol inciməsin.

*1948-ci il 20 may.*

## GÖNDƏR

Yolun gözləməkdən zəlili zaram,
Ölürəm dərmanın varsa da göndər
Deyirlər turşudu, iştah açandı,
Dər sinən üstündən narsa da göndər.

De niyə susubdu tutu dillərin,
Tez yetir başıma sərin əllərin,
Yadıma düşübdü şirin ləblərin,
Təbib dodağından barsa da göndər.

Həsrətindən Məcnun kimi gəzərəm,
Sanki sən Əslisən, mən də Kərəməm
Yusifəm, qəmkeşəm alışır sinəm,
Söndür öz əlinlə qarsa da göndər.

*1948-ci il, Məzrə kəndi*

## QOCALMAZ

Yaxşı yaman ömür sürən qocalar
Əhli dil sevgisi olan qocalmaz
Düşsə də qürbətin uzaq küncünə
Yüz dərdi bəlaya dalan qocalmaz.

Nazik barmaq, nazik dodaq, zərif tel,
Mina gərdan, alma yanaq, incə bel,
hilal qaşlı, ox kiprikli, şirin dil
Var bizim kənddə də filan qocalmaz.

Yerişinin misli yoxdu cahanda
Baxışının ləzzəti var dəhanda,
Yusif deyər ömür günün sayanda,
Bununla birlikdə qalan qocalmaz.

*1956-cı il.*

## TALAN HA DEYİL

Həsrətindən divanə, sər gəzirəm,
Özün də görürsən yalan ha deyil,
Bir busə istərəm öpəm, dincələm
Dodağım üzündə qalan ha deyil.

Dedim icazə ver oynadım narı,
Şamama misallı o yetgin barı,
Dedin, zəhmət çəkmə var sahibkarı
hər öldüm deyənə talan ha deyil.

Dedim sən vicdanın gəlginən yola
Dedi aç qolların boynuma dola
Dedim ki, ləblərin bələnib bala
Yusif öpməyinnən doyan ha deyil.

*1952-ci il.*

## YETİŞMİR

Yazıram, pozuram eşq həvəsiylə
heyif bircə kəlmə yara yetişmir,
Bülbül tək avazım simli saz ilə
Bahar fəsli Gülüzara yetişmir.

Qəlbim fəryad edir dağı dolanır,
Könlüm Kərəm kimi çarthaçart yanır,
Zalım qızı sərin-sərin boylanır
Elə bil ki, bəxtəvərə yetişmir.

Yusif çox düşündü əllini, mini,
Əfsanə keçirdin fənada sini,
Gül anlayar bülbülünün dərdini,
Əgər yetsə edər çarə, yetişmir.

*1948-ci il oktyabr.*

## ETİBARSIZ

Əzəldən sən deyib, sən danışardın
Nə oldu dinmirsən, ay etibarsız,
Gah məndən küsərdin gah barışardın,
İndi yan gedirsən ay etibarsız

Həsrətin çəkməkdən cana doymuşam,
Şirin canım yar yolunda qoymuşam,
Baxışından fikrini duymuşam,
Ozgəsin güdürsən ay etibarsız

Sən ki, öz sirrini mənə deyibsən,
İllər boyu danışıbsan, gülübsən,
İndidə də Yusifi yad eleyibsən,
Gör kimnən gəzirsən, ay etibarsız

*1956-cı il may*

## ÇÖL CEYRANI

Əlləri qurumuş ay naşı səyyad
Eləmi vurarlar çöl ceyranını
Şama həsrət qalan pərvanə kimi
Odamı qalarlar çöl ceyranını.

Nədəndir ilahi düşünmür dərin
Zərgərə göndərmir bol simuzərin
Hərifsən bilmirsən sən onun qədrin
Topamı salarlar çöl ceyranını

Yusif qoyma gül üstünə sar qonar
Dözəmməz əndəlib alışıb yanar
Bilmirsənmi mahir ovçu olanlar,
Əlindən alarlar çöl ceyranını.

*1954-cü il*

## NECƏDİ

Başına döndüyüm əhli dil qasid,
Söylə görüm sizin ellər necədi?
Həsrətindən divanə sər olduğum
Qürbət eldə şirin dillər necədi?

Uçurmuşam əldən bir tülək tərlan,
Yüz il də dolansa kəsmərəm güman.
Bülbülü unudub sara qoşulan
Xar içində bitən güllər necədi?

Məni Məcnun edən qaşları kaman,
Yusifin dərdinə edərmi dərman.
Çin-çin olu gərdəninə dolanan,
Qıvrım-qıvrım şana tellər necədi.

*1956-cı il, 26 avqust.*

## OLARMI

Ala gözlüm bir sözüm var sirr idi
Cürət edib aşkar demək olarmı
İllər boyu gizlətdiyin camalı
Bağışlayın bu gün görmək olarmı

Mən ki almamışam cahanda kamı
Göz üstə saxlaram belə mehmanı
Sinən üstə yetgin tər şamamanı
Bir pünhan otaqda dərmək olarmı

Sənubər, düşünmə mən qocalmışam
Sənin həsrətindən dərdə dalmışam
Sirri olan sözüm budur vəssəlam
Müxtəsəri səni sevmək olarmı.

*Çaxırlı gözəli Sənubər, 1956-cı il, 20 noyabr*

**SƏNİN**

A bivəfa, neyləmişəm küsübsən
Öz pisliyin qalar özünə sənin
Köhnə yoldan get-gəlini kəsibsən,
Mən də görünmürəm gözünə sənin.

Heç bilmirəm bu tez təvlik nədəndi
Bir sözdü, deməmiş olaram indi
Daha təriflərəm sən olan kəndi,
İndən sonra mənə sözün nə sənin.

Adət budur aşiq umar gözəldən,
Barışmasan əlim üzərəm əldən.
Bu xasiyyətdə bilsə idi əzəldən,
Yusif addamazdı izinə sənin.

*1966-cı il, may.*

## BƏXTİM

Bir səfa sürmədim fani dünyada,
Çıxartmadın məni bir yana bəxtim.
Dərdimi artırdın həddən ziyada
Salıbsan qəlbimi gümana bəxtim.

Gahdan ucalırsan mavi göylərə,
Gahdan qəmgin-qəmgin enirsən yerə.
Gahdan çatırsan da cüzi xeyirə,
Gahdan da çapırsan ziyana bəxtim.

Gahdan qeyli-qallar, çatır davaya
Gahdan da Yusifi salır cəfaya
Gahdan yetişmirsən haya, haraya,
Gahdan da bac vermir, sultana bəxtim.

*1944-cu il.*

# NƏDƏNDİR AY QIZ

Sən məni görəndə belə baxmazdın,
Laqeyid baxmağın nədəndir, ay qız.
hörmətlə-izzətlə qulluq edərdin,
Gizlənib qaçmağın nədəndir, ay qız.

Bu gün niyə təklif oldu özgəyə,
Fırlanırsan ona can deyə-deyə.
Anlamıram yanımdakı gədəyə,
Süzüllüb axmağın nədəndir, ay qız.

Nə danışdın işin darda qalanda,
İki üzlüsən bacarırsan yalan da.
Bir sən, bir mən, yerin xəlvət olanda,
Özündən basmağın nədəndir, ay qız.

*1954-cü ilin payızı.*

**ÖLLƏM**

Bir baxçada iki nara aşiqəm,
Dərsəm öldürərlər, dərməsəm ölləm.
Leyli nahar örpəyinin altından
Görsəm öldürərlər, görməsəm ölləm.

Bir işarə anlamışam sözündən,
Könül busə istər o gül yenidən.
Bahar leysanı tək tökər gözündən,
Silsəm öldürərlər, silməsəm ölləm.

Yusifin yetişib həddinə sini
Günü-günnən artır söhbəti, ünü,
Açılmış qönçənin solan dərdini,
Bilsəm öldürərlər, bilməsəm ölləm.

**DAĞLAR**

Gəldi bahar fəsli car oldu sellər,
Meyl edir sinənə mehmanın dağlar.
Yaylaq həsrətiylə yeriyir ellər,
Görüb soruşurlar əhvalın dağlar.

De nədəndi yaşıl başın qaralı,
Açılmamış gül nərgizin saralı.
Ellərin qoynundan düşüb aralı,
0, elsiz, obasız nə halın dağlar.

Çoxunun aranda qoydun evini,
Bürkü vurur, qəmgin qəlbi döyünü
Cida saldın Xəlil ilə Söyünü
Belə kamil olmaz imanın dağlar.

Telli əsən həsrət qaldı yaylağa
Bəhrəm tək nəhəngi saldın sorağa
heç kim dözməz belə dərdə, fərağa
Kəsibsən Yusifdən gümanın dağlar.

## YAZARDIM

*1957-ci ilin 26 iyunundan 5 iyula kimi aşagıdakı dağları gəzmişəm*

Mən də şairlər tək yaza bilsəydim,
Gəzdijim yerləri geniş yazardım.
Kəlbəcər, Alxaslı, Baş Qaraçanlı
Ağcaqız elləri geniş yazardım.

İstisu, Seyidlər qatarlı darlar,
Qarabağ məskəni gözəl yaylaqlar.
hər daşın dibindən axan bulaqlar,
Daş qovan selləri geniş yazardım.

Dəlidag sinəmə çəkmədinmi dag,
Keçən il Vurğun da olmuşdu qonaq.
İstərdi qayıtmaq, olmadı ancaq,
Gəl deyən dilləri geniş yazardım.

Yusif, dayan İstisuyun qaşında,
Toy-bayramdı, gəlin qaya daşında.
Qaraxaçda, Çoban bulaq başında,
Türfə gözəlləri geniş yazardım.

## GÖRMÜŞƏM

*1954-cü il 4 iyunda qaldığım Xındırstan obasının qısa təsviri*

Sizə deyim Xındırıstan obasın,
Bu il gedib hər əhvalın görmüşəm.
Tapmaq olmur dərdlərinin çarəsin,
Ona görə qeyli-qallı görmüşəm.

Möhsüm qürrələnir, basır özündən,
Qılıncburun Zəhra gülür gözündən.
Aclıq yağır kar Şükürün üzündən,
Lala arvadı çox zavallı görmüşəm.

Qasım ağsaqqaldı pis demək olmaz,
Sevdimalı mərifətdən anlamaz.
Narışnan Şamı da bunlardan qalmaz,
Kök Lalanı çox sanballı görmüşəm.

Zibər yetim qızdı, bir uzun hoqqar,
İgidsən Zərvənin felindən qurtar.
Firuzə əl altdan obanı qatar,
Qızları da bu minvallı görmüşəm.

Qarabağdan dağa təşrif gətirib,
Çiçək mərifətdən payın götürüb.
Yusif də sözlərin sona yetirib,
Deyir dağı, bu cəlallı görmüşəm.

## DƏYMƏ

Əli duadadır, insan oğlunun,
Fələk, qocaya dəy, cavana dəymə.
Ədalətnən ara yaxşı yamanı,
Qanmazı başa sal qanana dəymə.

Zəlili-zar etmə günahsızları,
Gözü yolda qoyma intizarları.
Nakam aparmaynan oğlan, qızları,
Eşq odu şirindi yanana dəymə.

O körpü ki, durur el keçəsidi,
Cavan da qocalıb, bil keçəsidi.
Atanın-ananın o bircəsidi,
Yurduna varisdi, sən ona dəymə.

Saxla qız gəlini, apar qarını,
Qoy bağ salsın, hamı görsün barını.
Tacsız qoymaginən göy quşlarını,
Sarı xəzana yaz, tərlana dəymə.

Yusifəm, əlliyə cavan deyirəm,
Altmışa, yetmişə heyfslənirəm.
Səksəndən yuxarı qoca bilirəm,
Səksəndən aşağı insana dəymə.

20.09.1970

## GÖRÜM

İstəyirəm şəhər gəzəllərini,
Səhər yuxusundan durmamış görüm.
Təbii görkəmin həsrətindəyəm,
Ənliyi kirşanı vurmamış görüm.

Qaşları "qüdrətdən" sürmələnməmiş,
Kipriklər neştərtək iynələnməmiş.
zülfləri qabara düymələnməmiş,
Kəlləsində kəllə burmamış görüm.

Günəş vurar, yağış dəyər, yel əsər,
Süni gözəllik də solar sərasər.
Yusif deyər sözlərini müxtəsər,
Əlli iki əndazə qurmamış görüm.

*1972-ci il 30 may*

## MOLLALAR

Məclislərdə haray salır,
Aranı qatan mollalar.
Özgəsini tənqid edir,
Əvvəlcə çatan mollalar.

Nə xəbərsə eşidiblər,
Daldada yatan mollalar.
Təzə forma geyiniblər,
Mamlı-matan mollalar.

Qarışdırıb ərəb, farsı,
Bilmirəm nə dil oxuyur.
Utanmadan gül sözünü,
Cəsarətlə kül oxuyur.
Məna məzmun qarışdırıb,
Düldülü bulbul oxuyur.

Düz ola, əyri ola,
Dirənmir dil-dil oxuyur.
həqiqətdən mooz eyləyir,
Vicdanın satan mollalar.

Mey məclisin tərk eyləyib,
Təsbeh alır, namaz qılır.
Üzünü çevirib cənuba,
Gah çox qılır, gah az qılır.

Yusif deyər, anlamır ki,
Dərin qılır, dayaz qılır.
Naharını gizlin edir,
Kəm oruc tutan mollalar.

## OLUBDU

İkiüzlülük daha keçib vərdişə
İndi çoxüzlülük moda olubdu
haqsızlıq böyüyüb balu-pər açıb
həqiqət kiçilib ada olubdu.

Əyri vurub yerin yeddi qatından
Doğrunu endirib səmənd atından
Çərxi zəmanənin ucbatından
Yalan atlı, düz piyadə olubdu.

Vicdan belə çəkir, dövran da elə
Susubdu ədalət, bir gəlmir dilə
Qaraya deyirik ağ, bilə-bilə
Düz dolanmaq qəhri-qəda olubdu.

Alimi mat qoyur hiylə, fırıldaq,
Yusifə hökm edir dünənki yaltaq
Naşıya hay verir savadsız maymaq
Nə olubsa ol ustada olubdu.

## SÜLH VƏ MÜARİBƏ

*SÜLH*
Aləmin arzusu, ilk düşüncəsi
Milyonların səsi mən deyiləmmi?
Xalqların dilində car eylədiyi
Sevimli cümləsi mən deyidəmmi?

*Müharibə*
Aləmi titrədən topun, tüfəngin
O dəhşətli səsi mən deyiləmmi?
Dünyanı yenidən bölmək istəyən
Zalımların bəhsi mən deyiləmmi?

*SÜLH*
Gülüyəm əbədi solmayan bağın
Poladdan möhkəmdi qırılmaz tağım.
Yenicə dil açan körpə uşağın
Əzəlki kəlməsi mən deyiləmmi?

*Müharibə*
Bir şahmar ilantək pusquda yatan
insan həyatını dollara satan
Vətən övladının yasını tutan
Ananın naləsi mən deyiləmmi

*SÜLH*
Haqqın, ədalətin, bu gen dünyanın,
Yüksəldərəm ərşə şöhrətin, şanın
Elmin, mədəniyyətin, bu texnikanın
Ən yüksək zirvəsi mən deyiləmmi?

*Müharibə*
Hər cür xarabalıq ahı-zar sevən
Çaxnaşma yoliyla mənfəət güdən
Atəşlə oynayıb silahla gəzən
Hitlerin varisi mən deyiləmmi?

*SÜLH*
Səni arzulayan kimdi dünyada
Beş-on kapitalistdi, yelkəntək o da
Okean sıxışdırır qalıb ortada
Dalğanın zərbəsi mən deyiləmmi?

*Müharibə*
Dünyaya salmışam yenə vəlvələ
Ərəb ölkələrin demirəm hələ,
Ya sən, ya mən görək kim qalib gələ
Diplomat hiyləsi mən deyiləmmi?

*SÜLH*
Avropa, Asiya çoxdan ayılıb,
Səadətim Afrikaya yayılıb
Təməl daşım Amerikaya qoyulub
Yusifin ellisi mən deyiləmmi?

# İÇƏNDƏ

Dünya mənə cənnət bağı görünür
Məclislərdə bala-bala içəndə
Oturmaram yarımçığın yanında,
Sarsaqlayır bir piyalə içəndə.

Pulsuz araq vur ki, gəlir xoşuma
Yarım litr isti verir başıma
Tez təsir eyləyir niyə qonşuma,
Mən gəlirəm təzə hala içəndə.

Mərdləşirəm, əmlikləri soyuram,
Səxavətdə hatəmi mat qoyuram,
Doğrunun üstündən yalan qururam
Tez düşürəm gec xəyala içəndə.

Oynamaqda meydanı tək alıram,
Çıx desələr bir vəlvələ salıram
Ayılanda matı-məətəl qalıram
Niyə düşdüm qalmaqala içəndə?

Harda məclis varsa orda hazıram,
Bir yarım vuran tək ağlım azıram
Qovsalar bayırda səkkiz yazıram
Yeriyirəm dala-dala içəndə.

Uşaqlar qısqanır qorxunc üzümdən
Arvad fürsət tapıb qaçır gözümdən
Kimin nə həddi var çıxa sözümdən
hay salıram, bu mahala içəndə.

Gəl, sən eşit bu Yusifin sözünü,
Yad süfrəyə dikməyinən gözünü,
Utan dost-tanışdan saxla özünü
Pünhan yerdə çək, daldala içəndə.

**DURMA GƏL**

*Nəvəm Əliyə*

Ellərin nəvəsi öz babasına
Nəvazişlə qulluq edər, durma gəl.
Baba nəvəsini basıb bağrına
Şirin-şirin nağıl söylər, durma gəl.

Nənə onu təklif edər yeməyə,
Nəvə istər bir bəhanə deməyə,
Gündə yüz yol yanağından öpməyə,
Gah qaldırar, gah endirər, durma gəl.

Əzəldən düz deyib ata-babalar,
Övladın əzizi nəvələr olar.
Sən Gəncədə, mən Göyçədə intizar,
Bilmirsənmi baba neylər, durma gəl.

*İyun 1981-ci il*

## GÖR

Əgər vaxtın varsa baharda dostum
Gəl Göyçə elinin yaylasını gör.
Büllur bulaqlarda əli səhəngli
Məcnunun alagöz Leylisini gör.

Səhər çağı çək balağı dizinə,
Gəz çəməndə ətir vursun üzünə,
Asta yeri diqqət yetir izinə
Tökməsin gül-çiçək, jaləsini gör.

Təbiətin mərhəməti bizədi
Yusif, meylin yaylağadı, düzədi,
Qüzeydə bənövşə tərdi, təzədi
Güneyin baş açan laləsini gör.

1982-ci il iyun, İrəvan.

## ÇAĞIRIN MƏNİ

İstərəm, a dostlar, toya, nişana,
Şən mağar qurmağa çağırın məni.
Əziz qonaqlara, qonşu, qohuma
Xidmətə durmağa çağırın məni.

Səadət arzumdu deyim əzəldən,
Xoş keçsin iliniz o keçən ildən.
Belə məclis qurun siz hərdən-hərdən
Çalıb oxumağa çağırın məni.

Yollar bağlı olsa açar gələrəm,
Quşdan qanad alıb uçar gələrəm,
Yusifəm, piyada qaçar gələrəm,
Arana, yaylağa çağırın məni.

## DAĞILDI

*1988-ci il 11 dekabr, saat 22.00*

Səksən səkkiz çox bəduğur il oldu,
Göyçəli Göyçədən yaman dağıldı.
Qapılar bağlandı, çıraqlar söndü
Malı-mülkü oldu talan, dağıldı.

Tənha qaldı Ələsgərin məzarı,
Qəddim əydi ata-ana qübarı,
Silinməz könlümdən el intizarı,
Qalmadı Vətəndə insan, dağıldı.

Ay Fətullah, eylə dilin əzbəri,
Hicran Kərəmiylə oxu sözləri.
Ağlar qaldı ellərimin gözləri
De, Göyçədə qopdu tufan, dağıldı.

Kimə qaldı durna gözlü bulaqlar,
Qarış-qarış gəzdiyimiz torpaqlar,
Boranda, çovğunda körpə uşaqlar
Yarandığına oldu peşman dağıldı.

Kim bilir övladı acdımı, toxdu,
Atanın baladan xəbəri yoxdu,
Düzülüb yollara yorulan çoxdu,
Birliyinə yoxdu güman, dağıldı.

Çalmalı dağ dərdimizi bilərmi?
Şiş Piləkən bu dövrana gülərmi?

Göyçə gölü qəm-kədəri silərmi?
Dəli Qoşqar çəkdi aman, dağıldı.

Bəxti tərəqqidən endi Göyçənin,
Döndü dönərgəsi, döndü Göyçənin,
Baqlandı bərəsi, bəndi Göyçənin,
Gecə-gündüz aşkar-pünhan dağıldı.

Yusifın altmışa çatanda yaşı,
Didərgin çağırdı qardaş-qardaşı,
Bir qrup erməni, nadürüst-naşı
Qatdı aralığı şeytan, dağıldı.

## İLLƏR DÜŞDÜ YADIMA

*Xəstə Bayraməliyə həsr olunur*

Kitablarda şəkilini görəndə
Sazlı-sözlü illər düşdü yadıma,
Yay girəndə köçdüyümüz  yaylağa
Haylı-küylü ellər düşdü yadıma.

"Güneydə" göbələk, quzeydə lilpar,
"Buruqda", "Daş çoban", "Çalmalıda" qar,
"Sunurda" qaynaşan ayna bulaqlar
"Yurd yerində" göllər düşdü yadıma.

Bayraməli boy atdığı Göyçədə,
Nələr yazıb yaratdığı Göyçədə,
Yusif, əlin uzatdığı Göyçədə
Bilirsənmi, kimlər düşdü yadıma.

## XƏBƏR GƏTİR

Uç ay qartal, sənə yoxdu qadağa,
Get, bizim ellərdən bir xəbər gətir.
Seyr elə Göyçəni başdan-ayağa
Özün gözlərinlə gör, xəbər gətir.

Axtar Ələsgəri mərhəmət ilə,
Bu çarxı-dövrandan şikayət eylə,
Müqəddəs yerləri ziyarət eylə
Dururmu Daşkənddə, pir, xəbər gətir.

Yusifəm, Vətənin fərağındayam
O elin, obanın sorağındayam,
Atamın məzarı marağındayam
Dolan gümbəzinə, gir xəbər gətir.

**GÖYÇƏ**

Şəninə laf deyib səhv eyləmişəm,
İndi nəzərimdə cahansan Göyçə,
Mən səni müqəddəs qiblə bilirəm,
Əgər sözlərimə inansan Göyçə.

Çeşmələrin həzin-həzin çağlayır
Çağladıqca könlümüzü dağlayır
Həsrətindən cismi-canım ağrıyır
Xəstəyəm, dərdimə dərmansan Göyçə.

Xəyalən dağlardan aşıb gedirəm
Sanmıram düşməndən qaçıb gedirəm
Yusifəm, yolumu çaşıb gedirəm
Gecələr qəlbimə mehmansan Göyçə.

**GÖRÜNDÜ**

*Eldar İsmayılın Göyçə haqqında verilişinə həsr edirəm*

Eldar müəllim, məni qəmdən ayırdın
Açdın xəritədə Göyçə göründü.
Şahdağ ilə Dik piləkən arası
Gözümün önündə Göyçə göründü.

Ormana bələnmiş vüqarlı dağlar
Qız-gəlin soraqlı ayna bulaqlar
Sahibsiz zəmilər, elsiz yaylaqlar
Elə bil qoyublar dincə, göründü.

Yusif çəkir kədər yüklü daşığı
Bir də görəcəkmi el yaraşığı
Göyçənin qocaman ustad aşığı
Müseyib meydanda təkcə göründü.

## GÖRÜŞƏK

*Əziz dostum Kəlbəcərli Yaqubla Xanlarda görüşərkən*

Açmadı könlümü kədərli görüş
Arzum budur Kəlbəcərdə görüşək.
"Qoşdaşdan" adlayaq "Qaraçanlıya"
Allı-güllü çəmənzarda görüşək.

"Keşdəyin" düzündə məclis qurulsun,
Bəhman desin Qəmkeş çalıb yorulsun,
Tərtərə tökülən çaylar durulsun,
Deyək-gülək, dönüb bir də görüşək.

İstisudan çıxaq "Ala göllərə",
Salam verək təzə düşən ellərə,
Son qoyulsun bu qovğalı illərə,
El yaylağı "Sarıyerdə" görüşək.

Eşidək Şəmşirin haray səsini,
Ziyarət eyləyək məqbərəsini,
Aşaq Murov dağın dik zirvəsini
Ağdabandan bir az bərdə görüşək.

"Əyriqardan" enək Göyçə düzünə,
Nəğmə deyək Ələsgərin sözünə,
Tale gülsün Yusifinin üzünə
Düçar olsun düşmən dərdə, görüşək.

*1993-cü il*

## DAĞLAR

Biz ki, səndən doymamışdıq
Bizdən niyə doydun, dağlar.
Tərk elədin ellərini
Gözü yolda qoydun, dağlar.

Axmasın çeşmən qurusun
Otun yansın, gülün solsun.
Abadlığın viran olsun
Sən ki, yada düsdün, dağlar.

Yusif kimi ağlamadın,
Boran, çovğun çağlamadın,
Gədikləri bağlamadın
Günahını soydun, dağlar.

## XƏBİSLİK DÜŞMƏNİN MAYASINDADI

Qaldırın Qoşqarın başına məni,
Nicatım dağların səfasındadı.
Qoy dəysin sinəmə Göyçə küləyi
Dərmanım Göyçənin havasındadı.

Bəlkə ordan Göyçə gölü görünə,
Qonur dağı ağ dumana bürünə.
Səcdə qılım xan Keytinin pirinə,
İzim Çalmalının talasındadı.

Bir misaldı, dərdsiz aşıq ağlamaz,
Könlüm kədərlidir, coşub çağlamaz.
Yüz məlhəmlə yaram qaysaq bağlamaz,
Məlhəmi Vətənin lalasındadı.

Həsrət qaldım, ömür keçdi yarıdan,
Yusif bilmir nə düşünür yaradan.
Çıx deməklə donuz çıxmır darıdan,
Xəbislik düşmənin mayasındadı.

## NEYNİM

Ay qız, o süzgün baxışın,
Məni oda salır neynim.
Maral kimi sallanışın,
Aşgar canım alır, neynim.

Mən səni həmdəm sananda,
Atəşin yandı canımda,
Amanatın var yanımda,
İllərlə qalır neynim.

Sənsən eşq barının gülü
Yusifdi, onun bülbülü,
Vədə veribsən bir ili,
Əhd-peyman yanır, neynim.

## HAYIF

Yanağmdan busə umur nəfəsim
Versən əhsən deyim, verməsən hayıf,
Bəlkə mənim müşkül dərdim biləsən
Bilsən əhsən deyim, bilməsən hayıf.

Oxşayırsan bahar fəsli gülə sən
Arifsənsə, məqsədimi biləsən,
Könlüm istər bir şövq ilə güləsən
Gülsən əhsən deyim, gülməsən hayıf.

Oxuyub əlif bey çatdın sinə sən
Büllur buxaqlısan, bəyaz sinəsən
Yusifln könlündən qəhri siləsən
Silsən əhsən deyim, silməsən hayıf.

## TƏHLƏ

Gəzdim Qarabağı, dağı, aranı
Gözəl yerdi o Təhlənin yaylağı
Həyalıdı qız-gəlini, piranı
Bu el-oba əziz tutur qonağı.

Dəli dağnan o "Bağırsaq" çatılır,
Çay çeşməsi İstisuda qatılır, "
"Tatallar" çayından yollar açılır
"Sarımsaqlı" "Keçəl dağın" qabağı

Yusif, sən də Qara xaçdan aşanda
Bəlkə nabələdsən yolu çaşanda
Ağ sürülər göy təpənin başında
Görsənəcək Çəfərqullar bulağı.

*1951-ci il*

## GÖRDÜM

Baharın xoş vaxtı seyrə çıxarkən
Şorca dağlarını laləzar gördüm
Cənnəti əladə, bağı behişdə
Elə bil qurulu bir bazar gördüm.

Əcəb gəzdim mən bu bahar çağında
Car olur çeşmələr solu sağında
Süsənli sünbülü "Keyti" dağında
Təkcə bənövşəni ixtiyar gördüm.

Yusifəm, vuruldum bir ala gözə,
Yaşılbaş ördəkli göllərdə üzə
İşarə eylədi gələrsən bizə
Ayrıldıq, baxışda intizar gördüm.

1955-ci il

## GƏLMİŞƏM

Başına döndüyüm gözəllər xası
Uzaq yoldan səni deyib gəlmişəm
Silginən könlümün qalmasın pası
O mah camalını sevib gəlmişəm.

Məcnun xəyallıyam, Leyli gəzirəm,
Çovğuna, borana, qara dözürəm
Qəvvazıyam ləl axtarıb üzürəm
Həsrətin qəddimi əyib gəlmişəm.

Sən Yusifin canın oda yaxırsan
Gah naz edib, gah süzülüb axırsan
Bir de görüm niyə yorğun baxırsan
Yoxsa xətirinə dəyib gəlmişəm.

1950-ci il.

## ŞAHI MƏRDAN

Hüseyin atlandı Yezidə qarşı,
Sən yetiş imdada, ya Şahı Mərdan.
Al qana boyandı Kərbəla daşı
Sən yetiş imdada, ya Şahı Mərdan.

Bir adın Əlidi, biri Qəzənfər,
Bir adın Qəşətşəm, biri də Heydər.
İbn Ziyad məlun çəkibdi səflər
Sən yetiş imdada, ya Şahı Mərdan.

Lənətullah ləin Yezidi pəlid
Qan içən Şümrünü eylədi təkid,
Bir əldə Zülfüqar, bir əldə Əmud,
Sən yetiş imdada, ya Şahı Mərdan,

Hökm eylədi Şümr, təbil çalındı
Nov cavanın dörd bir yanı alındı,
Əli Əkbər rükabından salındı,
Sən yetiş imdada ya Şahı Mərdan.

14 yaşlı Qasım övladı imam
Ana fəryad etdi, mərd dayan balam.
Məğlub olmayacaq cahanda islam
Sən yetiş imdada, ya Şahı Mərdan.

Bimar Zeynalabdin əhli əyalla
Kufəyə üz tutdu əzablı yolla
Yusif, əhli beytə üz verdi bəla
Sən yetiş imdada, ya Şahı Mərdan.

## AY QIZ

Nitqin niyə tutulubdu
Lal olub dillərin ay qız.
Sənə divanmı tutarlar
Eşitsə ellərin, ay qız.

Əgər düşsən kəm xəyala,
Səni salar özgə hala,
Kamalın yaddan daldala
Zay olur günlərin, ay qız.

Bacın gələndə yanına
Vəlvələ saldı canına
Gedər deyəllər anana
O fitnə-fellərin, ay qız.

Sənsən göllərin sonası,
Hanı əlinin hənası.
Yoxdumu zülfün şanası,
Pərişan tellərin, ay qız.

İncidi Yusif özündən,
Vermədin büsə üzündən,
Tökürsən niyə gözündən
Car olub sellərin, ay qız.

## QARIN YERİ ZİRVƏSİDİ DAĞLARIN

Yazın son ayında qar yağan tanrı,
Qarın yeri zirvəsidi dağların.
Bir rəhmin gələydi düzlərə barı,
Qarın yeri zirvəsidi dağların.

Çıxmır dövlət, boran, tutub yolları,
Alan yoxdu kimə sataq malları,
Səs götürüb tövlələri damları,
Qarın yeri zirvəsidi dağların.

Yazın gülşən çağı yağdırırsan qar,
Göyçənin düzünü bizə etdin dar,
Zəmilər təzəcə gətirmişdi bar,
Qarın yeri zirvəsidi dağların.

Zimistanda qardan xələt biçirdin,
Üç ay qışı sən mülayim keçirdin,
Qar boranı yaz ayına köçürdün,
Qarın yeri zirvəsidi dağların.

Bizi imtahana çəksən də yenə,
Kimsə xilaf çıxmaz haqqın əhdinə,
Yusif səcdə qılır ibadətinə,
Qarın yeri zirvəsidi dağların.

## GÜNÜDÜR

Dərmanım da sənsən, təbibim də sən,
Döşə məlhəm eylə, amandı ay qız,
Dolanım başına pərvanə kmi
Daha dözmür qəlbim, dayandı, ay qız.

Divanə sər olub sənsizləmişəm,
Damanma ona görə gəlmişəm.
Didərginəm, səni həmdəm bilmişəm,
Dayanıb qarşında kamandı, ay qız.

Dindirdin Yusifi, saldın kəməndə,
Dərd olub həsrətin gəzir sinəmdə,
De görüm, hurisən, mələksən, bəndə,
Düşmüşəm təşvişə gümandı, ay qız.

*1948-ci il.*

## DƏSMALI

Ala gözlü nazlı dilbər
Göndər dəsmalı, dəsmalı,
Dövrəsində qızıl güllər
Göndər dəsmalı, dəsmalı.

Bizim ellərin sonası,
Çöllərdə ceyran balası,
A könlümün şah qalası,
Göndər dəsmalı, dəsmalı.

Mən qurbanam şəhla gözə,
Nə bilirsən eylə, bəzə,
Vergiinən xəlvət kənizə,
Göndər dəsmalı, dəsmalı.

Geyin gözəl, düzün gözəl,
Lalə yanaq üzün gözəl,
Sözü doğru, özün gözəl,
Göndər dəsmalı, dəsmalı.

Yusifə xoşdur baxışın,
Maral kimi boylanışın,
Dillərdə əzbər naxışın
Göndər  dəsmalı, dəsmalı.

*1947-ci il*

**DAĞLAR**

Duman çəkil o zirvədən
Qoy görünsün bizim dağlar
Umudun üzməyib hələ
Yol gözləyir gözüm dağlar

Quzeylərdə açan güllər
Dərələrdən axan sellər,
Səbrin olsun döz deyillər
Mən nə qədər dözüm dağlar

Çıxam çalmalı dağına
Enəm Qumlu dağına
Düşəm Misgin ocağına
Səcdə qılam özüm dağlar

Hakimlik keçdi nadana,
Qovulduq dağdan arana,
Bu dövrana bu zamana,
Hələ çoxdu sözüm dağlar.

Yusif dəxil düşüb pirə,
Allah özü nicat verə,
Gümanım var bu yerlərə
Bir doyunca gəzim dağlar.

**DÜŞÜBDÜ**

*1988-ci ildə ermənilər bizi doğma vətənimiz Ulu Göyçədən didərgin saldıqdan sonra eşitdim ki, kəndimiz Nərimanlının torpaqlarını öz aralarında bölüşdürüblər.*

Əsrlərlə məskun olan Göyçəli
Didərgindi, eldən-elə düşübdü.
Var-dövlətin tərk eləyib nakəsə
Tarix bəd gətirib belə düşübdü.

Nankorlar lap əzəldən bilibdir,
Onlara da havadarlar deyiblər,
Tələsik torpağı bölüşdürdülər,
Kürdal yeri Arakelə düşübdü.

Dəmyələri bəxş ediblər Vazgenə,
Düz quzeydən hələ umur pay yenə,
Kom yeri Xaçikə, Zina Qurgenə,
Cərgə daşı Sarıtelə düşübdü.

Biçənəyə Surik buğda səpibdi,
Xaça arpa Tapa kartof əkibdi,
Qarabulaq Varazdata yetibdi,
Dovşanqaçan kar Samvelə düşübdü.

Dal təpəni topal Sərkis əkəmmir,
Hacı biçənəyə bir söz deyəmmir,
Albaba yerini Sukas bəyənmir,
Deyir niyə "çəp" Hapelə düşübdü.

Mıkırtıçın bəxti yaxşı gətirib,

Dəyirman altını bütöv götürüb,
Gəlmələr qazanıb yerli itirib,
Torpağımız fitnə felə düşübdü.

Yuatda haxçıqlar, dığalar çimir
Qovuları tutub çəyirli Yemir
Şorağın otunu gor Tatus biçir
Nərimanlı da çöldən çölə düşübdü.

Uzun Güney Dərəyurddan bu yana
Şapalaq da təkcə çatır Vahana
Dərəyurdda Vartan saxlayır dana
Çalmalı da kela-kela düşübdü.

Çaxrağı keşişə iqda veriblər
Sunuru Çeviklər yarı bölüblər
Tülkü təpəsində bir kom tikiliblər
Xırdalar da Rubelə düşübdü.

## YERIDI

Keçdi göz önümdən o şuxu tərlan
Maral tək sallandı yana yeridi
Zövq ilə bəzənən könül sultanı
Məni qoydu yana yana yeridi.

Bəxtəvərin nur tökülür üzündən
Oğrun baxışından, süzgün gözündən
Doymaq olmur şirin şəkər sözündən
Dedim bəlkə bir dayana yeridi.

Əzəldən güclüdür eşqin həvəsi
Ürəkdən ürəyə yol açır bəhsi
Astadan dediyi "Sevmirəm" səsi
Yusifi gətirdi cana yeridi.

*1949-cu il.*

## MÜBARƏK OLSUN

*Səhman müəllimin əziz oğlu Sərhədin toyuna həsr olunur*

Ərşə büİənd olsun şənlik sədası,
Gözün aydın olsun oğul atası
Evinə nur saçsın gəlin butası
Qoşa ömür sürüb yüz yaşa dolsun,
Görüm ay bəj toyun mübarək olsun.

Arzun çiçək açıb gülsün dünyada
Bəxtin oyaq olsun yetiş murada
Layiqli ata ol əziz övlada
Nəvə nəticələr xidmətə dursun,
Görüm ay bəy toyun mübarək olsun.

İqbalın, talehin gülsün üzünə
haqq yönəltsin səadətin izinə
Yusif əhsən desin söhbət, sözünə
Şairlər şəninə çələng toxusun
Görüm ay bəy toyun mübarək olsun

*1998-ci il 17 oktyabr*.

## ONDANDI DEDİ

*Həkim oğlum Nuruya müraciət*

Deyirəm ay  həkim xəstələnmişəm.
Bilirəm dərdini ondandı dedi
Deyirəm sizdən də şübhələnmişəm
Bilirəm dərdini ondandı dedi.

Qolum sızıldayır, əsir əllərim
Dişlərim tökülüb laf vurur dilim
Görəsən, nədəndir ağrıyır belim?
Bilirəm dərdini ondandı dedi.

Elə bil tutulub tor görür gözüm,
Qulağım eşitmir qırışıb üzüm,
Nədəndir, heç kimə kar etmir sözüm?
Bilirəm dərdini ondandı dedi.

Hələ ki, yetməyib səksənə yaşım,
Sızıldayır qalan beş-altı dişim.
Tükənibdir səbrim, qalmayıb huşum,
Bilirəm dərdini ondandı dedi.

Üç yüz il yaşayır qara qarğalar,
Nə loğman tanıyır, nə dərman umar
Bəs nə etsin Yusif kimi qocalar?
Bilirəm dərdini ondandı dedi.

## GÖRMƏDİM

Altmışıncı-səksəninci illərdə,
Mən Göyçədə yoxsul olan görmədim.
Ehtiyac da vardı, möhnət də, qəm də,
Əlamanda, darda qalan görmədim.

Qonşu gedər, qonşusuna gələrdi,
Bir-birinin dərdin-sərin bilərdi
Sevinci də, kədəri də bölərdi,
Tənha qalıb, dərdə dalan görmədim.

Sədaqət də vardı, ülfət də vardı,
Səxavət də vardı, hörmət də vardı,
Xəyanət də vardı, nifrət də vardı,
Açıq-aşkar belə talan görmədim.

Toy oldu, yas oldu, el yığılardı
Cavanlar əlüstü mağar qurardı
Qohum, qonşu, yad xidmətdə durardı
Kimsə daldalana, pünhan görmədim.

Yusif, indi dəyişibdir adamlar,
Kimi yoxsul düşüb, kimi tapıb var.
Qardaş-qardaşına etmir etibar
Yetmiş ildə belə dövran görmədim.

*1998-ci il*

## GƏLMƏDİ

Ayrılıq heç kəsə olmasın qismət
Ayrı düşdük, gözlədiyim gəlmədi.
Əridi sədaqət, azaldı hörmət
Özüm qədər istədiyim gəlmədi.

Ürəyimdə gecə-gündüz andığım
Dost-qohuma nümunə tək sandığım
Çırağında piltə kimi yandığım
Addım-addım izlədiyim gəlmədi.

Möhnətlə keçirsə günü hər kəs
Ömrünü firavan keçirə bilməz
Fil də ağır yükə davam gətirməz
Ad günümdə səslədiyim gəlmədi.

Açıq-aşkar fitnə-fəsad qurdular
Böhtançılar aralığı vurdular
Bu Yusifi intizarda qoydular
Qucağımda bəslədiyim gəlmədi.

*1999-cu il*

## AY XƏLİL MÜƏLLİM

Gənclik illərimiz qovğalı keçdi,
Biz ki, həmyaşıdıq ay, Xəlil müəllim!
Ad günü dediyin yerinə düşdü
Olmuşuq o vaxtdan tay, Xəlil müəllim!

Göyçəliydik indi olduq haralı,
Sən Şəmildən, mən Qənbərdən aralı.
Səni gec görəndə, səbrim daralı
Gəl çıxaq Göy gölə, yay Xəlil müəllim!

Qəlbindən nə keçir təzə vətəndə
Sənin arzularına şərikəm mən də
Eyləyək Gəncənin şənlik evində
Qurbana, Bağbana toy, Xəlil müəllim!

Elə bil ki, Göyçə məni səsləyir
Bizə əl eləyib, qayıt gəl deyir.
hələ səni neçə şənlik gözləyir.
Nəvə-nəticələr say, Xəlil müəllim!

Zəmanə köhləni birbaşa sürür
Yusif, yaradana min şükr deyir
Səni də, məni də, qane eləyir
Allahın verdiyi pay, Xəlil müəllim!.

**AY YUSİF MÜƏLLİM!**

*Xəlil müəllimin cavabı*

Aldım məktubumu töhvə gül kimi
Qardaş, kirvə payı kimi, ay Yusif!
Xəyalım Göyçəli günləri andı
Titrədi qəlbimin simi, ay Yusif!

Bildim Allahla sən verdin Qurbanı
Yüz yaşasın Asim, İqrar, Rizvanı
Şadlıq etsək, Qənbər, Şəmil bəs hanı?
Əvvəldən pak qoydun himi, ay Yusif!

Nəvələr toyundan ilham al sən də
Diləyim baş tutsun şad olum mən də
Heyif ayrı düşdü el şəhər-kəndə
Qismət oldu qaçqın qəmi, ay Yusif!

Xəliləm, vurğunam doğma mahala
Molla Nəcəf, Molla Əli ahala
Şeir yazardın gül yanaqlı cahala
Eylərdin göz-qaşla himi, ay Yusif.

## GƏLİR

Qara bulud nə məkandan gəlirsən,
Elə bil ərmağan toplusu gəlir,
Yəqin yük tutubsan Göyçə gölündən
Şehindən Göyçənin qoxusu gəlir.

Yağı düşmən görüm qalsın ağlara
Ellər həsrət qaldı göy yaylaqlara
Yoxsa toxunubsan bizim dağlara
Səsindən "Çalmalı" sorğusu gəlir.

Nanəciblər qarışdırdı dünyanı
O gölüm, o çeşməm, o çayım hanı
Dostum arifsənsə tamından tanı
Buludla "Qumludan" sərin su gəlir.

Bəlkə gəlib bizdən halı olursan
Gah dağa sarınıb, gah ucalırsan
Narın-narın töküb layla çalırsan
Kədərli Yusifin yuxusu gəlir.

*Göygöl, 1999-cu il*

## GÖZLƏ

Bəxtin yüksələndə çox qürrələnmə
Böhtandan, haramnan özünü gözlə
Hər yetənə sirrin açıb söyləmə
Yalan-şər danışma özünü gözlə.

Xeyir gəlməz nanəcibdən, nadandan
Özü deyib, özü gülən adamdan
Elə davran nə təhqir ol, nə danlan
Nəfsinə hakim ol, gözünü gözlə.

Sənətkar ol, sənətini sev, amma
Yaxşı düşün, yarı yolda dayanma
Paxıl dostun söylədiyinə inanma
Ara-axtar sözün düzünü gözlə.

Həm ibadət, həm səxavət yaxşıdı
Özündən böyüyə hörmət yaxşıdı
Kişidə, qadında ismət yaxşıdı
Nalayiq sözlərdən üzünü gözlə.

Yusif, çox hörmət et, istərsənsə az
Yağı düşmən dönüb qəlbən barışmaz
Mərd igidə yaltaqlanmaq yaraşmaz
Öz ata-babanın izini gözlə.

## QALARSAN

Dişin tökülməmiş qazancını ye
Töküləndə baxa-baxa qalarsan
Yumşaq axtararsan, quymaq gəzərsən
Damağını sıxa-sıxa qalarsan.

İstərsən yeməyə, tapmazsan qutab
Xəngəl arzularsan, çəkərlər hesab
Süfrəyə gələndə bozartma, kabab
Süzülərsən axa-axa qalarsan.

Kartof bişsə götürərsən yekəni
Acı dadsa, qınayarsan əkəni
Çeynənməmiş ötürərsən tikəni
Gözlərini çaxa-çaxa qalarsan.

İştahın var çərəz meyvə yeməyə
Ələ keçsə ləziz-ləziz xörəyə
Turş qatığı, quru, boyat çörəyə
Yaxmacını yaxa-yaxa qalarsan.

## XOŞ GƏLİBSİNİZ

*Nəvəm Samirin toyuna*

Yaxından-uzaqdan xoş məram ilə
Əziz qonaqlarım, xoş gəlibsiniz
Mehriban qonşular, dostlar, qohumlar
Siz dinim, imanım, xoş gəlibsiniz.

Siz mənim kərbəlam, siz mənim hacım
Siz mənim fərəhim, siz mənim tacım
Siz mənim qardaşım, siz mənim bacım
Ey, sultanım, xanım, xoş gəlibsiniz.

Güllər açsın ömrünüzün bağında
Allah qismət etsin övlad toyunda
Yusifəm, istərəm ahıl çağımda
Xidmətə dayanım, xoş gəlibsiniz.

*1999-cu il 18 sentyabr.*

## ƏLƏSGƏR

*Aşıq Ələsgərin 175 illiyinə*

"Yaxşı hörmətinən, təmiz adınan"
Kəşf elədin bu Qafqazı, Ələsgər
Mükəmməl dərs aldın ustad Alıdan,
Yüz il çaldın solda sazı Ələsgər.

Şəriət şərindən söhbət salanda
Heyi-yeyə, dalır yeyə çalanda
Hərflərin mənasını açanda
Heyran qaldı axund, qazı Ələsgər.

Hər dağa adbaad bir tərif dedin
Xoşbulağı xoş səfalı söylədin
Fəsilləri bir-bir təhlil elədin
Payız, qışı, yayı, yazı Ələsgər.

Nələr yazdın mərd igidin şəninə
Mərifətin üstün gəldi nəfsinə
Sən düşmədin var-dövlətin bəhsinə
Qəbul etdin çoxu-azı Ələsgər.

Hörmət etdin cavanlara, qocaya
Ehtiram göstərdin ana-bacıya
Bəlkə Anaxanım küsə, acıya
Vəsf edibsən Müşgünazı Ələsgər.

Adınla, ünvanın tarixdə qaldı
Yusif deyər Göyçə sənlə ucaldı
Dərsi azlar gəlib səndən dərs aldı
Bilməsən də oxu-yazı Ələsgər.

## GÖRƏNDƏ

Asta sür ay Asim, doyunca baxım
Kövrəlirəm bu dağları görəndə
"Çalmalı" gözümün önünə gəlir
Qoşqarın başında qarı görəndə.

Vətən deyə, alışıram oduma
İllər keçir, yetişən yox dadıma
"Dərə yurd", "Sarı yer" düşür  yadıma
Xoşbulaqda yaylaqları görəndə.

Məni yaxşı qonaq etdin əmliyə
Gəlməyibdir Yusif burda illiyə
"Telli" bulağına "Qumlu" "Yelli"yə
Bənzədirəm bulaqları görəndə.

## GÖYÇƏ

Bir əsrdə neçə dəfə talandın,
Başı qeylü-qallı, bəlalı Göyçə.
Namərdlər əli ilə oda qalandın,
Müqəddəs ocaqlı, qalalı Göyçə.

Min doqquz yüz beşdən ibarət almadıq,
On səkkizdə qaçqın düşüb dağıldıq,
Vətən çəkdi yağılara inandıq,
Seçmədik haramdan halalı Göyçə.

Mikoyana arxalanıb durdular,
Qırx səkkiz, əllidə hiylə qurdular,
Türkləri yurdundan birdə qovdular,
Tökdülər arana mahalı Göyçə.

Səksən səkkiz divan tutdu ellərə,
Tərki vətən olub, düşdü çöllərə,
Vəziryanlar uydu fitnə-fellərə,
Olmadı dərdindən bir halı Göyçə.

Qorqud nişanəsin saxla əmanət,
Xətai övladı götürməz töhmət,
Yusif deyər səndə qaldı səxavət,
Yaylaqlı, bulaqlı, səfalı Göyçə.
***1990***

**QOCALDIM**

Özüm sevib seçdiyim bu sənətdə,
Həyatımı qoya-qoya qocaldım.
Dəqiqəni saatları, günləri,
Altmış ildə saya-saya qocaldım.

Göyçə getdi, arzum qaldı gözümdə,
Nə təbəssüm, vüsal yoxdu üzümdə,
Qarabağı dərd elədim özümdə,
Ürəyimi oya-oya qocaldım.

Yaltaqlıq eyləyib böhtan demədim,
Zəhmətlə qazandım, haram yemədim,
Öyrəndim, öyrətdim can gəzdirmədim,
Gələcəyi duya-duya qocaldım.

Atam kimi məndə hörmət qazandım,
Onuntək övladın qeydinə qaldım,
Xəsislik eyləyib çox varlanmadım,
Haqq verəndən doya-doya qocaldım.

Atam Molla Əli, Yusifdi adım,
Elimdə o oldu əsl ustadım,
Sulidini, Firudini anladım,
Din İslamı yaya-yaya qocaldım.
***2007***

## DÖNMÜŞƏM

Altmış il işlədim, ara vermədən,
İndi orman basmış yola dönmüşəm.
Dörd dəfə əməliyyat keçirmiş bədən,
Əlif qədd əyilib dala dönmüşəm.

Mərifət hər kəsin varsa genində,
Ədəb ərkan göstərəcək qanında,
Təkəbbürün nadanların yanında,
Sikkəsi qaralmış pula dönmüşəm.

Yuxum gəlmir gecələri yatmıram,
Gündüzlər də istədiyimə çatmıram,
Axtarıram tay-tuşumu tapmıram,
Seyrəlmiş, yararsız kola dönmüşəm.

Şah da, xan da doymadılar dünyadan,
Üryan gəlib, üryan köçdü fənadan,
Gileyli deyiləm hələ canımdan,
Elə-belə bədbin hala dönmüşəm.

Yusif şək eyləmə çarxı gərdişə,
Belə olub, olacaqdı həmişə,
Yapışmıram, yaramıram bir işə,
Arvadın əlində qula dönmüşəm.
***2008***

**NƏ YAZIM**

*(Səməd Abbasovun şeirinə cavab)*

Ay Səməd deyirsən yaz, göndər gəlsin,
Qarğışım var, günahkara nə yazım?
Kim arasın, kim axtarsın, kim bilsin,
Hərə düşüb bir diyara nə yazım?

Məni Tyumenə təklif edirsən,
Tatar qızlarını tərifləyirsən,
Minnətdaram sənə, yaxşı deyirsən,
Qocalığa yoxdu çarə, nə yazım?

Gəzdiyimiz, doymadığımız yaylaqlar,
Əldən gedib "Qumlu", "Yelli" bulaqlar,
Bizi qorxutmazdı çovğun, boran, qar,
Düşmüşük atəşə, dara nə yazım?

Yurdumuzda nə otlayar, nə mələr,
Ordan, burdan peydə olan gədələr,
Ata-baba qonşu olan nəvələr,
Həsrət qalıb qonşulara nə yazım?

Yusif müntəzirdi haqqı-təalaya,
Düçar edib bizi dərdi bəlaya,
Görüşərik ya bir ilə, ya aya,
Ümidim var, xilaskara nə yazım?

## NİGARIN

*(Nəticəm Nigarın ad günü münasibətilə)*

Qoyun saçı şanalansın, uzansın,
Kəsdirməyin tellərini Nigarın.
Cığalanıb gərdəninə dolansın,
Sevindirsin ellərini Nigarın.

Qismət olsun nəvələr, nəticələr,
Qoy şad olsun ata, baba, nənələr,
Asim ceyran deyə oynadıb gülər,
Eşidəndə dillərini Nigarın.

Ayrılsam da vətənimdən, elimdən,
Qəlbimdən keçənlər gəlir dilimdən,
Arzum budur, xudavəndə aləmdən,
Şən keçirsin günlərini Nigarın.

Məclis qurun hər il avqust ayında,
Yusif dursun nəticəsi yanında,
Nigar süzsün əmilərinin toyunda,
Xınalayın əllərini Nigarın.
***08.08.2001***

## QURBAN OLUM

*(Tibb elmləri doktoru, professor Nuru balama)*

Nuru sənin təfəkkürnün,
Zəkasına qurban olum.
Həyat verən əllərinin,
Şəfasına qurban olum.

Moskvada təhsil aldın,
Vandan Məkkəyə yollandın,
Ankarada alim oldun,
Cəfasına qurban olum.

Asim alan bu torpağın,
İqrar salan bağça bağın,
Həm aranın, həm də dağın,
Səfasına qurban olum.

Çox cəfadan sonra öyün,
Şükür et xudaya sevin,
Zəhmətlə tikdiyin evin,
Binasına qurban olum.

Kübrəylə Sevil nənənin,
Nuran, Atilla nəvənin,
Həkim ana Təranənin,
Balasına qurban olum.

Yusif unut dərdi sərin,
Rizvanla keçdi günlərin,
Səni yetirən Göyçənin,
Səfasına qurban olum.

## A ÇƏRKƏZ MUSA

Şeirimə yaxşı cavab yazmısan,
Minnətdaram sənə a Çərkəz Musa.
Gecikmiş olsa da yada salmısan,
Axtarıbsan yenə a Çərkəz Musa.

Qarışıq salmışam bu fəsilləri,
Sanıyıram o Göyçəsiz illəri,
Yadımdan çıxmışdı keçən günləri,
Xatırlatdın mənə a Çərkəz Musa.

Mən Yusifəm vətənimdən küsmürəm,
İmkan olsa ayaqyalın gedərəm,
Miskin ocağına qurban kəsərəm,
Qayıtsaq o günə a Çərkəz Musa.

## VAR

*(Sabir Paşayevin "Varmı" rədifli şeirinə cavab)*

Xali deyil bu məxluqat,
Həqiqəti görənlər var.
Bunu bilir el, camaat,
Övliyyə var, ərənlər var.

Düşmüsən bizdən uzağa,
İstərdim gələsən bağa,
Axşam çağı bu yığnağa,
Sabir deyin gələnlər var.

Şirin-şirin hərdən-hərdən,
Danışırsan şairlərdən,
Nizamidən, Füzulidən,
Qədir-qiymət bilənlər var.

Belə qurulubdu cahan,
Dərdsiz, qəmsiz olmur insan,
Çoxda öyünməsin dövran,
Qəm kədəri silənlər var.

Sərini salma dərinə,
Sığın haqqın Heydərinə,
Dost qəminə, kədərinə,
Şərik çıxıb bölənlər var.

Yusif kəsməz etibarın,
Zəhməti çoxdursa bağın,
Əvvəl az görürlər barın,
Axır vaxtı dərənlər var.

## ÇƏTİNDİ

*(Sabir Paşayevin "Nədi" şeirinə cavab)*

Sabir qardaş məni saldın dərdinə,
Sualına cavab vermək çətindi.
Mahir bənna hörgüsünün üstünə,
Naşı daş qoysa da hörmək çətindi.

Çox deyib gülmüşəm cavan çağımda,
Əsir yurdun aranında, dağında,
İlan lövbər salıb xurma bağında,
Durnalar gəlməsə, dərmək çətindi.

Sənin kimi səmimi dost seçmişəm,
Bulaqlar başında yeyib içmişəm,
Atalı, analı qəmsiz gəzmişəm,
Birdə o günləri görmək çətindi.

Edirəm özümü özüm məzəmət,
İmkanım olsaydı edərdim hörmət,
Nə dost qazanıram, nə var, nə dövlət,
Dostları itirmək yaman çətindi.

Səndə çox zəngindi söz ehtiyyatı,
Dahi şairlərin cəm külliyyatı,
Yusif yaxşı bilir bu əhvalatı,
Səninlə də bəhsə girmək çətindi.

## GƏZİR

*(bağlama)*

Bir bağça var qiyməti yox,
Bar verib hər yan gəzir.
Gahdan yaxşı, gahdan yaman,
Eyləyib dövran gəzir.
Gah bir yerdə məskən salır,
Gahdakı mehman gəzir.
Anlamır ki, arxasınca,
Hiyləgər şeytan gəzir.

Hər həftədə, yarım ayda,
Su verilib sulanır,
Nə arxı var, nə cızı var,
Quru qalmır bulanır,
Gah çox çəkir, gah az çəkir,
Bağ çapılıb talanır,
Bağ becərən bar götürmür,
Xərc çəkib şadman gəzir.

80-90 il bar verir,
Bəziləri baş-başa,
Ondan sonra solur gülü,
Büksən də al qumaşa,
Harda varsa belə bağça,
Budur onlarda peşə,
Kimi bilinir məkan,
Yusif bemakan gəzir.

## MƏN

Ey xaliq sən yaratdın,
Uğur ver dolanım mən.
Yox rəhmin, çoxdu cəfan,
Elə bir piranam mən.
Bu dünyada əzab verdin,
Yalandan cavanam mən,
Gələcəyin şən gününə,
Sanki beygümanam mən.

Qələm alıb mən dərdimi,
Ol sübhana yazıram,
Elə  bil ki alışmışam,
Yana-yana yazıram,
Bu dünyadan əlim üzüb,
O məkana yazıram,
Şikayətdən ar eyləyib,
Daha usanıram mən.

Yusif deyər ağam Əli,
Gəl yetiş imdada sən,
Sinəm üstən yol verirəm,
Gəlməynən piyada sən,
Cavanam şən ömrümü,
Verməynən xoryada sən,
Necə ki, sən tez yetirdin,
Sədəti Səyyada sən,
Belə getsə öz oduma,
Alışıb yanaram mən.

## SALIRSAN

Çarxı fələk mənlə yaman başlayıb,
Dönə-dönə bəd güzara salırsan.
Bir adamdı bu il burda qışlayıb,
Qəm-kədərə, bu azara salırsan.

Qərib eldə qırdın mənim qolumu,
Topaşandan saldın uzaq yolumu,
Qadir Allah yaratdığın qulunu,
El-obadan intizara salırsan.

Nə istəyir məndən nainsaf xəta,
Buna necə dözsün qürbətdə ata,
Yusif sağ əlilə sol qolun tuta,
Açmamış bir gülü xara salırsan.

***1944***

## YENƏ

Gəldi, kədərli il yüklü qəm ilə,
Bulunmaz bəlalar göründü yenə.
Ahı-zar içində qərq olan canım,
Qəmli örpəyinə büründü yenə.

Fələk də çatdırdı məqamı bura,
Kim bilir sonunu yetirər hara,
Qarşıda çalxanan bu qanlı dərya,
Bilmirəm dayazdı, dərindi yenə.

Sığınıram şahı-mərdan adına,
Bəlkə çata o Yusifin dadına,
Keçmişini sala düşmən yadına,
Əvvəl sürünmüşdü, süründü yenə.
***1988***

## AY GÖZƏL

Həsrətini çəkə-çəkə,
Alışıb yandım ay gözəl.
Gecə-gündüz firqətinlə,
Saraldım, soldum ay gözəl.

Atəşin düşdü canıma,
Yeriş eylədi qanıma,
Çox şükür gəldin yanıma,
Qəmdən ayıldım ay gözəl.

Gəlməsən bimar olaram,
Yusifəm qəmə dalaram,
Gələrsən qadan alaram,
Eşqinə daldım ay gözəl.
***1948***

## MƏNİ

Başına döndüyüm ay mələkzadə,
Qoymaynan çəkələr dara sən məni.
Əzəldən vurğunam bu gözəl ada,
Həsrət qoymaynan yara sən məni.

Sənsən nəzərimdə Şəms ilə Qəmər,
Sevən aşiqindən üzmü döndərər,
Bədnəzər eşidər xəbər göndərər,
Salarsan atəşə, dara sən məni.

Adım Yusif, yurdum Göyçə elidi,
Yanaqların Şahdağının gülüdü,
İnsaf elə, görüş bayram günüdü,
Günümü eyləmə qara sən mənim.

## BAXIRAM

Niyə lağ edirsən dili qurumuş,
Sənə nə var mən hayana baxıram.
A çoxdan qartalmış, çoxdan qarımış,
Mən üz tutub bu cahana baxıram.

Səni yaradana, xudaya şükür,
Allahı dilində car eylə zikir,
Könlümdə dolanır bir özgə fikir,
Ona görə yana-yana baxıram.

Gəl hədyan danışma lal eylə dilin,
Mənə şər eyləmə qırılsın belin,
Yayaram aləmə bu fitnə-felin,
Sən bilmə ki, mən gümana baxıram.

Bağlamazlar cavanların gözünü,
Bişir, çıxar sən ağzından sözünü,
Tanıyıram, tərifləmə özünü,
Ya xeyrinə, ya ziyana baxıram.

Atıcı axtarar tapar tayını,
Qururlusan al Yusifdən payını,
Bir zurna götürüb çalam toyunu,
Səsi gedər biyabana baxıram.
*1953*

## QAYITDI

Yarım sallana-sallana,
Tez gəldi, bağa qayıtdı.
Döndü boylana-boylana,
Elsiz yaylağa qayıtdı.

Dərmədi bağın gülünü,
Eşitmədi bülbülünü,
Yada salıb öz elini,
Ayrılıb dağa qayıtdı.

Sevmədi bağ havasını,
Sürmədi bir səfasını,
Yusif də bu sonasını,
Düşdü sorağa qayıtdı.
***1950***

## ƏBƏDİ GETDİN YUXUYA

Şükür etmişəm xudaya,
Allahın verdiyi paya,
Oğlanlarımın çiynində,
Köçdüm fənadan uqbaya.

Qızlarım ağı desinlər,
Qohumlar xidmət etsinlər,
Qonaqlar razı getsinlər,
Əlvida deyim dünyaya.

Böyüdübsən bizi ana,
Mərhəmətin gəlməz sana,
Odumuza yana-yana,
Əbədi gedin yuxuya.

## SALAMAT QALASIZ

Könlümün sultanı çaylar, çeşmələr,
Biz gedirik, siz salamat qalasız,
Göyçədə yetişən çiçəklər, güllər,
Biz gedirik, siz salamat qalasız.

Bir yan düzəngahdır, ətrafı dağlar,
Bir yanda yetişən barlı, bağçalar,
Qürbət eldən uçub gələn qonaqlar,
Biz gedirik, siz salamat qalasız.

Bir yanda çalxanan Göyçənin gölü,
Dövrəsində açan nərgizi gülü,
Yusifin gəzdiyi dağları, düzü,
Biz gedirik, siz salamat qalasız.
***1988***

## BAXIN

Camaat diqqət edin,
Dama girənə bir baxın.
Toyuqlara talan salıb,
Vurub öldürənə baxın.
Beçə, fərə, xoruz nə var,
Üst-üstə sərənə baxın.
Leşlərdən təlli qurub,
Bir hasar hörənə baxın.

Xəbər çatcaq qarıya,
Böyük bir tufan elədi,
Əl atdı talançıya,
Elə bil fəqan elədi,
Talançı qeyzə gəlib,
Yenədə talan elədi,
Tələdi qoca qarını,
Halını yaman elədi,
Toyuqları tardan salıb,
Qanını tökənə baxın.

Qarı gördü iş uzanır,
Çəkildi yana yeridi,
Toyuqların dərdi bunu,
Etdi divana yeridi,
Toyuğun beşi öldü,
Üçü miyana yeridi,
Bunu belə görən qarı,
Şərə ziyana yeridi,
Qarı, oğru bir-birinə,

Çomaqla döyənə baxın.

Qurtaranı bir gecədə,
Oğru səkkizin öldürdü,
Meyidləri qarı görüb,
Bədənini silkindirdi,
Ölənləri yerə salıb,
Xoruzu tara mindirdi,
Yusif deyər bu hadisə,
Bədbin könlümü güldürdü,
Xoruz-toyuq meydanında,
Şikayət edənə baxın.

**PAXIL**

Nə qədər hiylə qursanda,
Yenə gəldim cana paxıl.
Qoymursan bir əl tərpədəm,
Çapırsan ziyana paxıl.
Özgənin pulu ilə tikib,
Düzübsən yan-yana paxıl.
Heç belə zülm edərmi,
İnsanda insana paxıl.

Dedim ki, bir ev tikərəm,
El içində ar ha deyil,
Tezliklə başa gələr,
Böyük minara ha deyil.
Azad olan bu gün dünya,
Mənim üçün dar ha deyil.
Yaz açılıb hava düşüb,
Yerin üzü qar ha deyil,
Döndərdin bahar fəslini,
Mənə zimistanı fələk paxıl.

Pisliyin qaldı özünə,
Ev tikib gətirdim başa,
Bəzi dostlar yan yeridi,
Qurbanam qohum qardaşa,
Bəzilərinə işim düşdü,
Dandılar etdilər haşa,
Bəziləri doğru çıxdı,
Qeyd etmişəm yaddaşa,
Səninlə mənim hesabım,
Qalsın bir zamana paxıl, paxıl.

## ETMƏYƏSƏN

Ay xanım ağrın alım,
Gəlsənə naz etməyəsən.
Ay xanım şirin canım,
Gəlsənə naz etməyəsən.
Ay xanım gül camalım,
Ruhu pərvaz etməyəsən,
Ay xanım şux maralım,
Nəzir niyaz etməyəsən.

Bəxtəvər eylə güzar,
Nə olar bizə gələsən,
İşgüzar tapma azar,
Söhbətə, saza gələsən,
Əldə nə var ay ixtiyar,
Ala icazə gələsən,
Ay Gülizar sil samar,
Gəlsən Şiraz etməyəsən.

Qaş qəmər, gümüş kəmər,
Nə gözəl belə yaraşır,
At minər düzgün sürər,
Qamçı ələ yaraşır,
Saç hörər dala tökər,
Şanası telə yaraşır,
Yusif deyər xanım göldə,
Məni qəvvaz etməyəsən.

## VAR

Ey molla Əlinin öz nişanəsi,
Sizə yetişəsi məsləhətim var.
Ey Savad ananın bizə töhvəsi,
Varımdan, yoxumdan şikayətim var.

Əksilmir başımdan fələyin daşı,
Kiprikdən qurumur gözümün yaşı,
İnciyib unutdum qohum-qardaşı,
Kimsəsiz xəstəyəm, hərarətim var.

Son günlər gör nələr eşitdi guşum,
Nəlayiq sözlərdən gəlməyir xoşum,
Çaşıbdır ağılım, qalmayıb huşum,
Hələlik canımda fərasətim var.

Gərdişi zəmanə qəddim əyibdi,
Yoldaş da, bacı da qəlbə dəyibdi,
Ev sirrin söyləmək mərdə eyibdi,
Başımdan əksilməz qiyamətim var.

Sabir çox düşünüb özünü yorma,
Hər "mənəm deyənlə oturub durma",
Səni aldatmasın hər bığıburma,
Gah yaxşı, gah yaman nəhayətim var.
***Sabir Paşayev, 08.09.2006***

## ÇATASAN

Məktub səni göndərirəm,
Bərdə məkana çatasan.
Ləngiməzsən, inanıram,
Tez bir zamana çatasan.

Çiçək bacım yolum gözlər,
Əhvalın bil mənə göndər,
Yəqin bizə salam söylər,
Əziz Nərimana çatasan.

Az yaşadı Kamran, Ülkər,
Bu dünyadan tez köçdülər,
Qayğıkeş oldu Mahizar,
Qoca, cavana çatasan.

Yusif yetişər sorağın,
Rəcəb göndərər cavabın,
İmran Fərman qardaşların,
Əziz Mehmana çatasan.
***1996***

## SƏNƏ QURBAN

Sürahi gərdənli, Simuzər xanım,
Xəstəyəm yanıma gəl, sənə qurban.
Kəs yastığım başın bir soruş halım,
Dərdindən bimarım bil sənə qurban.

Əzəldən müşdağım ahu-gözünə,
Şirin söhbətinə, şirin sözünə,
Amandı rübəndi çəkmə üzünə,
Biz az danış, söylə gül sənə qurban.

Yusif arzularkı danışıb, gülsün,
Bir pünhan otaqda dərdini bölsün,
Varsa qəm-kədərin qoy mənə gəlsin,
Qüssəni ürəkdən sil sənə qurban.
***1964***

## GETDİLƏR

Gün çıxıb şöləsi yayılan vaxtı,
Bu gözəllər gör hayana getdilər.
Birisi könlümü odlara yaxdı,
Bənzədirəm bir ceyrana, getdilər.

Birisi qonaqdı yanımda qaldı,
Birisi atəşin canıma saldı,
Birisi ar eyləyib məndən utandı,
Üz qoyuban, biyabana getdilər.

Yazıq Yusif neynəmişdi neyləsin,
Bu pünhan dərdini kimə söyləsin,
Çarə yoxdu birisini əyləsən,
Məni qoyub yana-yana getdilər.
***1952***

**DANIŞAQ**
***(bağlama)***

Arif olan gəl səninlə dünyada,
Qeyli-qallı bu fənadan danışaq.
Çarx altında bu gərdişi dövranda,
Ədalətdən, haqq, divandan danışaq.

Dünyanın çarxı yox, nə cür dolanır,
Yer kürəsi nə üstündə dayanır,
Nə səbəbdən vaxtaşırı çalxanır,
Çalxalıyan ol sübhandan danışaq.

O kimiydi hökmü tutdu dünyanı,
Kim idi süvmədi düz yol ərkanı,
Kimdir ki, bulunmur yeri məkanı,
Bu dünyada beyməkandan danışaq.

Göydən kimə kim endirdi Quranı,
Kim oxudu üç yüz on üç sürəni,
Kim idi ki, agah etdi cahanı,
Ona gələn haqq salamdan danışaq.

İncil İsanın, Tövrət kimindi?
Bunların içində hörmət kimindi?
Zəhmət kimə endi, möhnət kimindi?
Yusif kimi bir insandan danışaq.

## SEVGİLİM

Elə cilvələnib durubsan zalım,
Baxanda xəyalım çaşır sevgilim.
Amandı gizlətmə o məh cəmalın,
Məhəbbətim həddin aşır sevgilim.

Sədrin üstə qoşa narın çaxanda,
Qaşa sürmə, üzə vəsmə yaxanda,
Qarşı durub gül üzünə baxanda,
Baxmaq olmur göz qamaşır sevgilim.

Bu çöllər ceyranı, dağlar maralı,
Heyf gəzir Yusifindən aralı,
Üzün görsə həsrətindən payalı,
Cana gələr eşqi daşar sevgilim.
***1947***

**SƏNƏ QURBAN**

Naz ilə sallanan ay incə belli,
Bizim tərəflərə gəl sənə qurban.
Gözəllər sultanı ay şirin dilli,
Tökmə qaş-qabağın gül sənə qurban.

Sinəm yolun olsun özüm də qulun,
Saxlasan nökərin, satsan da pulun,
Nə olar yazığam boynumda qolun,
Axan göz yaşımı sil sənə qurban.

Mən sənin bülbülün, sən mənim gülüm,
Ey mənim məşuqum əziz sevgilim,
İstərdim səninlə oynayım, gülüm,
Yusifin dərdini bil sənə qurban.
***1948***

**QIZLAR**

Bilmirəm nə oldu üz döndərdilər,
Gəlmirlər imana, dinə bu qızlar.
Baxmırlar pərişan müşkül halıma,
Üz tuturlar özgə yönə bu qızlar.

Birinin atəşi qəlbimdə yanar,
Birinin camalına baxan utanar,
Biri oğrun-oğrun baxıb boylanar,
Daldalanır sinə-sinə bu qızlar.

Birinin ismini öyrəndim Tərlan,
Birinin kirpiyi oxlayır insan,
Biri dedi Yusif sevgimə inan,
Bənzəyirlər aya, günə bu qızlar.
***1948***

## GƏLİN

Güzar düşüb mən gəlmişəm,
Dur bişir xəngəl ay gəlin.
Qurud əzdiyini görmüşəm,
Gəl xəmir kündələ ay gəlin.

Quzeylərdə qar əriməz,
Güneylərdə qar əylənməz,
Qorxma qaynənən söylənməz,
Doğru yola gəl ay gəlin.

İncitmə şeir yazanı,
Dayanma dur as qazanı,
Sevərsən imam Rzanı,
Başlama əngəl ay gəlin.

Saqqız alıbsan ağzına,
Yusif deyər bax nazına,
Yəqin bil ki, boğazına,
Salaram çəngəl ay gəlin.

**DARIXMA**
***(Sabir Paşayevə)***

Sabir qardaş bir gün bəxtin oyanar,
Kədəri, qüssəni silər darıxma.
Xaliqi ləmyəzəl dadına çatar,
Mömünlərin dərdin bilər darıxma.

Fədaidən sən Sabiri bilirsən,
O çəkdiyi dərdi səri bilirsən,
Şah olduğu o şəhəri bilirsən,
Onun kimi bəxtin gülər darıxma.

Arzularım arzularına qarışsın,
Balalarının bəxt ulduzu barışsın,
Toy şənliyi bir-birinə qarışsın,
Allah qoysa son gün gələr darıxma.

Tərs gəlib zəmanə yaxşılıq itir,
Buğdanı səpirsən, dareqan bitir,
Allahın borcunu yerinə yetir,
Xaliq özü dada yetər darıxma.

Yusif belə haqsızlıqla barışmaz,
Hər adamla ülfət qılıb danışmaz,
Salman kimi dostu olan darıxmaz,
Yəqin olar sənə sipər darıxma.

## NƏDİ

*Sabir Paşayev*

Könlümün həmdəmi ey Yusif ağa,
Səni bu həyata bağlayan nədi?
Bizdən salam olsun arvad, uşağa,
Sizi belə cavan saxlayan nədi?

Övladların qoy başında cəm olsun,
Günü-gündən dərdi-qəmin kəm olsun,
Düşmənlərin gözlərində nəm olsun,
Sinəndə sel kimi çağlayan nədi?

Dost qohumlar ayaq açsın evinə,
Bunu görən tanışların sevinə,
İmkan varsa xəsis olma cibinə,
Xainin köksünü dağlayan nədi?

Hər bir zaman şənlənəsən, güləsən,
Gəl oxşama az ömürlü gülə sən,
Mərdlər ilə sevincini böləsən,
Halını soruşub yoxlayan nədi?

Arzuların sənlə yetsin baş-başa,
Sabir deyir görüm səni min yaşa,
Bir arxa ol həm qohuma-qardaşa,
Rəqiblər köksünü oxlaya nədi?

**VARMI**

*Sabir Paşayev*

Qulaq asın ay hazarat,
Həqiqəti görən varmı?
Cavab verin ay camaat,
Uçan könül hörən varmı?

İnciməyin Yusif ağa,
Gələmmirəm hər gün bağa,
Daşım atlıb uzağlara,
Bu halımı bilən varmı?

Dostlar gəlin axın-axın,
Mənzil uzaq ürək yaxın,
Tarixlərə yaxşı baxın,
Ağlamamış gülən varmı?

Həmdəmi var hər quşunda,
Tufanı var hər qışında,
Dərdi-qəmi ağuşunda,
Ömrü başa vuran varmı?

Gəl fələyə düşmə asi,
Bu dünyanın yox vəfası,
Bizdən nədir təmənnası,
Asan bir can verən varmı?

Siz tərəfdən saldım yolu,
Sabir olub haqqın qulu,
Cibləri boş, qəlbi dolu,
Belə bir dost soran varmı?

## AY ŞAHİN

***(Rizvanın dostu Şahinin ad günü münasibətilə)***

Əziz dostum əlli yaşın mübarək,
Arzum budur yüz il yaşa ay Şahin.
Qohumlu, qardaşlı, oğullu, qızlı,
Vurasan illəri başa ay Şahin.

Yaxşı bağ salanlar barını görür,
Əsli olan əsl zatını bildirir,
Cəfərlə, Şahinə olsun müntəzir,
Dursun qulluğunda qoşa ay Şahin.

Oğlun seçib sevdiyini bəyənsin,
Gəlin gətir qoy Mənsurə sevinsin,
Qızın baxıb yengəsinə öyünsün,
Bu şənliyə qıl tamaşa ay Şahin.

## MÜƏLLİMƏ

***(ilk nəticəm Aygülün müəlliməsinə)***

Dəymə xətrinə Səməngül müəllimə,
Aygül də sizin tək tərki-vətəndi.
Ata-baba yurdu hamıya məlum,
Gəncəlidi, Göyçə qəhrini çəkəndi.

Sahib ilk nəvəmdi, Aygül nəticə,
Həm nurlu günəşdi, həm aylı gecə,
Ümidim var bəlkə gördüm kötücə,
Bu təzə vətəndə təzə bitəndi.

Yusifin şeirinin müğənnisidi,
Sahibin, Mənzərin, Qabil səsidi,
Əzimin, Qumrunun ilk nəvəsidi,
Qocalanda köməyinə yetəndi.

**AY ASİM**
***(oğlum Asimin 50 illik yubileyinə)***

Əlli il nədir ki, xatırlayıram,
Yüz il şad firavan yaşa, Ay Asim.
Polkovnik rütbənə azımsanıram,
İstərəm olasan paşa, Ay Asim.

Əli, Samir, Emin arxanda dursun,
Fəxr etsin səninlə, bəxtiyar olsun,
Nigar ad gününə çələng toxusun,
Sevincin qaynayıb coşa, Ay Asim.

Yusif yaxşı bilir zəhmətkeş oldun,
Sənətinlə bağlı cəfakeş oldun,
Atana, anana qayğıkeş oldun,
Yaşa səadətlə qoşa, Ay Asim.

**AXI**

Deyirsən salamsız keçdin yanımdan,
Mən salam verəndə almırdın axı.
Bir pillə yüksəlib, bərk gedən andan,
Onda məni saya salmırdın axı.

Qurban deyən "nərdivanı" unutdun,
Haq-ədalət, kərəm-kanı unutdun,
Bağladığımız o peymanı unutdun,
Dost deyə qeydimə qalmadın axı.

Qalsın gileyimiz öz aramızda,
Doğru söz gözəldi təmtəraqsız da,
Bizdən ibrət alır övladımız da,
Onlara nümunə olmadın axı.

Düzünü deyirəm nə küs, nə inci,
İnsanı çaşdırır qiymətli inci,
Sevincdə qəmi gör, qəmdə sevinci,
Dostunla kədərə dalmadın axı.

Yusif az çəkmədin dostun nazını,
Nəşəli keçirdin ömrün azını,
Özgə cür kökləidin könül sazını,
Mənimlə endirib çalmadın axı.
***1997***

## DEYİR

Göyçəli qonağa çox mehribandı,
Ürək gəl-gəl deyir, dil gəl-gəl deyir.
Qonağın gəlişi toydu, bayramdı,
Qohum gəl-gəl deyir, el gəl-gəl deyir.

Bulaqlar başıdı yeri qonağın,
Yaylaqların çəmənzəri qonağın,
Unudulur dərdi, səri qonağın,
Dağlar gəl-gəl deyir, çöl gəl-gəl deyir.

Toy oğlana, oğlan qıza yaraşar,
Saz məclisə, məclis saza yaraşar,
Yaz Göyçəyə, Göyçə yaza yaraşar,
Bülbül gəl-gəl deyir, gül gəl-gəl deyir.

Bulağı da gözəl, çayı da gözəl,
Payızı da gözəl, yazı da gözəl,
Həftəsi də gözəl, ayı da gözəl,
Yusif gəl-gəl deyir, il gəl-gəl deyir.
***1976***

## GƏLİBSƏN

Könül bir anlığa keçmişə dönüb,
Gör nələr eşidib görüb gəlibsən?
Neçə adamları pərişan edib,
Neçələrin möhrün düzüb gəlibsən?

Altmış ildə nə oxuyub bilibsən,
Yaxşı günü, yaman günü görübsən,
Neçə bağ salıbsan, bağ becəribsən,
Hansının barını dərib gəlibsən?

Dostların oldumu şeytan donunda,
Baş əydinmi nanəcibin önündə,
Öyrəndin, öyrətdin elmin yolunda,
Gözünün nurunu verib gəlibsən?

Görübsənmi ədalətli sultanı,
Vətənin Göyçədi, o ellər hanı?
Haqqı-ədalətli, yaxşı-yamanı,
Ömür süzgəcindən süzüb gəlibsən?

Əzəldən etibar yoxdu fənaya,
Yusif indi yönün çevir üqbaya,
Məhşər günü çəkəcəklər sorğuya,
Neçə könülləri hörüb gəlibsən?
***2007***

## SON MİSRALAR ...

Bu kitabı mən yadigar verirəm,
Vaxt yetişər bir gün mən də gedərəm,
Həftədə demirəm, ayda demirəm,
Açanda kitabı yada sal məni.

Mən fani dünyadan kamım almışam,
Halal zəhmətimlə yaşa dolmuşam,
Yurdumda layiqli övlad qoymuşam,
Arxayın məzarda yataram indi.

Əziz övladlarım, nəticə, nəvə,
Məni yada salın ildə bir dəfə,
Atam, anam, babam qalan tərəfə,
Yönümü Göyçəyə dəfn edin məni.
***2013***

## YUSİF MÜƏLLİMİN MƏZARI ÜSTƏ

Göyçənin halına alışıb yandın,
Axtardın elləri ay Yusif müəllim
Qartalı göndərdin vətənə sarı,
Sanadın illəri ay Yusif müəllim.

Qartal göylərdən enə bilmədi,
Qırıldı qanadı dinə-dinmədi,
Gözlədin şad xəbər gələ, gəlmədi,
Tutuldu dilləri ay Yusif müəllim.

Söz sinəndə tüğyan edib çatladı,
Əcəl səni qürbət eldə haxladı,
Ölümünə Göyçə eli ağladı,
Yandırdın bizləri ay Yusif müəllim.

Ölüm səni nə tez saldı cənginə,
Dəyişib əhvalın uğradı qəmə,
Telli sazın zildən tez endi bəmə,
Pas tutdu simləri ay Yusif müəllim.

Dedin Çalmalıdı Göyçənin dağı,
Çəkilməz üstündən axır yığnağı,
Yazdın vətən üçün neçə kitabı,
Solubdu gülləri ay Yusif müəllim.

Silindi hər yandan o cığır o iz,
Qürbətdə məzarın olub vətənsiz
Fətullah ah çəkib ağlar Göyçəsiz,
Tükəndi sözlərim ay Yusif müəllim.

*Aşıq Fətullah Göy-göl (Xanlar), 6.IV.2013*

# HÜSEYNQULUAĞALI – NƏRİMANLI

***Ümumi sahəsi***: 1.700 hektar
***Əkin sahəsi:*** 800 hektar.
***İqtisadiyyatı:*** taxılçılıq, tütünçülük, heyvandarlıq.
***Əhalisi:*** 1.800 nəfər.

## *KƏNDİN ULU KEÇMİŞİNDƏN*

Qədim Azərbaycan torpağı olan Ulu Göyçəmizin əski yurd yerlərindən biri də Nərimanlı kəndi olmuşdur. Tarixlər boyu Şahdağdan qalxan duman, "Çalmalı"dan əsən sərin meh Nərimanlı çöllərində Göyçə gölünün məlhəm havası ilə qarışıb, bu bərəkətli diyara nur çiləmişdir. Ucsuz-bucaqsız Basarkeçər düzünün qədir-qiymətli obalarından olan Nərimanlı kəndi ən çox dəniz kimi dalğalanan taxıl zəmiləri ilə bütün Göyçədə tanınmışdı.

Basarkeçər bölgəsində yerləşən digər kəndlər kimi Nərimanlı kəndinin də başı zaman-zaman çox müsibətlər çəkmişdir. Yüz illər boyunca bu torpağa göz dikən yadellilərin burnu hər dəfə ovulub geri qaytarılsa da 1988-ci il faciəsi Nərimanlmm tarixinə qara hərflərlə yazıldı.

"Kitabi-Dədə Qorqud"da dönə-dönə adı çəkilən Göyçə mahalının qədim yaşayış məskənlərindən olan Nərimanlı kəndinin özünəməxsus tarixi vardır. Kəndin tarixini üç dövrə bölmək olar - qədim Alban dövrü, müsəlmanlıq və sovet dövrləri.

Nərimanlı kəndinin tən ortasında böyük Alban qəbrstanlığı var idi və daşların üzərində klassik alban xaçları və erməni əlifbasından tam fərqli olan yazılar həkk edilmişdi. Erməni hakimiyyəti 1970-ci illərin əvvəllərində məktəb tikmək adı altında kənddəki Alban qəbrstanlığını dağıdaraq qədim tariximizi məhv etdilər. Qazıntılar apararkən insan sümükləri ilə yanaşı qədim dövrlərə məxsus əşyalar, dəmir pullar, alətlər, saxsılar çıxırdı. Ermənilər bu tarixi əhəmiyyəti olan obyektləri

aparırdılar, üzrəində yazı və xaç işarəsi olan daşları isə məhv edirdilər.

Nərimanlı kəndinin müsəlmanlıq dövrünün başlanma tarixini dəqiq söyləmək çətindir. Rəvayətə görə Nərimanlının ilk adı Çuxurkənd, sonralar isə Ortakənd olmuşdur. Buranın Ortakənd adlanmasma səbəb onun bir neçə kəndin ortasında yerləşməsi olmuşdur. Bu dövr tərəkəmə dövrünə aiddir. Çünki bu kəndlərin camaatı qışda arana gedər, yayda öz obasına dönərdi.

Ortakənd camaatının tərəkəməlik dövrü XVI-əsrin axırlarından başa çatır. Həmin kəndin 2 kilometrliyində olan yaylaga çıxan tayfalar artıq həmişəlik məskunlaşmaq qərarına gəlirlər. Və beləliklə də əslən İrəvan yaxınlığındakı Reyhanlı kəndindən olan “Baleylilər” tayfasının ağsaqqalı Bala Məmməd və Qazaxdan gəlmiş “Qazaxlılar” tayfasının ağsaqqalı Hüseynqulu Ağa kəndin əsasını qoyurlar. Həmin dövrdən etibarən kənd Hüseynquluağalı adlandırılıbdır.

Hüseynquluağalının yaxınlığında olan, kəndin ilk yaylaq yerləri əhalinin öz dogma yurd -yuvasından amansızcasına qovulduğu dövrədək də əski adı ilə-“Kom yeri” adlanırdı. O dövrdə hər tərəf kol-kos və meşəlik olduğundan görünür, ulu babalarımız uzaq yerə yaylağa getməyi məsləhət bilməyib, elə kəndin ətrafını seçiblərmiş. Uzun ömür yaşamış, xalq təbabətinin gözəl bilicisi kimi tanınmış- Hacı Mərdan kişi “Kom yeri”nin qırılmış meşəliklərini və oradakı vəhşi heyvanları öz gözü ilə gördüyünü əsrimizin əvvəllərində nəvələrinə danışmışdır.

Nərimanlı kəndinin qədim qəbristanlığından və eləcə də qonşu kəndlərin ərazisindən tapılan müsəlmançılıqla- türkçülüklə bağlı müxtəlif ev əşyaları, qadın bəzəkləri və tarixin ayrı-ayrı dövrlərinə məxsus digər əşyalar əsrlərdən bəri bu yurdun müsəlman-türk torpağı olmasını sübut edir.

Nərimanlının cənub-qərbində yerləşən qonşu Qayabaşı kəndinin yaxınlığındakı əski qəbristanlıq ulu keçmişimizdən bizə “söz açа” bilən ən yaxşı “tarix kitabı” idi (Çox təəssüflər olsun ki, bu qəbristanlığın sirləri öyrənilməmiş qaldı). Qəbristanlıqda olan daş sənduqələr elə bir

incə zövq ilə işlənmişdi ki, nadir sənət əsəri kimi diqqəti cəlb edirdi. Məharətlə bir-birinə geydirilmiş qəbir daşlarının üstündə müsəlmançılıqla bağlı işarələr və yazılar var idi. Böyük sənduqələrdən birinin üstündə müxtəlif bəzəklər arasında dəvə karvanını çəkən sərvan nəqş olunmuş və ərəb əlifbası ilə yazılmışdı: "Şəhidi Şahvələd. 1001-çi il". Salnaməsi hicri tarixi ilə göstərilən bu abidə təbii ki, burada ilk abidə deyildi. Eləcə də həmin qəbristanlığın yaşı həmin abidənin yaşı ilə ölçülə bilməz. Deməli, qəbristanlıq abidədən çox qədimdir. Qazıntılar vaxtı ərəb əlifbası ilə işarə olunmuş qılınc və xənçər qırıqları tapılmış, çoxlu at və qoyun fiqurlarına təsadüf edilmişddir.

Köhnə xarabalıqlardan tapılan döyüş alətləri göstərirdi ki, Göyçədə çoxlu qanlı döyüşlər gedib, xalq bəzən yurdunu-yuvasını tərk etsə də yenə öz torpağının sahibi olub. Öz hakimiyyəti dövründə qüdrətli dövlət başçısı kimi tanınan Şah İsmayıl Xətai Azərbaycanın bütövlüyü naminə əlindən gələni əsirgəməyib. O cümlədən Göyçədə də öz hakimiyyətini bərpa eləyib. 1502-ci ildə öz qoşunu ilə Göyçəyə gələn böyük sərkərdə yerli əhali tərəfindən böyük ehtiramla qarşılanıb. Onun ordusuna çoxlu at bağışlanıb. Xətainin qoşunu yalnız Basarkeçərin Qaraqoyunlu kəndində müqavimətə rast gəlib, Şah Sarıyaqub kəndinin sakini şair Miskin Abdalla görüşür. Onun zəkasına heyran olur, onu xüsusi fərmanla Sarıyaqub kəndinə və ətraf kəndlərə başçı təyin edir.

Şah İsmayılın hakimiyyəti dövründən başlayaraq Göyçədə elm, maarif və sənət inkişaf etməyə başlayır. Uzun müddət yadellilər bu torpağa soxula bilmirlər.

## *MÜDRİK EL AĞSAQQALLARI*

Göyçə mahalının adlı-sanlı, müdrik adamları arasında Hüseynquluağalı camaatının Hacı Alı və Hacı Vəli kimi səxavətli kişiləri, Molla Nəcəf kimi savadlı, dünyagörüşlü, maarifpərvər ziyalıları çox olmuşdur.

"Qlava" Balı təkcə Göyçədə deyil, Qazaxda, Gədəbəydə, Tovuzda və Kəlbəcərdə də böyük hörmət və izzət sahibi kimi tanınmışdır. Yaşlı nəslin indi də hörmətlə xatırladığı bu ədalətli və insaflı el ağsaqqalı 18 il Göyçənin 18 kəndinə başçılıq etmişdir.

Sovet hakimiyyəti illərində islam dini güclü təqibə məruz qalsa da Göyçədə dinə inam həmişə güclü olmuşdur. Nərimanlıdan olan din xadimləri Molla Əli, Seyid Rəhim və Molla Nəbi savadlı, yüksək dünyagörüşlü şəxsiyyətlər kimi elinə və xalqına uzun illər sədaqətlə xidmət etmişlər.

### *1918-1920-ci illər*

1918-ci ildən müntəzəm olaraq Göyçəyə soxulmağa can atan cəllad Andranikin nizami ordusu bir neçə dəfə güclü müqavimətə rast gəlmiş, itki verib bu qədim Azərbaycan torpağına ayaq basa bilməmişdi. Xüsusilə Göyçənin Ağzıbir bölgəsində ağsaqqalı Vəlinin, İsa və Musa qardaşlarının başçılıq elədiyi könüllü dəstələr düşməni ağır məğlubiyyətə uğratmışdılar.

1919-cu ilin yanvar ayında Göyçə gölünün cənub sahilini ağır artelleriya ilə DAĞIDAN ARXALI ERMƏNİ ordusu Toxluca istiqamətində Cığal Həsənin, Topal Orucun, Məşədi Hümbətin dəstələri ilə üz-üzə gəldi. İki aydan artıq gedən döyüşlərdən sonra hiyləgər düşmən Basarkeçər tərəfə irəlilədi. Şişqayanı yandıran erməni ordusu Zodda ciddi müqavimətə rast gəldi, Səməd ağa və Məşədi Məcidin (hər ikisi Zoddan), Məşədi Mehdinin (Nərimanlıdan), Məşədi İsanın (Qaraimandan), Məşədi Qasımın (Daşkənddən), İskəndərin (Qayabaşıdan) və digər qəhrəmanların başçılıq etdiyi cəsur igidlərimizin rəşadəti sayəsində erməni qoşunları darmadağın edildi və onların başçısı Selikov öldürüldü. Bu döyüşlərdə Nərimanlı camaatı erməni daşnaklarına qarşı mərdliklə mübarizə aparırdı. Nərimanlıların o vaxtkı şücaəti erməni mənbələrində də göstərilib.

Nəhayət, Göyçə düşmənlərin güclü nizami ordusu tərəfindən dağıdıldı. Beləliklə, Ulu Göyçəmiz 1919-cu ilin aprel ayında süqut etdi. Dağ yolu ilə Kəlbəcərə aşan camaat borana düşür və bir dərədə böyük itkiyə məruz qalır. Kəlbəcərlə Göyçə arasında olan həmin dərəyə indi də "Sümüklü dərə" deyirlər.

## *HÜSEYNQULUAĞALI NƏRİMANLI OLUR*

Hüseynquluağalı camaatı əsasən Gəncəbasar ətrafında daldalanacaq tapmışdı. Yerli əhali əlindən gələn köməkliyi onlardan əsirgəmirdi. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Hüseynquluağalı kəndinin ağsaqqallarından "Qlava" Balı, Molla Nəcəf və Qəhrəman Musa oğlu Nəriman Nərimanovla görüşmək imkanı əldə etdilər. Onlar qaçqınların ağır taleyi haqda söhbət açdılar. N. Nərimanov belə bir fikir söylədi ki, Göyçəyə vaxtında qayıdılmasa, orada ermənilər məskunlaşa bilər.

Nərimanovun təşəbbüsü ilə 1921-ci ildə camaat Göyçəyə, öz doğma yurdlarına qaytarıldı. Sovet dövrünün başlaması ilə əlaqədar qədim yer adlarının "sovet" adlarına dəyişdirilməsi prosesi də başladı. *"Hüseynquluağalılar öz kəndlərinin adını dəyişib Nərimanovun şərəfinə - Nərimanlı adı vermək istəyirdilər. Lakin ermənilər isə kəndin adını "Luqaşın" və ya "Şaumyan" qoymağı tapşırmışdılar. Qəza icraiyyə komitəsindən göndərilmiş Musa Vəlibəyov, kəndin komsomol təşkilat katibi - Talib Musayev və kəndin yenicə təyin olunmuş sovet sədri - Bəhman Qarayev öz aralarında məsləhətləşirlər ki, ermənilərin Nəriman Nərimanovu görməyə gözləri yoxdu. Kəndin adını Nərimanovun adına verməyə qoymayacaqlar. Gəlin kənddə Nəriman adlı bir muzdur və yaxud dilavər fəal varsa onun adına təklif edək, deyək ki, bu adam dövlətin, partiyanın əsil təəssübkeşidir, elə kəndin adını da onun adına verilməsi daha məqsədəuyğyndur. Belə də təklif qoyurlar ki, kəndin adı dünənə qədər ağanın adına idi, bu gün isə partiya siyasətinə uyğun olaraq qoy muzdurun adına olsun. Çox çətinliklə əhali buna nail olur və kəndin adı*

*Nəriman Nərimanovun şərəfinə Nərimanlı adlanır"* (bu hissə Talıb Musayevin "Ermənilər və faciələrimiz" kitabından götürülüb).

1923-cü ildə Hacı Vəlinin otağında ilk ibtidai məktəb fəaliyyətə başladı. N. Nərimanovun ölümünddən sonra ona xalq düşməni damğası vurmaqla ləkələmək istədilər. 1934-1935-ci illərdə Ermənistan hökuməti kəndin adını dəyişib Qorki adlandırmaq fikrini irəli sürdü. Nərimanlılar bir nəfər kimi ayağa qalxıb buna yol vermədilər. Kənd eləcə də Nərimanovun şərəfinə yaşadı. Qeyd etmək lazımdır ki, keçmiş Sovet İttifaqında bəlkə də bu kənd yeganə yaşayış məntəqəsi və kolxoz idi ki, Nəriman Nərimanovun adını qoruyub saxladı.

## *REPRESSİYA QURBANLARI*

Xalqımızın görkəmli oğulları kimi Nərimanlı kəndinin tanınmış adamları da Stalin dövrünün repressiya qurbanı oldular.

Əvvəllər kəndin bütün ağrı-acılarını çiyninə götürən "Qlava" Balı, Molla Nəcəf, Məşədi İsmayıl, Məşədi İdris, Kalbayı Mehdi, Bəşir Hacı Mehdi oğlu, Bəşir Balı oğlu və Qasım Nəcəf oğlu siyasi məhbus və qolçomaq adı altında tutuldular. Onlardan təkcə Qasım kişi 18 ildən sonra geriyə qayıda bildi. Kəvər (Bayazet, sonralar Kamo) qalasında erməni cəlladları onlara dözülməz işgəncələr verir, bir-birinin üzünə qoymağa çalışır, Şura hökumətinin əleyhinə təbliğat aparmalarını "sübut" etdirməyə çalışırdılar.

## *MAARİF VƏ MƏDƏNİYYƏT*

1953-cü ildə açılan Nərimanlı kənd orta məktəbi tezliklə nəinki rayonun, hətta respublikanın qabaqcıl məktəblərindən birinə çevrildi. Çox keçmədən adi bir kənd məktəbinin məzunlarının yarıdan çoxu ali məktəblərə qəbul olmağa başladı. Tələbələrin sorağı ölkənin və

dünyanın bir çox ali məktəblərindən gəldi. Aşağıda adları çəkilən 32 alim (bir AMEA müxbir üzvü, 8 elmlər dokotoru və professor, 23 fəlsəfə doktoru), 4 deputat və 15 polkovnik Nərimanlı məktəbinin yetirmələridirlər:

*Elmlər doktorları*

- Bayramov Nuru Yusif oğlu, tibb elmləri doktoru, professor, AMEA müxbir üzvü
- Bayramov Qurban Balı oğlu, fəlsəfə elmləri doktoru, professor
- Cəlilov Maqsud Fərhad oğlu, fəlsəfə elmləri doktoru, professor
- Hacıyev Sani Tofiq oğlu, tarix elmləri doktoru, professor
- Quliyev Mübariz Sayad oğlu, texnika elmləri doktoru, professor
- Qurbanov Elşən Mahmud oğlu, iqtisad elmləri doktoru, professor, Yaponya
- Məmmədov Rasim Qara oğlu, fizika- riyaziyyat elmləri doktoru, professor
- Musayev Səfiyar Bəylər oğlu, tarix elmləri doktoru, professor
- Musayev Vidadi Həsən oğlu, texnika elmləri doktoru, professor

*Fəlsəfə doktorları*

- Abdullayev Malik Qurban oğlu, texnika üzrə fəlsəfə doktoru
- Abdullayev Nuran Elcan oğlu, tibb üzrə fəlsəfə doktoru, Almanya
- Abdullayev Vuqar Cəmil oğlu, texnika üzrə fəlsəfə doktoru
- Ağayev Fərid Hacı oğlu, texnika üzrə fəlsəfə doktoru
- Aslanova Əminə Rasim qızı, fizika üzrə fəlsəfə doktoru
- Bağırov Abbas Əli oğlu, tibb üzrə fəlsəfə doktoru
- Bayramov Şahin Qənbər oğlu, fizika üzrə fəlsəfə doktoru
- Cəlilova Müslümə Maqsud qızı, iqtisad üzrə fəlsəfə doktoru
- Əliyev Teyyub Qurban oğlu, tibb üzrə fəlsəfə doktoru
- Əmirov Telman Calal oğlu, tibb üzrə fəlsəfə doktoru

- Hacıyev Arif Şahmalı oğlu, kimya üzrə fəlsəfə doktoru
- Hacıyev Kamil Əkbər oğlu, tibb üzrə fəlsəfə doktoru
- Hacıyev Tofiq Qurban oğlu, kimya üzrə fəlsəfə doktoru
- İbrahimov Təbib Qaraş oğlu, tibb üzrə fəlsəfə doktoru
- İsmayılov Radik Ərzuman oğlu, sosiologiya üzrə fəlsəfə doktoru
- Quliyev Vüsal Mübariz oğlu, iqtisad üzrə fəlsəfə doktoru
- Quliyeva-Əliyeva Gülgün Mübariz qızı, sosiologiya üzrə fəlsəfə doktoru
- Qurbanov Elba Fətalı oğlu, tarix üzrə fəlsəfə doktoru, Almaniya
- Qurbanov Mahmud Fərhad oğlu, texnika üzrə fəlsəfə doktoru
- Məmmədov Polad Rasim oğlu, kimya üzrə fəlsəfə doktoru
- Musayev Maksim Talıb oğlu, kənd təsərrüfatı üzrə fəlsəfə doktoru
- Nadirov Uğurlu Məhəmməd oğlu, texnika üzrə fəlsəfə doktoru
- Yusifov Elturan Cahad oğlu, iqtisad üzrə fəlsəfə doktoru
- Yusifov Nikbin Əziz oğlu, iqtisad üzrə fəlsəfə doktoru

***Deputatlar***

- Heydərova Gülnaz Rəhim qızı
- Həmzəyev Naqif Ələşrəf oğlu
- Musayev Maksim Talıb oğlu
- Musayev Səfyar Bəylər oğlu

***Polkovniklər***

- Abbasov Niyazi Əhməd oğlu, polkovnik
- Abbasov Vüqar Ələmşah oğlu, gömrük polkovniki
- Abdullayev Elcan Cəmil oğlu, polkovnik
- Aslanov Hidayət Bəylər oğlu, DİN polkovnik
- Aslanov Qaçay Əvəz oğlu, ədiliyyə polkovniki
- Bayramov Asim Yusif oğlu, polkovnik
- Cəlilov Elşən Mahmud oğlu, polkovnik

- Hacıyev Fərmayil Ramazan oğlu, polkovnik Rusiya.
- Hacıyev Nəbi Təvəkkül oğlu, polkovnik
- Hacıyev Sadiq Ramazan oğlu, polkovnik
- Həmzəyev Cümşüd Mehdi oğlu, DİN polkovniki
- Quliyev Gəray Əliaslan oğlu, DİN polkovniki
- Musayev İlqar Səfyar oğlu, DİN polkovniki
- Nadirov Rahib Qaraca oğlu, FHN polkovniki
- Nadirov Şəfaət Məhəmməd oğlu, DİN polkovniki

Kənddə ziyalı dəstəsinin yetişib tərbiyə olunmasında Qara Məmmədovun, Əhməd Hacıyevin, əməkdar müəllim Əvəz Aslanovun, baş müəllimlər Yusif Bayramovun, Əbülfət İsmayılovun, Xəlil Qaraşovun, Şahmalı Hacıyevin, Qənbər Bayramovun, Əsgər Məmmədovun, Cəmil Abdullayevin, İsaq Bayramovun, metodist müəllim Qoşun Hacıyevin çox böyük köməyi olmuşdur.

Nərimanlı kəndi bacarıqlı və savadlı kadr potensialına malik baza sayılırdı. 1988-ci ildə ali təhsillilərin sayı 243-ə çatmışdı. İndiyə qədər kənd məktəbindən 140-dan çox həkim yetişmişdir.

Az vaxt ərzində Nərimanlıdan olan kadrlar müxtəlif vəzifələrdə işlədilər. Talıb Musayev uzun müddət bir neçə rayonda partiya komitəsinin birinci katibi və rayon sovetinin sədri, Zərbalı Qurbanov rayon partiya komitəsinin birinci katibi, "Sovet Ermənistanı" qəzetinin redaktoru vəzifələrində işləmişdir. Gülnaz Heydərova keçmiş İttifaqın 112-ci çağırış Ali Sovetinin deputatı olmuşdur. Səfyar Musayev, Maksim Musayev və Naqif Həmzəyev Azərbayçan Milli Məclisinin üzvü seçilmişlər. Polkovnik Asim Bayramov Şəmkir rayon Hərbi Komissarı, polkovnik İlqar Musayev Abşeron rayon Polis İdarəsinin rəisi vəzifəsində işlədilər. Qədir Aslanov, Maşallah Xudiyev və bu sətirlərin müəllifi- Qənbər Bayramov Jurnalistlər İttifaqının üzvü kimi mətbuat sahəsində uzun müddət səmərəli fəaliyyət göstərmişlər. iqtisad

üzrə fəlsəfə doktoru Yusifov Elturan "Tərəqqi Medalı" ilə təltif edilmişdir.

Nərimanlı həm də istedadlı şairlər və aşıqlar yurdu kimi şöhrətlənmişdi. Aşıq İsa və Aşıq Mikayıl Dədə Ələsgərin şagirdi olmuşdular. Əməkdar İncəsənət Xadimi Aşıq İslam Yusifov, məlahətli səsi ilə dinləyiçilərin rəğbətini qazanan Əməkdar Mədəniyyət İşçisi Aşıq Fətullah Alıyev, şair Xəstə Bayraməli və şair Bəhmən Qarayevi Göyçədə və ətraf bölgələrdə tanımayan yox idi. Halal təbiətli və mülayim xasiyyətli şair Şahmalı Əliyev bədahətən şeir demək qabiliyyətinə malik idi. Ermənilərin alçaq niyyətlərinə dözə bilməyən bu istedadlı şair 1988-ci ilin baharmda dünyasını dəyişdi.

## *ZİYARƏTGAHLAR*

Kəndin ərazisində olan tarixi abidələr öyrənilməmiş qaldı. Kənd məscidi və Seyid Mahmudun qəbri müqəddəs ziyarətgah idi. Hər gün buraya neçə-neçə müsəlman ziyarətə gəlirdi. Lakin kənd məsçidi sonralar kolxozun taxıl anbarına çevrilmişdi. Bir dəfə qonşu Martuni (Qaranlıq) rayonundan gəlmiş 6 nəfər erməni məsciddən taxıl alıb yüklədikdən sonra məscidi murdarlayırlar. Bunu görən kənd adamları erməniləri döyür və taxılı əllərindən almaq istəyirlər. Kənd ağsaqqalları erməniləri yola salırlar. Onlar məscidən 50-60 metr aralanmamış həmin erməni maşının üstündən yıxılır və başı təkərin altında qalır.

## *İQTİSADİYYATI*

Nərimanlı kəndi qərbdən Basarkeçər və Böyük Məzrə, Şərqdən Ağkilsə (Azad) və Böyük Qaraqoyunlu (Əzizli), şimaldan Zod, cənubdan Sarıyaqub və Qayabaşı kəndləri ilə sərhəd idi. Kəndin rayonu mərkəzi ilə məsafəsi 9 kilometrə yaxın idi. Yaz-yay vaxtı camaat yaylağa çıxardı. Yaylaq kəndin 8 kilometrliyində, Kəlbəcərlə sərhəddə

yerləşmişdir. Göyçə mahalında və Kəlbəcər rayonunda məşhur olan Qumlu bulaq bu yaylaqda idi. Yaylaqdan çəkilmiş sudan kənddə içmək üçün istifadə olunurdu. Bağdaçay, Ağçay və Qaraçayın suyu ilə əkin sahələri suvarılırdı. Kəndin ərazisindəki 800 hektar sahənin hamısı suvarıla bilirdi. Torpaq çox münbit, quraqlığa davamlı idi. Buğda payızda, arpa yazda əkilirdi. Payızlıq taxılın hər hektarından 35-40 sentner məhsul götürmək olurdu. İstehsal olunan məhsulun çox hissəsini tədarük adı ilə kolxozun əlindən alırdılar. Kolxozun iqtisadiyyatında taxılçılıqdan başqa gəlirli sahə tütünçülük və heyvandarlıq idi. Yüz min tonlarla yem toplanırdı. Yaylaqdakı "Uzun güney"i yayın quraqlığından qoruyanda, onun otu üç sürü qoyunun qışlamasına kifayət edirdi.

## *30 NOYABR 1988-Cİ İL*

Ermənilər Qarabağın Ermənistana birləşdirilməsinə geniş hazırlıq aparır, hətta Azərbaycanlıları da inandırmağa çalışırdılar ki, bu hadisə sizin üçün də sərfəlidir. Digər kəndlərin camaatı ilə birlikdə Nərimanlı camaatının da 1988 ci il iyun ayının 18-də etiraz mitinqlərinin qayəsi "Torpaqdan pay olmaz", "Göyçə mahalına muxtariyyət", "Yaşasın Azərbaycan" şüarları altında keçdi.

Ermənilərin "türksüz Ermənistan" şüarı, nəhayət, noyabrın sonu, dekabrın əvvəllərində həyata keçirildi. Bütün Ermənistanda yaşayan Azərbaycanlılar kimi Nərimanlı camaatı da öz ata-baba yurdunu tərk etməyə məcbur oldu. Beləliklə, 30 noyabr 1988-ci il Nərimanlı kəndinin tarixinə qara hərflərlə yazıldı. Kolxozun anbarında olan 800 ton taxıl, 400 baş qaramal, 1200 baş qoyun, 13 traktor, 14 yük avtomobili, K-700 traktoru, onlarla kənd təsərrüfatı texnikası, AVM markalı dəyirman düşmənə qaldı.

## *NƏRİMANLILAR VƏTƏNİN MÜDAFİƏSİNDƏ*

1941-1945-ci illərdə rus-alman müharibəsinə 312 nəfər Nərimanlıdan yola düşdü. Onların hər biri qəhrəmanlıq nümunəsi göstərdi. Nərimanlı döyüşçülərdən 167 nəfəri bir daha geri qayıtmadı. 60 nəfərdən artıq adam şikəst oldu. Əvəz Aslanov, Şaxoy Hacıyev, Qafar Əliyev, Sayad Quliyev və başqaları adlı-sanlı döyüşçülər kimi yüksək dövlət təltifləri ilə mükafatlanmışdılar.

Azərbaycanın 7 şəhərində və 11 kəndində məskunlaşan Nərimanlılar Qarabağ müharibəsində fədakarlıq göstərdilər. Onlar erməni qəsbkarlarına qarşı döyüşdə canlarını əsirgəmədilər. Artıq nərimanlılar 18 nəfər şəhid vermişlər:

- Abdullayev Şövqiyar Cəmil oğlu (MİLLİ QƏHRƏMAN)
- Abbasov Sidqi Səməndər oğlu
- Balayev Rabil Əsgər oğlu
- Əliyev Sahib Şahmalı oğlu
- Əliyev Vüsət Həsən oğlu
- Mahmudov Eldəniz Xasay oğlu
- Mahmudov Xasay Baba oğlu
- Məmişov Şükür Şura oğlu
- Məmmədov Teymur Məzahir oğlu
- Musayev Gürzalı Oruc oğlu
- Musayev Pərviz Ağalar oğlu
- Müseyibov Bağban Bilman oğlu
- Nəcəfov Eşqin Əkbər oğlu (itkin düşmüş)
- Nəcəfov Nəsrulla Qasım oğlu
- Novruzov Yasin İsfəndiyar oğlu
- Quliyev Fərahim Bəylər oğlu
- Rüstəmov Sarvan Bayram oğlu
- Yusifov Etiraf Hidayət oğlu

Şövqiyar Cəmil oqlu Abdullayev Ağdərə uğrunda gedən döyüşlərdə böyük mərdlik və şüçaət göstərərək şəhid olmuşdur. O, Azərbaycanın Milli Qəhrəmanı kimi şərəfli bir ada layiq görülmüşdür.

## *SON SÖZ*

Nərimanlıların qəlbində bir ümid işığı parlamaqdadır; Nə vaxtsa biz yenə doğma yurdumuza qayıdacaq, özümüzün doğma od-ocağımıza sahib olaçağıq.

**Qənbər Bayramov**

*Bu yazı "Ulu Göyçə" qəzetinin 25 May 1993-cü il tarixli sayından götürülmüş, tibb üzrə fəlsəfə doktoru Abbas Bağırov tərəfindən bəzi əlavələr edilmişdir.*

# YUSİF BAYRAMOVUN ŞƏKİLLƏRİ



Yusif Bayramov, 40 yaş (1969-cu il)



Yusif Bayramov, 50 illik yubileyi (1979)



Yusif Bayramov, 70 illik yubiley, 1999



Yusif Bayramov, 80 illik yubileyi (2009-cu il)



Yusif Bayramov və həyat yoldaşı Kübrə ana, 1999-cu il



Yusif Bayramov və nəvəsi Atilla, 70 illik yubileyində (1999-cu il)



**Yusif Bayramov yaxınları ilə, 80 illik yubileyində (2009-cu il)**



**Yusif Bayramov, 2003-cü il**



Yusif Bayramov, oğlu Asim, nəvələri Emin, Samir



Yusif Bayramov, Aşıq əli, 2003-cü il



**Yusif Bayramov, 2007-ci il, Gəncə.**



**Yusif Bayramov, Rizvan, Nuru, Atilla, Təranə, Zülalə, Eyvaz, 2012-ci il, Gəncə**



Yusif Bayramov və Kübrə ana, 2003-cü il, Gəncə



Yusif Bayramov və Kübrə ana, 2003-cü il, Gəncə



Yusif Bayramov və Kübrə ana, 2002-ci il, Bakı



Yusif Bayramov və nəvəsi Nuran, 1996-cı il, Bakı



**Yusif Bayramov, 2007-ci il, Gəncə**



**Yusif Bayramov və Kübrə ana nəvələri Yusif, Günel və Jalə. 1999-cu il Gəncə**



Yusif Bayramov və Kübrə ana, oğlu Rizvan və gəlini Zülalə, 1999-cu il, Gəncə



Yusif Bayramov, Eyvaz Bayramov və nəvələri Nuran, 1996-cı il, Bakı



Yusif Bayramov, 2007-ci il, Gəncə



Yusif Bayramov, nəvələri Atilla və Nuran, 1997-ci il, Bakı



**Yusif Bayramov, Nuru, Təranə, Nuran, Atilla, 1999-cu il, Bakı**



**Yusif Bayramov, 2002-ci il, Göygöl (Xanlar)**



**Yusif Bayramov, 2002-ci il, Göygöl (Xanlar)**



**Yusif Bayramov və qardaşı Qənbər, 2004-cü il, Bakı**




**Yusif Bayramov, Nərimanlı kənd məktəbinin müəllimləri və 1971-ci il məzunları**



**Yusif Bayramov, tələbəlik illəri, 1951-ci il**




**Yusif Bayramov və dostları, Gəncə**



**Yusif Bayramov və qardaşı Qənbər, 1950-ci illər, Bakı**



**Yusif Bayramov, 1970-ci illər, Nərimanlı kəndi**



**Yusif Bayramov, 1995, Göygöl (Xanlar)**



**Yusif Bayramov, 2000-ci il, Gəncə**




**Yusif Bayramov, 2007-ci il, Bakı**



**Yusif Bayramov, Kübrə ana və oğulları Rizvan, 2003-cü il, Gəncə**



**Yusif Bayramov, evinin önündə, 1985-ci il, Nərimanlı  kəndi, Basarkeçər**



Yusif Bayramov, qardaşı Qənbər və oğlu Asim, Gəncə



Yusif Bayramov, oğlu Asim, nəvələri Nuran və Atilla, 2006-cı il, Bakı



Yusif Bayramov, oğlu Nuru və nəvəsi Nuran, 2007-ci il, Bakı



Yusif Bayramov və qardaşı Qənbər, 1950-ci illər, Bakı



**Yusif Bayramov, Rizvan, Nuru, Atilla, Təranə, Zülalə, Eyvaz, 2012-ci il, Gəncə**

## BALEYLƏRİN SOYAĞACI

Soyağacı əsasən oğlan övladlar üzrə verilir. Bəzi nəsillərdə əksisklər ola bilər. Bunun da başlıca səbəblər məlumatların yetərli və zamanında verilməməsidir.

**Kərbəlayi Baley Emin ağa oğlunun 7 oğlu**

- **Kərbəlayi Alı**
- **Kərbəlayi Vəli**
- **Əhməd**
- **Həsən**
- **İsgəndər**
- **Məsmi**
- **Qələndər**

## Kərbəlayi Baleyin oğlu Kərbəlayi Alının evladları

- **Kərbəlayi Baley Emin ağa oğlu**
  - **Kərbəlayi Alı**
    - **Hüseyinqulu**
      - **Papır**
      - **Qoca**
        - **Nurəddin**
          - **Ramin**
          - **Emin**
    - **Mehdi**
      - **İman**
        - **Əmralı**
        - **Çaydar**
        - **Əmirxan**
      - **Abduləzim**
        - **Fətullah**
          - **Elnur**
          - **Elbir**
            - **Rövşən**
            - **Elnur**
          - **Elçin**
            - **Elgün**
            - **Azər**
          - **Seyfulla**
            - **Elcan**

                - Səid
                - Elxan
            - Bəxtiyar
                - Fətullah
        - Rəşid (Qaraca)
            - Pərviz
                - Nicat
                - Nihad
            - Tural
- Məmməd
    - Cəmil
        - Zeynal
            - Anar
            - İlqar
        - Əlikömək
            - Zəki
- İsmayıl
    - Məşdi
- Molla Nəcəf
    - Molla Qasım
        - Əkbər
            - Nəcəf
                - Ayxan
            - Rəcəb
                - Ramin

    - Gəray
        - Əkbər
    - Eşqin
    - Asəf
        - Alı
- Hüseyin
    - Vəliəddin
        - Samir
        - Seymur
    - Sabirəddin
        - Hüseyin
        - Sabir
    - Mütalib
        - Ruslan
    - Kərəm
        - Orxan
        - Kənan
- Əsədulla
    - Elimxan
    - Zəlimxan
        - Nəsir
- Nəsrulla
    - Pərvin
    - Azər
    - Qasım

            - **Rəşad**
        - **Əfsəl**
            - **Cavidan**
                - **Murad**
            - **Nicat**
                - **Nihad**
    - **Cəfərqulu**
        - **Xansuvar**
            - **Zaur**
            - **Ayxan**
        - **Aslan**
            - **Ülvi**
- **Cəfərqulu**
- **Bayram**
    - **Cəbrayıl**
    - **Molla Əli**
        - **Yusif**
            - **Asim**
                - **Əli**
                    - **Əkbər**
                    - **Aysel**
                    - **Nərmin**
                - **Samir**
                    - **Nigar**
                    - **Leyla**

        - **Emin**
            - **Asim**
    - **Rizvan**
        - **Jalə**
            - **Miryusif**
            - **Hafizə**
            - **Mirkamal**
        - **Yusif**
            - **Raul**
            - **Kübraxatun**
            - **Dəniz**
        - **Günel**
            - **Leyla**
    - **İqrar**
        - **Emil**
            - **Fatimeyizəhra**
        - **Rəşad**
            - **Mədinə**
    - **Nuru**
        - **Nuran**
        - **Atilla-Turan**
        - **Eyvaz**
    - **Məhbubə**
        - **Zamin**
        - **Aqşin**

        - Elxan
    - Validə (Qumru)
        - Sahib
        - Firqət
        - Müqabil
        - Fadil
- Qənbər
    - Şahin
        - Anar
        - Nərmin
        - Lalə
    - Şövqi
        - Qurban
        - Ləman
        - Toğrul
    - Sübhi
        - Orxan
        - Fidan
- Sənəm
    - Sülidin
        - Pərviz
            - Aslan
- Həbibə
    - Vaqif
        - Mahmud

- **Məhəbbət**
  - **Anar**
- **Həbib**
  - **Mahir**
- **Qurban**
- **Vəli**
  - **Pakizə**
    - **Rüstəm**
- **Gülbəsər**
  - **Əziz**
    - **İlkin**
    - **Nikbin**

## Kərbəlayi Baley oğlu Əhmədin övladları

- **Kərbəlayi Baley Emin ağa oğlu**
  - **Əhməd**
    - **Heydər**
      - **Kərbəlayi Abbas**
        - **Rəhim**
          - **Abdulla**
            - **Şuxman**
              - **Anar**
            - **Namiq**
              - **Nikbin**
            - **Abbas**
              - **Rəhim**
              - **Abdulla**
          - **Vaqif**
            - **Yaşar**
              - **Nicat**
              - **İlkin**
            - **Şikar**
              - **Elşən**
            - **Hikmət**
              - **Mahmud**
          - **İlyas**
            - **Kamal**
              - **İlyas**

            - Emin
- Kərəm
    - Əhməd
        - Niyazi
            - Arzu
                - Sabir
        - Nizami
            - Nicat
        - Qüdrət
            - Elxan
            - Sərxan
        - Nüsrət
            - Elçin
            - Elcan
    - Səməd
        - Könül
            - Nihad
        - Taleh
            - Səməd
    - Dilqəm
- Kərim
    - Murad
        - Kərim
        - Möhtərəm
            - Murad

- **Zülfüqar**
  - **Rəşad**
- **Bəxtiyar**

## Kərbəlayi Baley oğlu Həsənin övladları

- **Kərbəlayi Baley Emin ağa oğlu**
  - **Həsən**
    - **İsə**
      - **Hüseyin**
        - **Xansuvar**
        - **Şahsuvar**
    - **Heydər**
      - **Nəriman**
        - **Etibar**
          - **Ruslan**
        - **İxtiyar**
          - **Nurlan**
        - **Afər**
          - **Eltun**
        - **Heybət**
          - **Nəriman**

## Kərbəlayi Baley oğlu İsgəndərin övladları

- **Kərbəlayi Baley Emin ağa oğlu**
  - **İskəndər**
    - **Alpaşa**
      - **Kərəm**
        - **Ayna**
          - **Zümrüd**
          - **Ceyran**
            - **Şamil**
              - **Əliş**
                - **Şamil**
              - **Ceyhun**
            - **Şadman**
              - **Yaşar**
                - **Hüseyin**
              - **Yalçın**
            - **İsrail**
            - **Fəzail**
              - **Turan**
                - **Ömər**
              - **Ramin**
            - **Əfqan**
              - **Əlvi**
              - **Ülvi**
            - **Şikar**

- **Cəlil**
- **Emin**
- **Teyyub**
- **Qızbəz**

## Kərbəlayi Baleyin oğlu Kərbəlayi Vəlinin övladları

- **Kərbəlayi Baley Emin ağa oğlu**
  - **Kərbəlayi Vəli**
    - **Əmiraslan**
      - **Musa**
        - **Məmməd**
          - **İbrahim**
            - **Tariyel**
              - **Elməddin**
              - **Samir**
            - **Fazil**
              - **Röyal**
          - **İbad**
            - **Akim**
              - **Səddam**
          - **Aslan**
            - **Qələndər**
            - **Vurğun**
              - **Səbuhi**
              - **İsmayıl**
          - **Sahib**
            - **Rasim**
              - **Asim**
          - **İlham**
            - **Vasif**

- **Tarix**
    - **Rinad**
- **Qafil**
    - **Asif**
        - **Amin**

- **Bəylər**
    - **Səfyar**
        - **İlqar**
            - **Cavidan**
        - **Vüqar**
    - **Ziyad**
        - **Azər**
            - **Toğrul**
        - **Tural**
            - **Ziyad**
            - **Ramiz**
    - **Hidayət**
        - **Vüsal**
- **Təyyar**
    - **Qədir**
        - **Namiq**
            - **Turqut**
        - **Bakir**
            - **ELtun**
        - **Möhsün**

            - **Yusif**
        - **Eldar**
            - **Rəşad**
                - **Həsən**
            - **Anar**
                - **Rəşid**
            - **Daşqın**
                - **Müntəzur**
        - **Əyyub**
            - **Qismət**
        - **Yavər**
            - **Fərid**
            - **Fuad**
    - **Əvəz**
        - **Oktay**
            - **Fuad**
                - **Oktay**
        - **Şamoy**
            - **Ceyhun**
            - **Orxan**
                - **Cavid**
        - **Surxay**
            - **Ruslan**
        - **Qaçay**
            - **Əvəz**

- **Saday**
  - **Əli**
- **Mustafa**
- **Qurban**
  - **Əsəd**
    - **Şəmil**
      - **Hüseyin**
        - **Nahid**
          - **Cavid**
          - **Cəsur**
        - **Rahid**
          - **Turan**
      - **Musaməddin**
        - **Şəhriyar**
        - **Bəxtiyar**
      - **Haqverdi**
        - **İftixar**
        - **İxtiyar**
      - **Ağaverdi**
        - **Ağası**
        - **Aqil**
    - **Kamran**
      - **Zəməddin**
        - **Fərid**
          - **Zəməddin**

        - **Emin**
    - **Hüseynağa**
        - **Ömər**
- **Ələddin**
- **Litvin**
    - **Təyyar**
- **Rizvan**
    - **ELtun**
        - **Elcan**
    - **Qaçay**
        - **Əsəd**
        - **Emil**
- **Münasib**
    - **İnsgəndər**
- **Şahlar**
    - **Kamran**
    - **Kənan**

* **Süleyman**
    - **Mirzə**
        - **Ruslan**
    - **Əlirza**
    - **Əli**
        - **Nihad**
    - **Əlixan**
* **Hümbət**

- **İntiqam**
    - **Yalçın**
        - **Nahid**
        - **Nihal**
- **Nail**
    - **Sənan**
    - **Samir**
    - **Sabir**
- **İmran**
    - **Fərhad**
    - **Etibar**
- **Sənani**
    - **Tural**
    - **Turxan**
- **Rəvxan**
    - **Şirxan**
- **Pərviz**
    - **Əsəd**
    - **Şahin**

- **Vasil**
    - **Elxan**
    - **Zaman**
    - **Qələbə**
    - **Elşən**

- **Abdulla**

        - **Isgəndər**
- **Eyyub**
    - **Güllüzar**
- **Rüstəm**
    - **Alı**
        - **Bayram**
            - **Oktay**
            - **Aqşin**
            - **Sarvan**
            - **Babək**
- **Ellaz**
    - **Nəbi**
        - **Həsən**
            - **Ziqəm**
                - **Təbriz**
                    - **Məhəmməd**
                - **Azər**
                    - **Musa**
                    - **Murad**
                - **Zərdabi**
            - **İsmayıl**
                - **Zaur**
                - **Zamir**
            - **Halmet**
                - **Mürvət**

    - Zöhrab
    - Rəşad
  - Yolçu
    - Elvin
    - Eltun
    - ELmir
    - Nicat
- Qara
- Əzim
  - Sahib
    - Qabil
  - Firqət
  - Müqabil
    - Toğrul
    - Turqay
  - Fadil
    - Əzim
    - Əkrəm

## Kərbəlayi Baleyin oğlu Məsminin övladları

- **Kərbəlayi Baley Emin ağa oğlu**
  - **Məsmi**
    - **Qərib**
      - **Adil**
        - **İsə**
          - **Seyyub**
          - **Şəmşir**
            - **İsə**
          - **Xoşgəldin**
            - **Samir**
            - **Teymur**
            - **Seymur**
        - **İmamqulu**
          - **Yusif**
          - **Elman**
            - **Ramin**
            - **Marad**
          - **Zaman**
          - **Elbar**
          - **Selbar**
      - **Məşədi Məmmədqulu**
        - **Xəlil**
          - **İlyas**
            - **Rövşən**

- **Sabil**
- **Fazil**
  - **Azər**
  - **Səxabər**
  - **Coşqun**
- **Azad**
  - **Elvin**
  - **Eltun**
- **Araz**
  - **Xəlil**
  - **Emin**
- **Elməddin**

- **Hüseyinqulu**
  - **İmaməli**
    - **Ələddin**
    - **Malik**
    - **Sadıq**
- **Nağı**
  - **Lala**
    - **Maşallah**
      - **Orxan**
- **Cəlil**

**Kərbəlayi Baleyin oğlu Qələndərin övladları**

- **Kərbəlayi Baley Emin ağa oğlu**
  - **Qələndər**

- **Əmir**
    - **Vəli**
        - **Əmirmurad**
            - **Faxreddin**
                - **Akif**
            - **Tapdıq**
            - **Sayəddin**
                - **Ülvi**
                - **Tunar**
        - **Cəlal**
            - **Telman**
                - **Nihad**
            - **İsrail**
                - **Cəlal**
            - **Rasif**
                - **Məhəmməd**
    - **Cabbar**
        - **Qoşqar**
            - **Şahbaz**
                - **Ramiq**
                - **Şirzad**
                    - **Vaqif**
                    - **Zamir**
                - **Röyal**
            - **Fizuli**

            - **Zaur**
                - **Seymur**
            - **Zamir**
                - **Muraz**
        - **Şahin**
            - **Rəşad**
                - **Əli**
            - **Renad**
        - **Namizəd**
        - **Miskin**
            - **Vüsal**
                - **Uğur**
            - **Rafim**
    - **Mehman**
        - **Salman**
            - **Tofiq**
        - **Şahmar**
        - **Vladim**
    - **Səhman**
        - **Saleh**
            - **Tural**
        - **Müzabil**
        - **Altay**
    - **Firidun**
        - **Əkrəm**

- **Nicat**
- **Musa**
- **Rasif**
- **Vaqif**

*İqrar Bayramov*
*Atilla Bayramov*

# Yusif Bayramovun əlyazmaları


Хатырладығым
иллэр
Бајрамов Јусиф
әли оғлу
1929 3 феврал

Xatırladığım illər

Bayramov Yusif əli oğlu
1929, 3 fevral

1982-ci ilin noyabrı
Nərimanlı kənd sakini Yusif əli oğlu
Bayramov
1982-ci ilin noyabr-dekabr ayı
Yadımda qalanlar
Anadan olmuşam 1929, 3 fevral


Хатырладығым
јел ганадлы
иллэр.

Кашки кәнҹлијим
әллинҹи иллэрдән
башланајды

Һәгигәт инҹәләр амма үзүлмәз
Һалал маја азалсада түкәнмәз
Һалал ахтар, һалал долан,
һалал кәз
Һалал малын боллуғуну билирәм.

Xatırladığım yel qanadlı illər

Kaşki gəncliyim əllinci illərdən
başlanaydı

Həqiqət incələr amma üzülməz,
Halal maya azalsada tükənməz,
Halal axtar,halal dolan, halal gəz,
Halal malın bolluğunu bilirəm.


Атам вә анам һаггында
Атамын дедијинә көрә бизим улу ба-
бамыз Кәрбәлаји вә һәмдә мәшәди
Мәммәд (она һәмдә Балеј дејирләр) кечән,
јәни XIX әсрин әввәлиндә Зәнҝибасар
(Масис) рајонунун Рејһанлы кәндиндән
кәлибләр. Балај һәмдә анамын улу
бабасыдыр.
Балејин төрәмәләри кәндимизин
1982-ҹи ил үчүн демәк оларки, 1/4-ини
тәшкил едирди.
Балејин гардашлары вә оғлан-
лары чох олуб. Мән анҹаг онун
ики оғлу: Кәрбәлаји Алы вә Кәр-
бәлаји Вәли һаггында мүвәссәл
мә'лумат верәҹәм.
Кәрбәлаји Вәлинин төрәмәләри
Аслановлар - Мәһәммәд, Бәјләр, Тәјјар
вә Әвәздир. О бири оғлундан оланлар
Һәсән, Гара, Әзим вә Бајрамдыр.
Кәрбалаји Алынын оғланлары
Молла Нәҹәфдән оланлар: Гасым
Ҹәфәргулу Әкбәр Һүсејн вә Киласдыр.

## *Atam və anam haqqında*

Atamın dediyinə görə, bizim ulu babamız Kərbəlayi və həmdə məşədi Məmməd (ona həm də Baley deyirlər) keçən, yəni XIX əsrin əvvəlində Zəngibasar (Masis) rayonunun Reyhanlı kəndindən gəliblər. Baley həmdə anamın ulu babasıdır.

Baleyın törəmələri kəndimizin 1982-ci il üçün demək olar ki, ¼-ni təşkil edirdi.

Baleyın qardaşları və oğlanları çox olub. Mən ancaq onun iki oğlu: Kərbəlayi Alı və Kərbəlayi Vəli haqqında müvəssəl məlumat verəcəm.

Kərbəlayi Vəlinin törəmələri Aslanovlar – Məhəmməd, Bəylər, Təyyar və Əvəzdir. O biri oğlundan olanlar Həsən, Qara, Əzim və Bayramdır.

Kərbəlayı Alının oğlanları Molla Nəcəfdən olanlar: Qasım Cəfərqulu Əkbər Hüseyn və Gilasdır.



Исмајылдан олан Мәшдидир.
Меһдидән олан Зүлејха, Фәтуллаһ
вә Гараҹадыр.
Мәммәддән олан Зејнәб Ҹәмилдир.
Бајрамын беш оғлу ики гызы олуб
Адларыны бөјүкдән тутмуш кичијә
јазырам.
Ҹәбрајыл – һеч бир кәс галмајыб
Гурбан – һеч бир кәс галмајыб.
Хејрәнсә – Дашкәсән рајонунун Шәкәрәм
кәндинә әрә кедиб, оғлу олма-
јыб ики гызы галыб. Күләсәр
дашкәсәндә, Гарател Шәкәрәм-
дәдир.
Әли – Сәнәм, Һәбибә, Јусиф, Гәнбәр.
Күлбәсәр – Сарыгыз, Фүрәнкиз Әзиз.
Вәли – Пакизә. Ханлар рајонунун
Зазалы кәнди
Асдан – Ҹаван икән вәфат едиб.
Әмиләримин үчүнү көрдүм вә ја-
дымдадыр. Онларын еви бизим евин
шәргиндә 7-8 метр аралыда иди.
Ҹәбраил, Гурбан вә Вәли бир

İsmayıldan olan Məşdidir.

Mehdidən olan Züleyxa, Fətullah və Qaracadır.

Məmmədən olan Zeynəb, Cəmildir.

Bayramın 5 oğlu, 2 qızı olub. Adlarını böyükdən tutmuş kiçiyə yazıram.

Cəbrayıl - heç bir kəs qalmayıb.

Qurban – heç bir kəs qalmayıb.

Xeyrənsə - Daşkəsən rayonunun Şəkərəm kəndinə ərə gedib, oğlu olmayıb, iki qızı qalıb. Güləsər Daşkəsəndə, Qaratel Şəkərəmdədir.

Əli – Sənəm, Həbibə, Yusif, Qənbər.

Gülbəsər – Sarıqız, Fürəngiz, Əziz.

Vəli – Pakizə, Xanlar rayonunun Zazalı kəndi

Asdan – Cavan ikən vəfat edib.

Əmilərimin üçünü gördüm və yadımdadır. Onların evi bizim evin şərqində 7-8 metr aralıda idi. Cəbrail, Qurban və Vəli bir


јердә олурдулар. Тәхминән 1934-1935-ҹи
илләрдә Ҹәбраил вә Гурбан Гасым Ис-
маjыллов рајонунун Фахралы кән-
диндә вәфат етди. Вәли әмим
инди әзиз олан јерә чыхыб јахшы
дам-даш салды. 1941-ҹи илин сен-
тјабрында Бөјүк Вәтән муһарибәсинә
кетди, кери гајытмады.

Атам әввәлҹә Бајрамәлинин баҹысы
илә евләниб. Оғлу олуб вә тезликлә өлүб.
Бир гызы Сәнәм галыб. 1920-ҹи илләрин
әввәлләриндә Көјчәлиләр өз јеринә гајыдыр.
(Онлар 1918-ҹи илин әввәлиндә чох чәтин-
ликлә Азәрбајҹана гачмышдылар)
Сәнәм Оруҹ оғлу Асданла евләнир. Үч уша-
ғы: бир оғлу, ики гызы олур. Асдан му-
һарибәјә кедиб, кәлмир. Сәнәм баҹым уша-
ғлары атамын көмәклији илә Азәрбајҹана
апарыр. Ушаглар ирилир, аилә гурур.
Кафијә вә Бәсди Ханлар рајонунун
Зазалы кәндиндәдир. Оғланлары вә гызлары
вар. Сулидин Кәнҹәдәдир. Али тәһсил

yerdə olurdular. Təxminən 1934-1935-ci illərdə Cəbrail və Qurban Qasım İsmayılov rayonunun Faxralı kəndində vəfat etdi. Vəli əmim indi Əziz olan yerə çıxıb yaxşı dam-daş saldı. 1941-ci ilin sentyabrında Böyük Vətən müharibəsinə getdi, geri qayıtmadı.

Atam əvvəlcə Bayraməlinin bacısı ilə evlənib. Oğlu olub və tezliklə ölüb. Bir qızı Sənəm qalıb. 1920-ci illərin əvvəllərində Göyçəlilər öz yerinə qayıdır (onlar 1918-ci ilin əvvəlində çox çətinliklə Azərbaycana qaçmışdılar).

Sənəm Oruc oğlu Asdanla evlənir. Üç uşağı-bir oğlu, iki qızı olur. Asdan müharibəyə gedib, gəlmir. Sənəm bacım uşaqları atamın köməkliyi ilə Azərbaycana aparır. Uşaqlar irilir, ailə qururlar. Kafiyə və Bəsdi Xanlar rayonunun Zazalı kəndindədir. Oğlanları və qızları var. Sulidin Gəncədədir. Alı təhsil



алыб, ики оғлу бир гызы вар.
Атам анамла тәхминән 1925-ҹи илдә евләниб.
Анамын гардашы Имамверди дә мүһарибәдә һәлак олду. Ондан галан Хәлил вә ушагларыдыр.
Анам әввәлҹә Инәкдағлы Садыг адлы бирисинә әрә кедиб. (Садыг Гошабулаглы Иса вә Рәҹәбин дајысы иди) Ики гызы Чичәк вә Сәфијјә олуб. Сонра Садыг вәфат етдији үчүн анам гајыдыб гардашы Имамвердинин јанына. Елә бу вахт атамла евләниб.
Атам ингилабдан әввәл Мәшәди Меһдинин јанында дини тәһсил алыб. О, дөврүнүн савадлы адамларындан өз сәнәтинә көрә кери галмырды. Охумағы, һәмдә авазла охумағы чох севирди. Гыш ајларында нефт лампасынын ишығына күрсүнүн гырағында отуруб атамын охудуғу һекајәләрә марагла гулаг асмагдан дојмурдуг. О јорулсада белә тәкид едиб давам етдирирдик.

alıb, iki oğlu və bir qızı var. Atam anamla təxminən 1925-ci ildə evlənib.

Anamın qardaşı İmamverdi də müharibədə həlak oldu. Ondan qalan Xəlil və uşaqlarıdır.

Anam əvvəlcə İnəkdağlı Sadıq adlı birisinə ərə gedib (Sadıq Qoşabulaqlı İsa və Rəcəbin dayısı idi). İki qızı Çiçək və Səfiyyə olub. Sonra Sadıq vəfat etdiyi üçün anam qayıdıb qardaşı İmamverdinin yanına. Elə bu vaxt atamla evlənib.

Atam inqilabdan əvvəl Məşədi Mehdinin yanında dini təhsil alıb. O dövrünün savadlı adamlarından və sənətinə görə geri qalmırdı. Oxumağı, həmdə avazla oxumağı çox sevirdi. Qış aylarında neft lampasının işığına kürsüsünün qırağında oturub atamın oxuduğu hekayələrə maraqla qulaq asmaqdan doymurduq. O yorulsada belə təkid edib davam etdirirdik.


Атам, јаланчылыг, фырылдаг вә јалтаглыг нә олдуғуну билмирди. Бир гоншуда көзү олмаз, пахыллыг етмәз вә аравурмағы севмәзди. Өз гүввәсини һеч кимдән әсиркәмәз варына јох демәзди. Сиз елә билмәјинки, мән атамын һаггында мүбалиғәјә јол верирәм. Әсла јох. О, мүтәрәгги адам иди. Көрүлмәли олан һәр һансы бир иши тез көрүб гуртармаға чалышарды. Буда онун сәбрсиз олдуғуну көстәрирди.
1945-ҹи илдә мүһарибә гуртарандан сонра мәним охумағым һаггында чох нараһат олурду. Бир күндә пијада Дашкәндә, орадан да Бөјүк Мәзрәјә кәлмишди. Нәһајәт мәни Мәзрәјә охумаға көндәрди. Мәним гулағыма исә дары кими дә кирмирди. Мүһарибәдән сонра бизим кәнддән илк дәфә мәктәби (орта) гуртаран мән олдум.
Бунун мүгабилиндә мән анҹаг атамын үзүнү-башыны гырхмагла

Atam yalançılıq, fırıldalıq və yaltaqlıq nə olduğunu bilmirdi. Bir qonşuda gözü olmaz, paxıllıq etməz və aravurmağı sevməzdi. Öz qüvvəsini heç kimdən əsirgəməz, varına yox deməzdi. Siz elə bilməyinki, mən atamın haqqında mübaliğəyə yol verirəm. Əsla yox o, mütərəqqi adam idi. Görülməli olan hər hansı bir işi tez görüb qurtarmağa çalışırdı. Bu da onun səbrsiz olduğunu göstərirdi.
1945-ci ildə müharibə qurtarandan sonra mənim oxumağım haqqında çox narahat olurdu. Bir gündə piyada Daşkəndə, ordanda Böyük Məzrəyə gəlmişdi. Nəhayət məni Məzrəyə oxumağa göndərdi. Mənim qulağıma isə darı kimi də girmirdi.
Müharibədən sonra bizim kənddən ilk dəfə məktəbi (orta) qurtaran mən oldum. Bunun müqabilində mən atamın üzünü, başını qırxmaqla



Онун борҹунун јүздә бирини өдәдим.
Атам тәхминән 80 ил јашады,
1969-ҹу илин јазында вәфат етди.
Анам түнд хасијјәт иди. О
дедијиндән дөнмәзди. Она ҝөрә дә ара-
бир атамла сөзә ҝәләрдә. Онда биз
анамын тәрәфини сахлајардыг.
Анам олдугҹа тәмизкар вә сәлигә-
ли иди. Онун чөрәјини вә бишир-
дији хөрәји мүасирләри чох јахшы
гијмәтләндирир, ону бу саһәдә кән-
димизин габагҹыл гадынлары илә
мүгајисә едирдиләр. Анам даим
ҝәлини Күбраны хәмири камил
јоғурмадығына, нәһрәнин исти-сојуг
сујуну гајдасында төкмәдијинә,
еви тәмиз сүпүрмәдијинә вә палта-
ры тәмиз јумадығына ҝөрә
мәзәммәт едәрди.
Анам сөзүнү үзә демәкдән чәкинмирди.
Кимлијиндән асылы олмајараг
һисс етдији ногсаны јериндәҹә
онун үзүнә дејәрди. Әлбәттә бу

onun borcunun yüzdə birini ödədim. Atam təxminən 80 il yaşadı. 1969-cu ilin yazında vəfat etdi.

Anam tünd xasiyyət idi. O dediyindən dönməzdi. Ona görə də arabir atamla sözə gələrdi. Onda biz anamın tərəfini saxlayardıq. Anam olduqca təmizkar və səliqəli idi. Onun çörəyini və bişirdiyi xörəyi müasirləri çox yaxşı qiymətləndirir, onu bu sahədə kəndimizin qabaqcıl qadınları ilə müqaisə edirdilər. Anam daim gəlini Kübranı xəmiri kamil yoğurmadığına, nehrənin isti-soyuq suyunu qaydasında tökmədiyinə, evi təmiz süpürmədiyinə və paltarı təmiz yumadığına görə məzəmməd edərdi. Anam sözünü üzə deməkdən çəkinmirdi. Kimliyindən aslı olmayaraq hiss etdiyi nöqsanı yerindəcə onun üzünə deyərdi. Əlbətdə bu


бәзиләринә хош кәлмирди. Анамда
атам кими јалан данышмазды.
Анамын хасијјәтләри гызлары
Чичәкдә вә Сәфијјәдә өз әксини
тапмышдыр. Һәбибәдә јалныз онун
түнд хасијјәтлији галмышдыр.
Анам гызларыны оғланларындан
чох истәјәрди.
Бир дәфә 1946-cы илин пајызында
кәнд camaатынын адәт етдији кими
Тәкәгајасындан Әдил әмимлә бирликдә
армуд кәтирмишдим. Ахшам шәр ба-
санда евә чатдым. Бир јүк армуд
иди. Анам бунун јахшысындан
сечиб бир торба кәнара гојду. Бир-
дәнәдә олсун өзү јемәди. Деди ки,
Сәфијјәдә Сарјагуба Һәбибәкилә
кедиб, бу торбаны онлара чатды-
ран олајды. Мәним тәгрибән 50 км
јолу пијада кәлмәјими билсәдә
Сарыјагуба кетмәјими лазым билирди.
Мән анама демәдән кечә торбаны
көтүрүб апардым. Һәбибәкилин

bəzilərinə xoş gəlmirdi. Anam da atam kimi yalan danışmazdı. Anamın xasiyyətləri qızları Çiçəkdə və Səfiyyədə öz əksini tapmışdır. Həbibədə yalnız onun tünd xasiyyətliyi qalmışdır. Anam qızlarını oğlanlarından çox istəyərdi.

Bir dəfə 1946-cı ilin payızında kənd camaatının adət etdiyi kimi Təkə qayasından Ədil əmimlə birlikdə armud gətirmişdim. Axşam şər basanda evə çatdım. Bir yük armud idi. Anam bunun yaxşısından seçib bir torba kənara qoydu. Bir dənə də olsun özü yemədi. Dedi ki, Səfiyyədə Saryaquba Həbibəgilə gedib bu torbanı onlara çatdıran olaydı. Mənim təqribən 50 km yolu piyada bilsədə Sarıyaquba getməyimi lazım bilirdi. Mən anama demədən gecə torbanı götürüb apardım. Həbibəgilin


бачасындан салдым вә тездә
гајытдым. Анам буну билмирди.
Әһвалаты данышдыгдан сонра
онун ејни ачылды, дејиб күлдү.
О биширдији һәр һансы хөрәји бол
һәмдә чох кејфијјәтли биширәрди. Дејир-
дики, бәлкә бир адамда кәлиб чыхды, гој
о да јесин. Атама дејирдики кет Инәк-
дағындан јазлыг буғда ал. Оранын
буғдасы дәмијәдир. Јахшы әришдәси
вә хәнкәли олур. Сон бир нечә или
чыхдыгдан сонра һәр ил атам кедиб
Инәкдағындан бир ат јүкү буғда
алыб кәтирирди.
1941-ҹи илә гәдәр елликҹә кома
јајлаға чыхардыг. Бу кәндин әксәри-
јәти кома чыхырды. Һәр кәсин комда
еви вә мал-гојуну сахламаг үчүн
хүсуси јери олурду. 5-10 аилә имкан
тапыб кедә билмирди. Аты оланлар
сәһәр кәлиб кәнддә колхозда ишләјир
ахшам кома аиләсинин јанына
гајыдардылар.

bacasından saldım və tezdə qayıtdım. Anam bunu bilmirdi. Əhvalatı danışdıqdan sonra onun eyni açıldı, deyib güldü.

O bişirdiyi hər hansı xörəyi bol həmdə çox keyfiyyətli bişirərdi. Deyirdiki, bəlkə bir adamda gəlib çıxdı, qoy o da yesin. Atama deyirdiki get İnəkdağından yazlıq buğda al. Oranın buğdası dəmiyədir. Yaxşı ərişdəsi və xəngəli olur. Son bir neçə ili çıxdıqdan sonra hər il atam gedib İnəkdağından bir at yükü buğda alıb gətirirdi.

1941-ci qədər ellikcə koma yaylağa çıxardıq. Bu kəndin əksəriyyəti koma çıxırdı. Hər kəsin komda evi və mal-qoyunu saxlamaq üçün xüsusi yeri olurdu. 5-10 ailə imkan tapıb gedə bilmirdi. Atı olanlar səhər gəlib kənddə kolxozda işləyir, axşam koma ailəsinin yanına qayıdırdılar.


Бизим гојунумуз аз оларды. Амма
1-2 чамышымыз вә инәјимиз оларды.
Ахшам мал өрүшдән ҝәлән кими
анам сағар вә дүбарә онун тәкиди
илә Һәбибә илә мән апарыб ҝечәнин
бир вахтына кими сәнҝәрдә ота-
рардыг.
Анам сүдлү, арасыјағлы чөрәји, әрдәк
фәсәлини чох севәрди. Одур ки, онлары
тез-тез биширәрди.
Кәнддә Күрдалы јериндә вә Гарагојунлу
јолунун гырағында јеримиз олдуғу
јахшы јадымдадыр. Атам Сарјагубдан
фәһлә тутуб бичдирир, Чичәклә Сәфијјә
дырмыхлајыр, өзүдә хорум бағлајырды.
Анам дағда хөрәји бишириб исти-исти
бу ишчиләрә чатдырырды. Бир шалаг ата-
мыз вар иди.
Атам Чичәклә Сәфијјәнин хатирини
чох истәјирди. Гәти онларын гәлби-
нә дәјмирди. О гызлар өзләри етираф
едирдиләрки, атам онлары биздән
чох истәјир. Гызларда ону чох истә-
јирдиләр. Бу ахыра гәдәрдә белә олду.

Bizim qoyunumuz az olardı. Amma 1-2 camışımız və inəyimiz olardı. Axşam mal örüşdən gələn kimi anam sağar və dübarə onun təkidi ilə Həbibə ilə mən aparıb gecənin bir vaxtına kimi səngərdə otarırdıq. Anam südlü, arasıyağlı çörəyi, ərdək fəsəlini çox sevərdi. Odur ki, onları tez-tez bişirərdi.

Kənddə Kürdalı yerində və Qaraqoyunlu yolunun qırağında yerimiz olduğu yaxşı yadımdadır. Atam Saryaqubdan fəhlə tutub biçdirir, Çiçəklə Səfiyyə dırmıxlayır, özüdə xorum bağlayırdı. Anam dağda xörəyi bişirir isti-isti bu işçilərə çatdırırdı. Bir şalaq atımız var idi.

Atam Çiçəklə Səfiyyənin xatirini çox istəyirdi. Qəti onların qəlbinə dəymirdi. O qızlar özləri etiraf edirdilərki, atam onları bizdən çox istəyir. Qızlarda onu çox istəyirdilər. Bu axıra qədərdə belə oldu.


Сәнәм бачымкилдә кома чыхырдылар
Онларын еви тикдә иди. Бизим ев
алчагда иди. Амма јахын иди.
Гаһдан евләрин арасы илә онлара
кедирдим. Кафијә вә Бәсди чох севи-
нирдиләр. Сәнәм бачым мәним үзүм-
дән көзүмдән өпүрдү. Оланларындан
мәнә күчлә једиздирирдиләр. Мән дә
бу аз мәсафәдән кәлиб бура чыхды-
ғыма көрә гүррәләнир, шиширдим.
Сулидин онда ушаг иди. Онун јадына
кәлмәз.


Ушаглыгдан јадымда
галанлар.
1934-ҹү илин пајызы иди. Әмирләрин
хырманында ушагларла ојнајырдыг.
Сәфијјә сөјүнәрәк кәлдики, муштулу-
ғуму вер ананын оғлу олду.
Атылыб дүшмәкдән башга мән нә муш-
дулуг верә биләрдим.
Әмиләрим даһа чох севинирди.
Дөрд гардашын евиндә оғлан уша-
ғы бир мәнидим. Инди ики олдуг.
Мән Һәбибәдән сонра анадан олму-
шам. Одур ки, Ҹәбрајыл әмим Һәбибә-
нин бојуну севәрәк дејирди: демәдимми
бу гызын дабаны кәртдәшди далы-
сынҹа оғлан олаҹаг.
Әмиләрим бүтүн бош вахтларыны
мәнлә кечириб, мәни атыб тутурду-
лар. Вәли әмим гојуна кедирди.
Дағда мәнидә јанынҹа апарыб, сүд
сағыб дограма едир мәнә једирирди.
Онун пәләш, кефли адлы көтәлин
итләри мәни дә танысына көрә
јекәләнирдим.

Sənəm bacımgildə koma çıxırdılar. Onların evi tikdə idi. Bizim ev alçaqda idi. Amma yaxın idi. Gahdan evlərin arası ilə onlara gedirdim. Kafiyə və Bəsdi çox sevinirdilər. Sənəm bacım mənim üzümdən gözümdən öpürdü. Olanlarından mənə güclə yedizdirirdilər. Məndə bu az məsafədən gəlib bura çıxdığıma görə qürrələnir, şişirdim. Sulidin onda uşaq idi. Onun yadına gəlməz.

### *Uşaqlıqdan yadımda qalanlar*

1934-cü ilin payızı idi. Əmirlərin xırmanında uşaqlarla oynayırdıq. Səfiyyə söyünərək gədiki, muşduluğumu ver anamın oğlu oldu. Atılıb düşməkdən başqa mən nə muştuluq verə bilərdim. Əmilərim daha çox sevinirdi. Dörd qardaşın evində oğlan uşağı bir mən idim, indi iki olduq. Mən Həbibədən sonra anadan olmuşam. Odur ki, Cəbrayıl əmim Həbibənin boyunu sevərək deyirdi: demədimmi bu qızın davanı kərtdəşdi dalısınca oğlan olacaq.

Əmilərim bütün boş vaxtlarını mənlə keçirir, məni atıb tuturdular. Vəli əmim qoyuna gedirdi. Dağda mənidə yanınca aparır, süd sağıb doğrama edir, mənə yedirirdi. Onun pələş, kefli adlı kötəlin itləri məni də tanıdığına görə yekələnirdim.


Мәни әзизләдикләринә ҝөрә ҝөрүнүр
әркәсөјүн бөјүјүрәммиш. Башымдан
јекә гәләт еләсәмдә ата-ананын
хатиринә дәјәр дејин, бөјүкләрдә дин-
мир сөзләрини удурдулар.
Бир дәфә кәндимиздән бир киши бизә ҝәлиб
атамла сөһбәт едирдиләр. Өјрәндим ки бу
кишијә пишиклә әлагәли гахы дејирләр.
Она ҝөрә гапыны ачыб, бәркдән мијолдајыб
гачдым. Һеч бир сәс күј ешитмәдијимә ҝөрә
ҝәлиб тәкрар мијолдадым. Бу дәфә һәмин
адам бәркдән ҝүлдү. Атам һирсләниб мәни
евә дөрд долады, амма тута билмәди.
Белә һадисәләрдән јадымда чох вар.
Бу ҹүр надинҹлик чох ҝетмәди. Бир аздан
дедиләрки Јусиф даһа ағыллы оғлан олуб.
Сулидинин атасы Асдан гыш ҝүнләри
ҝеҹә ҝәлиб биздә отурурдулар Сәнәм баҹым
Кафијә вә Бәсдидә ҝәлирди. Атам марагл[illegible]
һадисәләр охујур, биздә гулаг асырдыг.
Сонра Сулидинин атасы патифон алды
Кәнддә бир бу бирдә Гараҹа мүәллимин
әмиси Кәрбәлајы Меһдидә вар иди

Məni əzizlədiklərinə görə görünür ərkəsöyün böyüyürəmmiş. Başımdan yekə qələt eləsəmdə ata-anamın xatirinə dəyər deyin, böyüklər də dinmir sözlərini udurdular.

Bir dəfə kəndimizdən bir kişi bizə gəlib atamla söhbət edirdilər. Öyrəndim ki, bu kişiyə pişiklə əlaqəli qaxı deyirlər. Ona görə də qapını açıb bərkdən miyoldayıb qaçdım. Heç bir səs-küy eşitmədiyimə görə gəlib təkrar miyoldadım. Bu dəfə həmin adam bərkdən güldü. Atam hirslənib məni evə dörd doladı, amma tuta bilmədi. Belə hadisələrdən yadımda çox var. Bu cür nadinclik çox getmədi. Bir azdan dedilər ki, Yusif daha ağıllı oğlan olub. Sulidinin atası Asdan qış günləri gecə gəlib bizdə otururdular. Sənəm bacım, Kafiyə və Bəsdidə gəlirdi. Atam maraqlı hadisələr oxuyur, bizdə qulaq asırdıq. Sonra Sulidinin atası patifon aldı. Kənddə bir bu bir də Qaraca müəllimin əmisi Kərbəlayi Mehdidə var idi.


Ахшамлар кәтириб курсунун үстүнә гојуб,
охудурдулар. Әкәр курсуну тәрпәтсән охумаз,
ијнәси гырылар, дејирдиләр. Бу мәним
динҹ дурмағыма вәрдиш јаратды.
Мәнә вә Гәнбәрә сүннәт олдуғу јадымдадыр.
Гарајев Салеһ кирвәмиз иди. Бизи онун
оғлу Давыт тутду. Бу кәнддә илк поллу
вә паталоклу отаг онларда иди.
Давыт мәндән јашлы олсада биринҹи-
дән једдинҹијә гәдәр мәнлә охуду. Мән
1936-ҹы илин сентјабрында биринҹи синфә
гәбул олмушам. Мүәллимимиз Һәгигәт мү-
әллимә иди. Онлар Јереван тәрәфдән
кәлмишдиләр. Мәнлә ашағыдакы ушаглар
охујурду. Гарајев Давыд, Нәсибов Мамед
Иман оғлу, (Ленинградда вәфат етди 1969)
Һаҹыјев Сәһман Бәшир оғлу (Аз.ССР Гасым
Исмајылов рајонунун Нәрман кәндиндәдир.
Асланов Сәфәр (Аз.ССР Салјан рајонундадыр)
Вәлијев Әләскәр (Аз.ССР Дашкәсән рајонундадыр)
Бајрамова Һәбибә (бачым, Сарјагуб кәндиндә ев.г)
Алыјева Зүлејха Иман гызы - кәнддә евдар. гад
Јусифова Зафта Әләскәр гызы - кәнддә евдар г

Axşamlar gətirib kürsünün üstünə qoyub, oxudurdular. Əgər kürsünü tərpətsən oxumaz, iynəsi qırılar, deyirdilər. Bu mənim dinc durmağıma vərdiş yaratdı.

Mənə və Qənbərə sünnət olduğu yadımdadır. Qarayev Saleh kirvəmiz idi. Bizi onun oğlu Davıt tutdu. Bu kənddə ilk pollu və pataloklu otaq onlarda idi. Davıt məndən yaşlı olsada birincidən yeddinciyə qədər mənlə oxudu. Mən 1936-cı ilin sentyabrında birinci sinifə qəbul olmuşam. Müəllimimiz Həqiqət müəllimə idi. Onlar Yerevan tərəfdən gəlmişdilər. Mənlə aşağıdakı uşaqlar oxuyurdu. Qarayev Davıt, Nəsibov Mamed İman oğlu, (Leninqradda vəfat etdi 1969), Hacıyev Səhman Bəşir oğlu (Az. SSR Qasım İsmayılov rayonunun Nərman kəndindədir), Aslanov Səfər (Az. SSR Salyan rayonundadır), Vəliyev Ələsgər (Az. SSR Daşkəsən rayonundadır), Bayramova Həbibə (bacım, Saryaqub kəndində evdar qadın), Alıyeva Züleyxa İman qızı – kənddə evdar qadın, Yusifova Zafta Ələsgər qızı – kənddə evdar qadın.


Вәлијева Фијзә Һејдәрәли гызы – кәнддә евдар
Һачыјева Мүшкүназ Һәтәм гызы (Әзизлидә
вәфат етди) вә саирә.
Бунларын ичәрисиндә ән јахшы охујан
Сәһман иди. О инди шофер ишләјир.
Ән јахшы кејинән кирвәм Давыд иди.
Лакин мүһарибәдән сонра о охуја билмәди.
Мән 4-5 гијмәтләрлә охујурдум. Бешинҹи
синифдә алдығым грамотаны һәлә дә сахла-
јырам.
Мәктәбдә һеч кимин әјниндә магазиндән
алма палтар јох иди. Һамы әлдә тикмә
палтар кејинирди. Тәк-түк ушаглар вар
идики дәрзи тикмиш палтар кејинирди.
Әјагјалын кәзмәк вә ја дәрсә кәлмәк гәбаһәт
сајылмырды. Һамынын ајағында чарыг
варды. Гызлар ајагјалын олдуғуна көрә
гышда мәктәбә сејрәк кәлирди. Мүәллимләр
һәр күн кәндә дүшүб ушаглары чағырырды.
Әлбәтдә һамысыны јох. Мән һеч вахт
үзүрсүз дәрсдән галмаздым. Мәктәбдә
тәшкил олунан театр верилишләриндә
фәал иштирак едирдим.

Vəliyeva Fiyzə Heydərəli qızı – kənddə evdar, Hacıyeva Müşkinaz Hətəm qızı (əzizlidə vəfat etdi) və sairə.

Bunların içərisində ən yaxşı oxuyan Səhman idi. O indi şofer işləyir. Ən yaxşı geyinən kirvəm Davıd idi. Lakin müharibədən sonra o oxuya bilmədi. Mən 4-5 qiymətlərlə oxuyurdum. Beşinci sinifdə aldığım qramotanı hələ də saxlayıram.

Məktəbdə heç kimin əynində maqazindən alma paltar yox idi. Hamı əldə tikmə paltar geyinirdi. Tək-tük uşaqlar var idiki dərzi tikmiş paltar geyinirdi. Əyaqyalın gəzməz və ya dərsə gəlmək qəbahət sayılmırdı. Hamının ayağında çarıq vardı. Qızlar ayaqyalın olduğuna görə qışda məktəbə seyrək gəlirdi. Müəllimlər hər gün kəndə düşüb uşaqları çağırırdı. Əlbətdə hamısını yox. Mən heç vaxt üzürsüz dərsdən qalmazdım. Məktəbdə təşkil olunan teatr verlişlərində fəal iştirak edirdim.


Ән чох әдәбијјата марағым вар иди. Чохлу
шеир вә сөз билир, авазла јахшы охујурдум.
Бир неҹә дәфә рајон фестифалында чыхышым
јахшы бәјәнилмишди.
Мүәллимләрин әксәријјәти јерсиз иди. Сон вахт-
лар Исмајылов Әбүлфәт, Һаҹыјев Бәһман вә
Һаҹыјев Папыр Јереванда педагожи тех-
никум битириб кәлмишдиләр. Мүәллимләр-
дән һеч кимин али тәһсили јох иди.
Мәҹбури тәһсил једдинҹи синифә гәдәр иди.
7-ҹи синифи гуртаранлары техникума
гәбул едирдиләр. Јереван педагожи техникуму
чох гүввәтли мәзунлар бурахырды.
Мүәллимләрин маашы јүксәк вә дәјәрли
олдуғундан јахшы кејиниб вә јахшыда
доланырдылар. Онларын ҹамаат ара-
сында хусусу һөрмәтләри вар иди.
Мәктәбләрдә дәрс, 1928-ҹи 1929-ҹу илә
гәдәр фарс әлифбасы илә, 1930-ҹу илдән
латын әлифбасы илә, 1940-ҹы илдән
сонра рус әлифбасы илә кечилирди.
Мән латын әлифбасы илә јахшы
охујуб јаза билирәм.

Ən çox ədəbiyyata marağım var idi. Çoxlu şeir və söz bilir, avazla yaxşı oxuyurdum. Bir neçə dəfə rayon festifalında çıxışım yaxşı bəyənilmişdi.

Müəllimlərin əksəriyyəti yersiz idi. Son vaxtlar İsmayılov Əbülfət, Hacıyev Bəhman və Hacıyev Papır Yeravanda pedoqoji texnikum bitirib gəlmişdilər. Müəllimlərdən heç kimin ali təhsili yox idi. Məcburu təhsil yeddinci sinifə qədər idi. 7-ci sinifi qurtaranları texnikuma qəbul edirdilər. Yeravan pedoqoji texnikumu çox qüvvətli məzunlar buraxırdı. Müəllimlərin maaşı yüksək və dəyərli olduğundan yaxşı geyinir və yaxşıda dolanırdılar. Onların camaat arasında xüsusu hörmətləri var idi.

Məktəblərdə dərs, 1928-ci 1929-cu ilə qədər fars əlifbası ilə, 1930-cu ildən latın əlifbası ilə, 1940-cı ildən sonra rus əlifbası ilə keçirildi. Mən latın əlifbası ilə yaxşı oxuyub yaza bilirəm.



Бөјүк Вәтән мүһарибәси
башланды.
30-ҹу илләрин II јарысында гәзетләр
Һитлерин Авропада истилачылыг мүһа-
рибәләрини вә тәҹавүзкар планларыны
шәрһ едирди.
1939-ҹу илин август ајында Алманија-
илә Совет дөвләти арасында 10 ил мүддәтиндә
һүҹум етмәмәк һаггында мүгавилә имза-
ланды. Данышырдылар ки, 10 ил мүд-
дәтиндә Совет дөвләти өз мүдафиә габи-
лијјәтини мөһкәмләндирәҹәк вә игтиса-
ди гүдрәтини јүксәлдәҹәкдир. Совет дөв-
ләти мүдафиә тәдбирләри кечирирди.
Алман фашистләри Авропаны тала-
дыгдан сонра 1941-ҹи илин ијун ајы-
нын 22-дә гәфләтән өлкәмизә сохулду.
22 ијун базар ҝүнү иди. Һамынын ҝөзү
дағда иди. Адамлар кома-кома олуб
данышыр, Һитлерә ләнәт јағдырыр-
дылар. Дүнән дејиб-ҝүлән бу оғлан-
ларын үз-ҝөзүндән кәдәрләндији, гүссә-
ләндији, үмумијјәтҹә бәдбинлији

## *Böyük Vətən müharibəsi başlandı*

30-cu illərin II yarısında qəzetlər Hitlerin Avropada istilaçılıq müharibələrini və təcavüzkar planlarını şərh edirdi.

1939-cu ilin avqust ayında Almaniya ilə Sovet dövləti arasında 10 il müddətində hücum etməmək haqqında müqavilə imzalandı. Danışırdılar ki, 10 il müddətində Sovet dövləti öz müdafiə qabiliyyətini möhkəmləndirərək və iqtisadi qüdrətini yüksəldəcəkdir. Sovet dövləti müdafiə tədbirləri keçirirdi.

Alman faşistləri Avropanı taladıqdan sonra 1941-ci ilin iyun ayının 22-də qəflətən ölkəmizə soxuldu. 22-iyun bazar günü idi. Hamının gözü dağda idi. Adamlar koma-koma olub danışır, Hitlerə lənət yağdırırdılar. Dünən deyib-gülən bu oğlanların üz-gözündən kədərləndiyi, qüssələndiyi, ümumiyyətcə bədbinliyi


һисс олунурду. Адамлар вахтындан
әввәл кәндә көчүрдүләр. Комда елә бил
сәс-күј кәсилмишди. Санки бу бәд
хәбәри һејванларда һисс етмишдиләр.
Мән вә тај-тушларым әввәлки
шәнлији итирмиш кими солғар-
-солғар кәзиширдик.
Август ајында һамы кәндә көчдү.
Сентјабр ајында күтләви сәфәрбәрлик
олду. Орта һесабла һәр евдән бир-
ики нәфәр ордуја чағырылды.
Вәли әмим, Имамверди дајым вә бир
нечә гоһумларда сәфәрбәр олду.
Бунунлада ушағын, бөјүкүн, гадынын
вә гоҹанын гајғылары һәддини ашды.
1941-ҹи илин II јарысында дәрсләримиз
низамдан дүшдү. 1942-ҹи илдән сонра нә
печләр јанырды нә дәрс дејән вар иди.
Јазда биз јашыдлы ушаглар вә гоҹалар,
сонрада гадынлар котан вә ҹүтлә јер
әкир, тохум сәпир, ону дырмыглајыр
вә малалајырдыг. Һәр ҹүтүн вә котанын
әкин нормасы өдәнмәли иди.

hiss olunurdu. Adamlar vaxtından əvvəl kəndə köçürdülər. Komda elə bil səs-küy kəsilmişdi. Sanki bu bəd xəbəri heyvanlarda hiss etmişdilər. Mən və tay-tuşlarım əvvəlki şənliyi itirmiş kimi solğar-solğar gəzişirdik.

Avqust ayında hamı kəndə köçdü. Sentyabr ayında kütləvi səfərbərlik oldu. Orta hesabla hər evdən bir-iki nəfər orduya çağırıldı.

Vəli əmim, İmamverdi dayım və bir neçə qohumlarda səfərbər oldu. Bununlada uşağın, böyükün, qadının və qocanın qayğıları həddini aşdı. 1941-ci ilin II yarısında dərslərimiz nizamdan düşdü. 1942-ci ildən sonra nə peçlər yanırdı, nə dərs deyən var idi. Yazda biz yaşıdlı uşaqlar və qocalar, sonrada qadınlar kotan və cütlə yer əkir, toxum səpir, onu dırmıqlayır və malalayırdıq. Hər cütün və kotanın əkin norması ödənməli idi.



Јазын јағмырлы ҝүнләри бизи
тагәтдән салырды. Нә әјнимиздә әмәлли
палтар, нә ајағымызда низам чарыг
вар иди. Исланырдыг, титрәјирдик
сонра котаны ачыб кәндә ҝәлирдик.
Амма бизи данлајыр, тәһгир едиб
бирдә ҝери гајтарырдылар.
Бу илин пајызындан мәһсулун бичил-
мәси, дашынмасы, дөјүлмәси вә дөвләтә
тәһвили бизим гүввәмиздән асылы иди.
Биз ушаг олдуғумуза ҝөрә мәһсулун,
хүсусилә тахыл мәһсулунун дөвләтә
тәһвил верилмәсиндә чох чәтинлик чәкир-
дик. Тахыл Загада тәһвил верилир,
орадан да дәниз јолу васитәсилә Севана
дашынырды. Һәми Басаркечәр Јереван
јолу мүнасиб дејилди, һәмдә о гәдәр авто-
машын јох иди.
Биз ики тәкәр араба васитәсилә
ҝүндүзләр күләш дашыјыр, ҝечәләр исә
Загаја тахыл апарырдыг. О вахт
мешог тапылмадығына ҝөрә тахылы
колхозчулардан топланмыш чувала

Yazın yağmırlı günləri bizi taqətdən salırdı. Nə əynimizdə əməlli paltar, nə ayağımızda nizam çarıq var idi. İslanırdıq, titrəyirdik sonra kotanı açıb kəndə gəlirdik. Amma bizi danlayır, təhqir edib birdə geri qaytarırdılar.

Bu ilin payızından məhsulun biçilməsi, daşınması, döyülməsi və dövlətə təhfili bizim qüvvəmizdən asılı idi. Biz uşaq olduğumuza görə məhsulun, xüsusilə taxıl məhsulunun dövlətə təhfil verilməsində çox çətinlik çəkirdik. Taxıl Zağada təhfil verilir, oradanda dəniz yolu vasitəsilə Sevana daşınırdı. Həmi Basarkeçər Yerevan yolu münasib deyildi, həmdə o qədər avtomaşın yox idi.

Biz iki təkər araba vasitəsilə gündüzlər küləş daşıyır, gecələr isə Zağaya taxıl aparırdıq. O vaxt meşoq tapılmadığına görə taxılı kolxozçulardan toplanmış çuvala


долдурурдуг. Чувал 100-150 кг тахыл
ҝөтүрүрдү. Буну галдырмаг вә дүшүр-
мәк үчүн нә әзаб чәкдијимизи өзүнүз
тәсәввүр един. Загада анбарлар долдуг-
дан сонра дәнизин гырағында тахыл
тајалары дүзәлдирдиләр. Чөл тәрәфини
мешокларла һөрүб галдырыр, ортасы-
нада тахылы ачыг төкүрдүләр. Беш-
мәртәбәли ев һүндүрлүкдә олан бу
тахыл тајасынын башына чувал
галдырмаг һәр ушағын иши дејилди.
Јухумузу арабада алырдыг. Сәһәр јенә
күләш дашымалы олурдуг. Тахыл чох
дәнли олдуғундан јухары галдырмаг
олмурду. Биләјимиз шиширди, сарыјырдыг.
Ҝөрүнүр торпаг мүнбит имиш.
О гәдәрдә јахшы әкин едә билмәсәкдә,
чох јахшы тахыл ҝәлирди. Јығыб-
јығышдырмаг олмурду.
Әмәкҝүнүнә нә тахыл нәдә пул
бөлүнүрдү. Аз мигдарда аванс верир-
диләр. Тохумдан башга анбарда
тахыл олмазды. Әмәкҝүнүнә 200-300 г
зибил бөлүрдүләр.

doldururduq. Çuval 100-150 kq taxıl götürürdü. Bunu qaldırmaq və düşürmək üçün nə əzab çəkdiyimizi özünüz təsəvvür edin. Zağada anbarlar dolduqdan sonra dənizin qırağında taxıl tayaları düzəldirdilər. Çöl tərəfini meşoklarla hörüb qaldırır, ortasınada taxılı açıq tökürdülər. Beşmərtəbəli ev hündürlükdə olan bu taxıl tayasının başına çuval qaldırmaq hər uşağın işi deyildi. Yuxumuzu arabada alırdıq. Səhər yenə küləş daşımalı olurduq. Taxıl çox dənli olduğundan yuxarı qaldırmaq olmurdu. Biləyimiz şişirdi, sarıyırdıq. Görünür torpaq münbit imiş. O qədərdə yaxşı əkin edə bilməsəkdə, çox yaxşı taxıl gəlirdi. Yığıb yığışırmaq olmurdu. Əmək gününə nə taxıl nə də pul bölünürdü. Az miqdarda avans verirdilər. Toxumdan başqa anbarda taxıl olmazdı. Əmək gününə 200-300 qr zibil bölürdülər.


1943-1944-ҹү илләрдә игтисади вәзијјәт даһа
ҝәрҝин иди. Ишчиләрә белә азда олса чөрәк
чатдырмаг үчүн бир јердә чөрәк биширилир
(тәндирдә) онуда парча-парча бөлүрләр.
Буда кифајәт етмирди. Јајда бичинчиләри
дырмыгчылары вә дашыгчылары азда олса
тәмин етмәк үчүн һәр бригада чөлдә ајры-
ҹа газан асыр, лобја, пәринҹ вә с. хөрәк
биширирди. Онуда һәр адамын габына төкүр-
дүләр.
Пајыз оланда имканы олмајанлар га-
пысыны бағлыјыр, ушагларыны ҝөтүрүб
пијада јолла Азәрбајҹана ҝедирдиләр.
Гышда орада фәһләчиликлә ушагларыны
доландырыб, јазда јенә гајыдыб, гәнаәт
едиб сахладыглары тохумла гапы јер-
ләрини ајаглары илә әкирдиләр.
Адамларын көчүб гајытмасы јалныз
әрзаг чатышмамазлығы илә әлагәдар
дејилди. Јанаҹаг мәсәләси ондандa чәтин
иди. Һамы ев дамында олур, һәр ҝүн
тәндир галајыр, үстүндә бишмиш биши-
рир истисинә дә отурурду.

1943-1944-cü illərdə iqtisadi vəziyyət daha gərgin idi. İşçilərə belə azda olsa çörək çatdırmaq üçün bir yerdə çörək bişirilir (təndirə) onuda parça-parça bölürlər. Bu da kifayət etmirdi. Yayda biçinçiləri, dırmıqçıları və daşıqçıları azda olsa təmin etmək üçün hər briqada çöldə ayrıca qazan asır, lobya, pərinc və s. xörək bişirirdi. Onuda hər adamın qabına tökürdülər.

Payız olanda imkanı olmayanlar qapısını bağlayır, uşaqlarını götürüb piyada yolla Azərbaycana gedirdilər. Qışda orada fəhləçiliklə uşaqlarını dolandırıb, yazda yenə qayıdıb, qənaət edib saxladığları toxumla qapı yerlərini ayaqları ilə əkirdilər.

Adamların köçüb qayıtması yalnız ərzaq qatışmamazlığı ilə əlaqədar deyildi. Yanacaq məsələsi ondanda çətin idi. Hamı ev damında olur, hər gün təndir qalayır, üstündə bişmiş bişirir istisinə də otururdu.


Бу гәдәр јанаҹаг, аз-аз адамларда олурду.
Азәрбајҹанын иглими вә шәраити гыш
мүддәтиндә нисбәтән әлверишли иди.
Аз-да анҹаг памбыг вә тахыл әкилирди.
Көјчә ҹамаатына, мүһарибә илләриндә
Азәрбајҹан бөјүк дајаг олду. Јај мүддәтин-
дә кими улагла, кимидә шәләсиндә һеј
тахыл дашыјырды. Кимин аты-улағы
вардырса онун о гәдәрдә корлуғу олмурду.
Атам бир инәк вериб, Сарыјагублу
Бәјләрдән бир улаг алмышды.
1944-ҹү илин јајы оларды мән Гаравуллу
кәндиндән сәһәр чох вахтлы чыхдым, бир
улаг јүкү тахыл кәтирирдим. Атам
мәни кәтириб Ағјохушун башындан өтү-
рәндә ахшам саат $6^{00}$ оларды. Атам
деди мәним ишим вар кетсәм сәһәр
кәрәк тездән дәрһал гајыдам. Одур ки,
горхма күн батана кими чатаҹагсан
еләдә олду. Улағы бәрк мәһмизләдим
кәлиб Инәкдағынын алтындан кечән-
дә габагда бир гаралтынында кетдијини
көрдүм. О отуруб динҹәләндә

Bu qədər yanacaq az-az adamlarda olurdu. Azərbaycanın iqlimi və şəraiti qış müddətində nisbətən əlverişli idi. Az-da ancaq pambıq və taxıl əkilirdi.

Göyçə camaatına müharibə illərində Azərbaycan böyük dayaq oldu. Yay müddətində kimi ulaqla, kimi də şələsində hey taxıl daşıyırdı. Kimin atı-ulağı vardısa onun o qədərdə korluğu olmurdu. Atam bir inək verib, Sarıyaqublu Bəylərdən bir ulaq almışdı.

1944-cü ilin yayı olardı, mən Qaravullu kəndindən səhər çox vaxtlı çıxdım, bir ulaq yükü taxıl gətirirdim. Atam məni gətirib Ağyoxuşun başından ötürəndə axşam saat $6^{00}$- olardı. Atam dedi mənim işim var getsək səhər gərək tezdən dərhal qayıdam. Odur ki, qorxma gün batana kimi çatacaqsan, elə də oldu. Ulağı bərk məhmizlədim gəlib İnəkdağının altından keçəndə qabaqda bir qaraltının da getdiyini gördüm. O oturub dincələndə


кәлиб далындан чатдым. Бу Әлијев
Гурбан Јусиф оғлу иди. Далында арандан
шәлә илә тахыл кәтирирди. Соруштум
деди ки, ики пуддур. Онуда улағын
јүкүнүн үстүнә гојдуг. Лакин Зод га-
ласына чатанда улаг јатды. Гурбан
јенә дә јүкүнү өзү көтүрәси олду.
Атам, Гәнбәр вә Сәфијјә Ханлар рајо-
нун Әһмәдбәјли кәндиндә олурдулар
Мән анам вә бирдә Фәнара евимиздә
галырдыг. Сәфијјәнин 3 јашында бир
көјчәк, дирибаш, Фирудин адлы бир оғлу-
да вар иди. Һамымыз ону чох истијир,
онунла күнүмүзү кечирирдик. Атам
бунлары чидди еһтијаҹа көрә апарма-
мышды. Тахылымыз вар иди. Корлуг
чәкмәсинләр дејә, апармышды.
Фирудин гәфилдән хәстәләниб өлмүшдү.
Әмимин ики гызы галмышды: Пакизә
вә Мүшкүназ. Мүшкүназда Аз-да ушагикән
вәфат етди. 1944-чү илин пајызы иди.
Адамлар вахтларыны кечирмәк, дәрд-
ләрини дағытмаг үчүн кечәләр

gəlib dalından çatdım. Bu Əliyev Qurban Yusif oğlu idi. Dalında arandan şələ ilə taxıl gətirirdi. Soruşdum dedi ki, iki putdur. Onuda ulağın yükünün üstünə qoyduq. Lakin Zod calasına çatanda ulaq yatdı. Qurban yenə də yükünü özü götürəsi oldu.

Atam, Qənbər və Səfiyyə Xanlar rayonunun Əhmədbəyli kəndində olurdular. Mən anam və birdə Fənara evimizdə qalırdıq. Səfiyyənin 3 yaşında bir göyçək, diribaş Firudin adlı bir oğluda var idi. Hamımız onu çox istiyir, onunla günümüzü keçirirdik. Atam bunları atam bunları ciddi ehtiyaca görə aparmamışdı. Taxılımız var idi. Korluq çəkməsinlər deyə aparmışdı. Firidun qəfildən xəstələnib ölmüşdü. Əmimin iki qızı qalmışdı: Pakizə və Müşkünaz. Müşkünazda Az-da uşaq ikən vəfat etdi. 1944-cü ilin payızı idi. Adamlar vaxtlarını keçirmək, dərdlərini dağıdmaq üçün gecələr


јығышыб бир јердә дәрдләшир, вахты
кечирмәк үчүн дејиб күлүрдүләр. Ахы о гәдәр
јанаҹаг һарада иди ки, һамынын еви исти
олсун.
Вәли әмим, Әзиз олан евдә (ин јериндә) бир бөјүк
товла, бир евдамы вә бир көздә отаг тик-
мишди. Бир ҹамышы, бир инәји, бир
калчасы вә бирдә данасы вар иди.
Марал дамын јарысына кими бәлим-
-күләш долдурмуш, бир тәрәфинә ҹамыш-
ла инәји бағламыш, о бири тәрәфә дә
калча вә данани бағламышды. Дамын
баш тәрәфиндә сәки кәсиб тәндир бас-
дырмышды. Малын јериндә исти олсун
дејә бу сәкини галајыр бурдада јатыр-
дылар. Ахшамлар Маралда ушагла-
рыны көтүрүб гоншуларда вахты-
ны кечирирди.
Пајызын сојуглу күнү иди. Евдә анам
мән вә Фәнара иди. Сипичка олмады-
ғындан тәндирдән од чыхарыб үфлә-
јир, чырағы јандырырдыг. Күрсү-
нүн алтында кәлдән-кетдән даны-
шырдыг.

yığışıb bir yerdə dərdləşir, vaxtı keçirmək üçün deyib gülürdülər. Axı o qədər yanacaq harada idi ki, hamının evi isti olsun.

Vəli əmim, Əziz olan evin yerində bir böyük tovla, bir evdamı və bir gözdə otaq tikmişdi. Bir camışı, bir inəyi, bir kalçası və birdə danası var idi. Maral damın yarısına kimi bəlim-küləş doldurmuş, bir tərəfinə camışla inəyi bağlamış, o biri tərəfə də kalça və dananı bağlamışdı. Damın baş tərəfində səki kəsib təndir basdırmışdı. Malın yeridə isti olsun deyə bu səkini qalayır, burdada yatırdılar. Axşamlar Maralda uşaqlarını götürüb qonşularda vaxtını keçirirdi.

Payızın soyuqlu günü idi. Evdə anam mən və Fənara idi. Sipiçka olmadığından təndirdən od çıxarıb üfləyir, qırağı yandırırdıq. Kürsünün altında gəldən-getdən danışırdıq.


Әскәр мәктублары охујур, онлара
ҹаваб јазырдыг. Адәтән күрсүмүз
исти олурду. Әлимә гәзет кечәндә
сәтирбә-сәтир охујурдум. Чох диггәтлә
гулаг асырдылар. Елә бил ки онларын
аталарындан, гардашларындан кимин-
сә ады чәкиләҹәк иди.
Гәзетдә исә, Гызыл Ордунун ҹәбһә
боју һүҹума кечмәсиндән, онун тарихи
гәләбәләриндән, фашистләрин бөјүк итки
верәрәк кери чәкилмәсиндән бәһс едилирди.
Һәзи Аслановун гәһрәманлыг нүму-
нәсиндән кениш мәгалә верилмишди.
Биз елә билирдик ки, бу бизим әмиоғлу
Әвәздир. Гәзетләр әлдән-әлә кәзирди.
Кеҹәдән хејли кечмиш оларды, јатмышдыг.
Гапы дөјүлдү, анам гапыны ачды.
Марал, Пакизә вә Мүшкүназ ичәри кириб
ағладылар ки евимизи јарыб, унумузу,
палтарымызы апарыблар. Дуруб кејиндик.
Горхурдуг. О вахт гачаглар олурду.
Амма гачаглар даһа варлы евләрә
басгын едирдиләр.

Əsgər məktubları oxuyur, onlara cavab yazırdıq. Adətən kürsümüz isti olurdu. Əlimə qəzet keçəndə sətirbə-sətir oxuyurdum. Çox diqqətlə qulaq asırdılar. Elə bil ki, onların atalarından, qardaşlarından kiminsə adı çəkiləcək idi. Qəzetdə isə Qızıl Ordunun cəbhə boyu hücuma keçməsindən, onun tarixi qələbələrindən, faşistlərin böyük itki verərək geri çəkilməsindən bəhs edilirdi. Həzi Aslanovun qəhrəmanlıq nümunəsindən geniş məqalə verilmişdi. Biz elə bilirdik ki, bu bizim əmioğlu Əvəzdir. Qəzetlər əldən-ələ gəzirdi. Gecədən xeyli keçmiş olardı, yatmışdıq. Qapı döyüldü, anam qapını açdı. Maral, Pakizə və Müşkünaz içəri girib ağladılar ki, evimizi yarıb, unumuzu, paltarımızı aparıblar. Durub geyindik. Qorxurduq. O vaxt qaçaqlarda olurdu. Amma qaçaqlar daha varlı evlərə basqın edirdilər.


Бирдән Марал ев јанды! дејиб тик галхды.
Мәндә онларла кетдим. Ичәри кирәндә
ачы түсду бизи бәрк вурду. Дам јанырды.
Ичәри кирдик ки, малы ачаг, мал мә-
ләширди. Алов дирәклә јухары галхырды.
Түсту о гәдәр долмушдур ки, нә көрмәк
нә дә нәфәс алмаг мумкүн дејилди.
Маллар зәнҹирлә бағландығындан нә
ачмаг, нә дә кәсмәк мумкүн олмады.
Кәнддә киши демәк олар ки јох иди.
Мән киши олан евләрин баҹасына
чыхыб дам јанды! дејиб, о биринә кечирдим.
Нәһајәт бир ики гадын бирдә Мәммәд
әмим кәлмишди. Артыг кеч иди, бир
иш көрә билмәдик. Дамын ичиндәки
салон од алмыш дамы јандырмышды.
Дамда ичәрисиндәки әшјаларда јанды.
О малларын мәләшмәси ваһимәли
бир сәс кими һәләдә гулағымдадыр.
Бир ҹамыш гарнында баласы, бир калча
бир инәк, гарны боғаз бирдә бир дана
јанмышды.
Ев дамы илә күчәнин арасындан бир.

Birdən Maral ev yandı deyib tik qalxdı. Məndə onlarla getdim. İçəri girəndə acı tüsdü bizi bərk vurdu. Dam yanırdı. İçəri girdik ki, malı açaq, mal mələşirdi. Alov dirəklə yuxarı qalxırdı. Tüstü o qədər dolmuşdur ki, nə görmək nə də nəfəs almaq mümkün deyildi. Mallar zəncirlə bağlandığından nə açmaq, nə də kəsmək mümkün olmadı. Kənddə kişi demək olar ki yox idi. Mən kişi olan evlərin bacasına çıxıb dam yandı! deyib o birinə keçirdim. Nəhayət bir iki qadın bir də Məmməd əmim gəlmişdi. Artıq gec idi, bir iş görə bilmədik. Damın içindəki salon od almış damı yandırmışdı. Damda, içərisindəki əşyalarda yandı. O malların mələşməsi vahiməli bir səs kimi hələdə qulağımdadır. Bir camış qarnında balası, bir kalça, bir inək, qarnı boğaz birdə bir dana yanmışdı. Ev damı ilə küçənin arasından bir


адам дүшәси ачмышдылар. Ун чувалы-
нын јарыдан чохуну нәјә исә долдуруб,
вә ев әшјаларындан да ҝөтүрүб апармыш-
дылар.
Маралын дедијинә ҝөрә дамда оду
оғрулар вермишди. Амма анамҝил өлчүб
бичдиләр ки, јәгин ҝириб ичәри (Марал) тән-
дирдән од чыхарыб, салон јандырыб, сонра
~~оду~~ евин јандығыны ҝөрүб бизә гачыблар
Беләликлә салондан од тутуб, дам јаныб
Һәр һалда дамын вә о гәдәр малын
јанмасынын баиси гоншуларын еви
јармасы олмушду.
Сәһәр рајона мәлумат верилди.
Милисәдән ики нәвәр палномечи - Алојан
~~Хачик вә~~ Фанҹан вә јетим Хачој дејиләнләр
ҝәлиб Маралы, Мәммәд әмими вә бирдә
мәни идарәјә (Салаһын отағына) апар-
дылар ки, дејин ҝөрәк оғрунуз кимдир?
Алојан Фанҹан мәним үзүмә елә бир
шилла вурдуки, ҝөзүмдән шимшәк чахды.
Амма оғру ким олдуғуну һарадан
билмәк оларды. Дәгиг билмәдән кимин

adam düşəsi açmışdılar. Un çuvalının yarıdan çoxunu nəyə isə doldurub və ev əşyalarındanda götürüb aparmışdılar.

Maralın dediyinə görə damada odu oğrular vermişdu. Amma anamgil ölçüb biçdilər ki, yəqin girib içəri (Maral) təndirdən od çıxarıb salon yandırıb, sonra evin yandığını görüb bizə qaçıblar. Beləliklə salondan od tutub, dam yanıb. Hər halda damın və o qədər malın yanmasının baisi qonşuların evi yarması olmuşdu.

Səhər rayona məlumat verildi. Milisədən iki nəvər palnomeçi – Aloyan Fancan və yetim Xaçoy deyilənlər gəlib Maralı, Məmməd əmimi və birdə məni idarəyə (Salahın otağına) apardılar ki, deyin görək oğrunuz kimdir? Aloyan Fancan mənim üzümə elə bir şillə vurduki, gözümdən şimşək çaxdı. Amma oğru kim olduğunu hardan bilmək olardı. Dəqiq bilmədən kimin


јахасындан тутмаг оларды.
Мәммәдлә мәни апарыб глава Балынын
сојуг бир дамына салыб, тәхминән ики
саатдан бир ҝәтириб данышдырыр, сөјүр
дөјүрдүләрки, оғруну дејин. Бизи Бејпуд
апарыб ҝәтирирди. Глава Балынын
евиндә Пүстә гары, ҝәлини Сүрәјја вә нә-
вәси Үлкәрдән башга бир кәс јох иди.
Пүстә гары бизә бир кечә вермишди, онун
үстүндә гаранлыгда отурурдуг. Үшүјүрдүк.
Мәммәд дејирди ки, сојугдан ајағым дүшүр.
Нәһајәт сәһәр бизи бурахдылар, оғру
мүәјјәнләшмәди.
Сонра кимсә Марала гејри рәсми
мә'лумат вермишди. Она ҝөрә дә онун
әмиси гызындан олан Гәзәнфәр бизим
кәнддән ики инәк апарыб Кәлбәҹәр
рајонунун Ганлы кәндиндә кәсиб сатыр-
мыш. Далысынҹа ҝедиб ону тутдулар,
ики ил гала вердиләр.
Даһа Маралын Ҝөјчәдә галмағына
һеч ҹүр имкан олмады. Ушагларын да
ҝөтүрүб ҝетди Азәрбајҹана.

yaxasından tutmaq olardı. Məmmədlə məni aparıb qlava Balının soyuq bir damına salıb, təxminən iki saatdan bir gətirib danışdırır, söyür döyürdülərki, oğrunu deyin. Bizi Beypud aparıb gətirirdi. Qlava Balının evində Püstə qarı, gəlini Sürəyya və nəvəsi Ülkərdən başqa bir kəs yox idi. Püstə qarı bizə bir keçə vermişdi, onun üstündə qaranlıqda otururduq. Üşüyürdük. Məmməd deyir di ki, soyuqdan ayağım düşür. Nəhayət səhər bizi buraxdılar, oğru müəyyənləşmədi.

Sonra kimsə Marala qeyri-rəsmi məlumat vermişdi. Ona görə də onun əmisi qızından olan Qəzənfər bizim kənddən iki inək aparıb. Kəlbəcər rayonunun Qanlı kəndində kəsib satırmış. Dalısıncada gedib onu tutdular, iki il qala verdilər. Daha Maralın Göyçədə qalmağına heç cür imkan olmadı. Uşaqları da götürüb getdi Azərbaycana.



Azərbaycana getməkdə o qədərdə asan deyildi. Beş-on ev razılaşıb birdən qalxırdı. Bunların bəziləri saxlaya bilmədiyi üçün mal-qoyunlarınıda özləri ilə aparıb orada saxlayır, qızdırar deyin, yazda yenədə Göyçüyə qaytarırdılar. Adətən Kəlbəcər-Tərtər yolu gedirdilər. Bu yol uzaq olsada havalı və münasib idi. Altı-yeddi gün yol gedən qadın, qoca, uşaq çöldə gecələyərdi. Meşənin quru odunundan yığıb böyük ocaq çatardılar. Hər ailə köz çəkib bir tərəfdə öz uşaqları üçün ili-isti bişirirdilər.

Siz təsəvvür edin! Açıq-çılpaq, ayaqyalın, ac-susuz körpə uşaqlar, çölüzü görməmiş ismətli gəlinlər meşədə gecələyərkən, Bağlı Pəyə və Umudlu ərazisində nanikor, beyqeyrət, dufeyli, namussuz kişilər onlara həmlə edir, var-yoxlarını əllərindən alırdılar. O, vicdansızlar


ушагларын фәрјадына, гадынларын
дил дејиб ағламасына да мәһәл гој-
мурдулар. Неҹә адамларын јол азу-
гәсини, мал-гојуну әлләриндән
күҹлә алмышдылар.
Бу накишиләр неҹә аиләнин улағыны
оғурлајыб көчүнү јердә гојмушду. Неҹә
адамын тахыл јүкүну јолда гој-
мушдулар. Сәнәм баҹым данышыр-
ды ки, 14 аилә илә Гарабағ јолуна
дүзүлүб кедирдик. Тәртәрин гыра-
ғында кеҹәләдик. 3-4 атлы бизим
үзәримизә атылды. Әлләринә кечәни
көтүрдүләр. Шаир Бәһманын да
сазыны әлиндән алдылар. Сәһәриси
ағлаша-ағлаша јола дүзәлдик.
Атам Сәнәм баҹымы вә Маралы
Зазалыда јерләшдирди. Онлары
өз достуна тапшырса да, тез-
-тез кедиб баш чәкир имканы
дахилиндә көмәклик көстәрирди.
Онларда өз ишләринин јолуну
тапыб гејрәтлә доланырдылар.

uşaqların fəryadına, qadınların dil deyib ağlamağına da məhəl qoymurdular. Neçə adamların yol azuqəsini, mal-qoyununu əllərindən güclə almışdılar. Bu nakişilər neçə ailənin ulağını oğurlayıb köçünü yerdə qoymuşdu. Neçə adamın taxıl yükünü yolda qoymuşdular. Sənəm bacım danışırdı ki, 14 ilə ilə Qarabağ yoluna düzülüb gedirdik. Tərtərin qırağında gecələdik. 3-4 atlı bizim üzərimizə atıldı. Əllərinə keçəni götürdülər. Şair Bəhmanın da sazını əlindən aldılar. Səhərisi ağlaşa-ağlaşa yola düzəldik. Atam Sənəm bacımı və Maralı Zazalıda yerləşdirdi. Onları öz dostuna tapşırsada, tez-tez gedib baş çəkir, imkanı daxilində köməklik göstərirdi. Onlarda öz işlərinin yollarını tapıb qeyrətlə dolanırdılar.


Мәним Ҝәнҹә сәфәрим
1944-ҹу илин декабры.
Анам мәсләһәт ҝөрдүки сән бурада
галыб нә иш ҝөрәҹәксән. Ҝет ата-
нын јанына јазда ҝәләрсән. Анам
Фәнара илә галырды. Бир инәк бир
дүјә бизим, бир инәклә бир дана да
Сәфијјәнин вар иди. Малын јемини
топламышдыг, Азугәмиз вә јанаҹа-
ғымыз вар иди. Демәк олар ки ана-
мын һеч нәдән еһтијаҹы јох иди.
Ҝетмәк оларды.
Анам өјрәндики, Шәбан вә Гасымов Әмирхан
арана ҝедәҹәкди. Мән һазырлашдым бир јахшы
ҝөн чарыг тикдим. О, вахт ҝөн тапмаг
олмурду. Резин чарыг тикирдиләр.
Палтом вә гулаглы папағым вар иди.
Анам јахшы јол чөрәји биширди. Бир
гарын јағымыз вар иди. Анам онун
1/3 һиссәсинидә гојдуки, Сәфијјәкилә апар.
Бир јахшы, гывраг шәлә гајырдым сәһәр
үчүн там һазыр идим.

## *Mənim Gəncə səfərim*

1944-cü ilin dekabrı anam məsləhət gördükü sən burda qalıb nə iş görəcəksən. Get atanın yanına yazda gələrsən. Anam Fənara ilə qalırdı. Bir inək bir düyə bizim, bir inək bir dana da Səfiyyənin var idi. Malın yemini toplamışdıq. Azuqəmiz və yanacağımız var idi. Demək olar ki, anamın heç nədən ehtiyacı yox idi, getmək olardı. Anam öyrəndiki, Şəban və Qasımov əmirxan Arana gedəcəkdi. Mən hazırlaşdım bir yaxşı gön çarıq tikdim. O vaxt gön tapmaq olmurdu. Rezin çarıq tikirdilər. Paltom və qulaqlı papağım var idi. Anam yaxşı yol çörəyi bişirdi. Bir qarın yağımız var idi. Anam onun 1/3 hissəsini də qoydu ki, Səfiyyəgilə apar. Bir yaxşı qıvraq şələ qayırdım, səhər üçün tam hazır idim.



Јухум ҝәлмирди, Дуруб тәндирә салланмышдым. Сәһәрә јахын Әмирхан бачаја чыхыб мәни чағырды. Анам далымча су атды.
Һәлә гаранлыг иди. Бәрк күләк әсирди. Декабрын 21-и олмасына бахмајараг Ҝөјчә дүзүндә, ҝүнејләрдәдә гар ҝөрүнмүрдү. Гуру сојуг адамы кәсирди. Мән үшүмүрдүм, онларын үшүдүјүнү һисс едирдим.
Ишыгламанда Ағјохушда Салман кишинин евинә дөндүк. Ҝүлаватын хала тәндири одлады гызындыг. Гоншулары Мухтар кишидә ҝәлиб чыхды. Сорушду ки, ај Шәбан һара белә?. Уғур олсун. Шәбан киши Оғурчагдан ашыб арана ҝедәҹәјини данышды. Мухтар киши, Шәбана бәрк һирсләниб деди: Бу ҝүн чиллә ҝирир. Улагла Оғурчагдан ашмаг олармы. Бәлкә о үз гар борандыр. Халгын ушағыны апарыб борана саларсан. Ҝетмәк истәјирсән ҝет Топашандан аш.
(Красны рајону)

Yuxum gəlmirdi. Durub təndirə sallanmışdım. Səhərə yaxın Əmirxan bacaya çıxıb məni çağırdı. Anam dalımca su atdı. Hələ qaranlıq idi. Bərk külək əsirdi. Dekabrın 21-i olmasına baxmayaraq Göyçə düzündə, güneylərdədə qar görünmürdü. Quru soyuq adamı kəsirdi. Mən üşümürdüm, onların üşüdüyünü hiss edirdim. İşıqlaşanda Ağyoxuşda Salman kişinin evinə döndük. Gülavatın xala təndiri odladı qızındıq. Qonşuları Muxtar kişidə gəlib çıxdı. Soruşdu ki, ay Şəban hara belə? Uğur olsun. Şəban kişi Oğurcaqdan aşıb Arana gedəcəyini danışdı. Muxtar kişi, Şəbana bərk hirslənib dedi: bu gün çillə girir. Ulaqla Oğurcaqdan aşmaq olarmı. Bəlkə o üz qar-borandı. Xalxın uşağını aparıb borana salarsan. Getmək istəyirsən get Topaşandan aş (Krasnı rayonu).


Белә дә разылашдылар.
Биз орадан һәр јердә ҝүнеј кәндләрлә
ахшам чағы Шишгајада Әмирханын
бачысы Тојузкилә чатыб, ҝечәдә орада галдыг
Әмирханын хаһиши илә бачысы сәһәр
тездән дуруб хәнкәл биширди. Нә гәдәр
ҹәһд етсәләрдә хејли ләнкидик
Шәбан киши дејирди: Әмирханын
хәнкәли, башымыза әнҝәл ачды.
Шәбанын боз ешшәјинә бир ағыр тер
ашырмышдылар. Һәр ҝөзүндә бир гарын
јағ вә хејлидә гуруд вар иди. Мәним
шәләм белимдә иди. Јемәк лазым олан-
да мән верирдимки, шәләм јүнҝүлләшсин.
Шишгајадан Сары нәр дејилән дәрә јохуша
галхырдыг. Гар јох иди, тәрләјә-тәрләјә
аддымлајырдыг. Еләки јалын башына
чатдыг, ҝөзүмүзә инанасы олмадыг.
Бу тәрәфдә бир гар боран вардыки ҝөз-
ҝөзү ҝөрмүрдү. Хејли варҝәл етдиләр
гајыдаг јохса ҝедәк. Күләк бизи ирәли
итәләјирди. Гары јара-јара үз ашағы
дәријә енирдик. Ҝаһ улаг јыхылыр,

Belə də razılaşdılar. Biz oradan hər yerdə güney kəndlərlə axşam çağı Şişqayaya Əmirxanın bacısı Toyuzgilə çatıb, gecədə orada qaldıq. Əmirxanın xahişi ilə bacısı səhər tezdən durub xəngəl bişirdi. Nə qədər cəhd etsələrdə xeyliləngidik. Şəban kişi deyirdi: Əmirxanın xəngəli başımıza əngəl açdı. Şəbanın boz eşşəyinə bir ağır ter aşırmışdılar. Hər gözündə bir qarın yağ və xeylidə qurud var idi. Mənim şələm belimdə idi. Yemək lazım olanda mən verirdim ki, şələm yüngülləşsin. Şişqayadan Sarı nər deyilən dərə yoxuşa qalxırdıq. Qar yox idi, tərləyə-tərləyə addımlayırdıq. Eləki yalın başına çatdıq, gözümüzə inanası olmadıq. Bu tərəfdə bir qar-boran var idi ki, göz-gözü görmürdü. Xeyli vargəl etdilər qayıdaq yoxsa gedək. Külək bizi irəli itələyirdi. Qarı yara-yara üz aşağı dəriyə enirdik. Gah ulaq yıxılır,


гаһда биз јыхылырдыг. Чох чәтинликлә
дәријә ендик. Бурада гар чох олсада
күләк јох иди. Дәрә јенишә кедирдик.
О гәдәр јыхылыб дурмушдуг ки, шахта
баба кими дүм ағ көрүнүрдүк.
Гаранлыг дүшәндә Чајгарышана чатдыг.
Дедиләр бура гәдәр дүз кәлмишик. Бурдан
сонра дүз кедә билсәк јахшы олачаг.
Кечә олмасына бахмајараг ајдынлыг иди.
Бир из кедирди. Ја чанавар јада түлкү изи иди.
Мәнә дедиләр сән көрүрсән елә бу излә
кет көрәк бир јана чыха билирикми.
Әввәлчә кетдикҹә гыј вурурдуг. Шәбан
дејирдики бурада Бозмолла вә Бурҹал-
лар гышлағы вар. Бәлкә онлар һај верә.
Сонра дедиләр даһа сәссиз кетмәк ла-
зымдыр. Сәсимизә мешәдән ајы кәләр.
Тәгрибән кечә јарыдан кечәндә мән ит
сәси ешидиб јолдашларыма мушдулуг-
лајырмыш кими хәбәр вердим. Шәбан
киши деди ит олмаз бала кет көрәк.
Астадан Әмирхана деди ки, халхын
ушағыны ајыја једирәҹәјик.

gah da biz yıxılırdıq. Çox çətinliklə dəriyə endik. Burada qar çox olsada külək yox idi. Dərə yenişə gedirdik. O qədər yıxılıb durmuşduq ki, şaxta baba kimi düm ağ görünürdük. Qaranlıq düşəndə Çayqarışana çatdıq. Dedilər bura qədər düz gəlmişik. Burdan sonra düz gedə bilsək yaxşı olacaq. Gecə olmasına baxmayaraq aydınlıq idi. Bir iz gedirdi. Ya canavar ya da tülkü izi idi. Mənə dedilər sən görürsən elə bu izlə get görək bir yana çıxa bilirikmi. Əvvəlcə getdikcə qıy vururduq. Şəban deyirdi ki, burada Bozmolla və Burcallar qışlağı var. Bəlkə onlar hay verə. Sonra dedilər daha səssiz getmək lazımdır. Səsimizə meşədən ayı gələr. Təqribən gecə yarıdan keçəndə mən it səsi eşidib yoldaşlarımı muşduluqlayırmış kimi xəbər verdim. Şəban kişi dedi it olmaz bala get görək. Astadan Əmirxana dedi ki, xalxın uşağını ayıya yedirəcəyik.


Бу сөзү мән ешитдим. Амма нә исә
горхмурдум. Бирдә сәс кәләндә гыј вурдум
Итин сәси јахында кәлирди. Бунлар да
гыј вурмаға башладылар. Нәһајәт бир сәс
ешидилди. Биз сәсә доғру јухары галхыб,
бир дама дахил олдуг. Бир тәрәфдә бир
аилә јерләшмишди бир тәрәфдәдә кечиләр
вә икидә улаг вар иди. Ортада ахшамдан-
јанмыш очағын азаҹыг көзү ишылдајырды
Очағы тәзәләдик. Әмирханын бачысы
јајлығын арасында гојдуғу картофу
биширмәк истәдик. Амма ону сојуг
алмышды. Үстүмүзү гурудуб очағын
гырағында мүркүләмәк истијирдик ки,
ев саһиби һәрәмиздән 10 манат алды.
Сәһәр јолу давам етдирдик. Сөјүдлү
кәндинә чатанда ахшам дүшүрдү.
Мән улағын јанында дурдум. Онлар
гонаг јери ахтарырдылар. Гаранлыг дү-
шәнә кими гапы-гапы кәздиләр лакин
јер верән олмады. Аббас адлы бир киши
чох чәтинликлә бизи гонаг еләди.
Јахшы раһат олдуг. Јорған дөшәкдә

Bu sözü mən eşitdim. Amma nə isə qorxmurdum. Birdə səs gələndə qıy vurdum itin səsi yaxında gəlirdi. Bunlar da qıy vurmağa başladılar. Nəhayət bir səs eşidildi. Biz səsə doğru yuxarı qalxıb, bir dama daxil olduq. Bir tərəfdə bir ailə yerləşmişdi, bir tərəfdədə keçilər və iki də ulaq var idi . Ortada axşamdan yanmış ocağın azacıq közü işıldayırdı. Ocağı təzələdik. Əmirxanın bacısı yaylığın arasında qoyduğu kartofu bişirmək istədik. Amma onu soyuq almışdı. Üstümüzü qurudub ocağın qırağında mürgüləmək istiyirdik ki, ev sahibi hərəmizdən 10 manat aldı. Səhər yolu davam etdirdik. Söyüdlü kəndinə çatanda axşam düşürdü. Mən ulağın yanında durdum. Onlar qonaq yeri axtarırdılar. Qaranlıq düşənə kimi qapı-qapı gəzdilər, lakin yer verən olmadı. Abbas adlı bir kişi çox çətinliklə bizi qonaq elədi. Yaxşı rahat olduq. Yorğan döşəkdə


архајын јатдыг.
Сәһәр јолу давам етдириб Сејфәлидә ахшам-
ламалы олдуг. Сөјүдлүләрин атасына
мин рәһмәт. Бунлар һеч јахын гој-
мурдулар. Бир ачыг балкона төкүлдүк.
Ев саһиби чығыр-бағыр салдыки, сизә
дедим јер јохдур. Мән гадын хејлағы гонаг
сахлыјан дејиләм. Шабан киши деди: елә
бу ачыг балконда галачағыг. Сән гапыны
архадан бағла архајын јат.
Бу Нигар адлы бир көјчәк кәлин иди.
Ики балача ушағы вар иди.
Кечә бизи ичәри чағырды. Исти печин јанын-
да чөрәк јејиб динҹәлдик. Онун дамында
бир арвад (ады Бәсди иди) ики дә балача
оғлан ушағы вар иди. Дејирдиләр ки биз-
дә Сарыјагубданыг.
Кечә мән отагда, дәмир кароватда
Шабанла Әмирханда дамда јатдылар
Нијарын јолдашы Селмагда ишлијәр-
миш. Орадандa әскәр кетмишди.
Јахшы еви вә варлы ев әшјалары
вар иди.

arxayın yatdıq. Səhər yolu davam etdirib Seyfəlidə axşamlamalı olduq. Söyüdlülərin atasına min rəhmət. Bunlar heç yaxın qoymurdular. Bir açıq balkona töküldük. Ev sahibi çığır-bağır saldıki, sizə dedim yer yoxdur. Mən qadın xeylağı qonaq saxlıyan deyiləm. Şəban kişi dedi: elə bu açıq balkonda qalacağıq. Sən qapını arxadan bağla arxayın yat. Bu Nigar adlı bir göyçək gəlin idi. İki balaca uşağı var idi. Gecə bizi içəri çağırdı. İsti peçin yanında çörək yeyib dincəldik. Onun damında bir arvad (adı Bəsdi idi) iki də balaca oğlan uşağı var idi. Deyirdilər ki, biz də Sarıyaqubdanıq. Gecə mən otaqda, dəmir kravatda Şabanla əmirxanda damda yatdılar. Niyarın yoldaşı Selmaqda işliyərmiş. Oradanda əskər getmişdi. Yaxşı evi və varlı ev əşyaları var idi.


Гонаг сахлајанларын һамысыны мәзәм-
мәт етмәк дүзкүн олмазды. Бәзи нанәҹибләр
кеҹә гонаг галдығы евин гијмәтли әшја-
ларыны көтүрүб арадан чыхырдылар.
Одур ки, танымадығын адамы гонаг сах-
ламаг мүмкүн дејилди.
Бир күндә Сәркарда галдыгдан сонра
алтынҹы күн кәлиб атам олдуғу
кәндә Әһмәдбәјлијә чатдым.
Балаҹа Фирудунун вәфаты атамы
Сәфијјәни вә ушаг олсада Гәнбәри чох
кәдәрләндирирди.
Атама чох бөјүк һөрмәт едирдиләр. Демәк
оларки, јерли ҹамаатдан биз јахшы дола-
нырдыг. Мән Гәнбәрлә 3-4 күндән бир
кедиб бир улаг јүкү чырпы вә одун
кәтирирдик. Фәтир јејирдик. Аранчылар-
данда јахшы аҹыдмалы буғда чөрәјини
тәндирә бишрирдик. Балаханым адлы
бир кәлинин евиндә олурдуг. Онунда
ики ушағы вар иди. Оғлунун ады
Әждәр, гызынын ады Үлкәр иди.
Јеримиз исти истираһәтимиз јахшы
иди.

Qonaq saxlayanların hamısını məzəmmət etmək düzgün olmazdı. Bəzi nanəciblər gecə qonaq qaldığı evin qiymətli əşyalarını götürüb aradan çıxırdılar. Odur ki, tanımadığın adamı qonaq saxlamaq mümkün deyildi.

Bir gündə Sərkarda qaldıqdan sonra altıncı gün gəlib atam olduğu kəndə Əhmədbəyliyə çatdım.

Balaca Firidunun vəfatı atamı, Səfiyyəni və uşaq olsada Qənbəri çox kədərləndirirdi.

Atama çox böyük hörmət edirdilər. Demək olar ki, yerli camaatdan biz yaxşı dolanırdıq. Mən Qənbərlə 3-4 gündən bir gedib bir ulaq yükü çırpı və odun gətirirdik. Fətir yemirdik. Arançılardanda yaxşı acıdmalı buğda çörəyini təndirə bişirirdik. Balaxanım adlı bir gəlinin evində olurduq. Onun da iki uşağı var idi. Oğlunun adı Əjdər, qızının adı Ülkər idi. Yerimiz isti, istirahətimiz yaxşı idi.


Бизим кәндли Гасымов Мәдәд Абасбәјлидә
олурду. Бир күн кәлди ки, әлимә бир шеј
кәлмир. Ушаглар ацды. Атам чәкиб она
6 пут тахыл верди. Мәдәд киши Көјчәдә
Иман Аббасовкилдә тахыл гојуб кедибмиш.
Һәмин тахылы чәкиб Көјчәдә бизә верди.
Мән ара бир кедиб Сәнәм бацымкилә баш чәкир
кечәдә галыб кәлдән кедән данышырдым.
1945-ҹи илә кечмишди. Адамларда бөјүк
дәјишиклик баш вермишди. Инди онлар
шән көрүнүрдү. Гызыл Орду фашист-
ләри сәрһәдләримиздән говмуш, артыг
Авропа өлкәләрини азад етмәк уғрун-
да дөјүшүрдү.
Мартын сонунда Сәфијјәни дә көтүрүб
кәлдим Көјчүјә. Һамы сөјүнүрдү
Гызыл Орду Берлинә јахынлашмышды.
Гапы јеримизи әкдик вә сәпдик.
Мән колхозда әкин, сәпин ишиндә
ишләјирдим.
Мүһарибә гуртарды.
Мајын 9-да кәндин үст тәрәфиндә
шум дырмыглајырдыг.

Bizim kəndli Qasımov Mədəd Abbasbəylidə olurdu. Bir gün gəldi ki, əlimə bir şey gəlmir. Uşaqlar acdı. Atam çəkib ona 6 put taxıl verdi. Mədəd kişi Göyçədə İman Abbasovgildə taxıl qoyub gedibmiş. Həmin taxılı çəkib Göyçədə bizə verdi. Mən ara bir gedib Sənəm bacımgilə baş çəkir, gecə də qalıb gəldən-getdən danışırdım. 1945-ci ilə keçmişdi. Adamlarda böyük dəyişiklik baş vermişdi. İndi onlar şən görünürdü. Qızıl ordu faşistləri sərhədlərimizdən qovmuş, artıq Avropa ölkələrini azad etmək uğurunda döyüşürdü.

Martın sonunda Səfiyyəni də götürüb gəldim Göyçüyə. Hamı söyünürdü Qızıl Ordu Berlinə yaxınlaşmışdı. Qapı yerimizi əkdik və səpdik. Mən kolxozda əkin, səpin işində işləyirdim.

### *Müharibə qurtardı*

Mayın 9-da kəndin üst tərəfində şum dırmıqlayırdıq.


Гарагојундан атлыларын о јан бу јана чапдыгларыны көрдүк. Бир аздан кәнддән адамларын мүхтәлиф сәмдә гачдыгларынында көрүрдүк. Онлар муштулуг алмаг үчүн гачырлармыш. Атлынын бири биз сәмдә кәлиб чығырды ки мүһарибә гуртарды. Гәләбә, гәләбә дејиб атыны башга сәмтә јөнәлтди. Кәнддән бир дәстә ушаг ајаг јалын бир баша јанымыза кәлиб тәнкә нәфәс чығырдыларки мүһарибә гуртарды!
Биз шумда атылыб дүшәрәк гәләбә-гәләбә дејә чығырышдыг. Бири биримизин белинә сычрајырдыг.
Күн орта олмасына бахмајараг өкүзләри ачыб кәндә говдуг. Кәнддә һамынын үзү күлүрдү, бир-биринә көз ајдынлығы верирдиләр.
Әмирләрә топлашдыг. Чалал зурна чалыр, Хачы дәм тутур Шаһмалы Әлијевдә нағара чалырды. О күн ахшама, ахшамданда кечә јарысына

Qaraqoyundan atlıların o yan bu yana çapdıqlarını gördük. Bir azdan kənddən adamların müxtəlif səmdə qaçdıqlarını da görürdük. Onlar muştuluq almaq üçün qaçırlarmış. Atlının biri biz səmdə gəlib çığırdı ki, müharibə qurtardı. Qələbə, qələbə deyib atını başqa səmtə yönəltdi. Kənddən bir dəstə uşaq ayaq yalın bir başa yanımıza gəlib təngə nəfəs çığırdılarki müharibə qurtardı! Biz şumda atılıb düşərək qələbə, qələbə deyə çığırışdıq. Biri birimizin belinə sıçrayırdıq. Günorta olmasına baxmayaraq öküzləri açıb kəndə qovduq. Kənddə hamının üzü gülürdü, bir-birinə göz aydınlığı verirdilər. Əmirlərə toplaşdıq. Calal zurna çalır, Xacı dəm tutur, Şahmalı Əliyev də nağara çalırdı. O gün axşama, axşamdanda gecə yarısına


чалыб ојнадыг. Гоҹа кишиләр, гары-
лар ортадан чыхмаг билмирдиләр.
Аҹлыг һамынын јадындан чыхмышды.
Сәһәриси күн һәрә бир јахшы бишмиш
көтүрүб чөлә кәлмишди. Өкүзләри
биҹәнәјә бурахмышдыг ки гој бунларда
бајрам еләсин. Бәзи кәндләрдә
колхозун өкүзүнү чөлдә кәсиб кеф
тәшкил етмишдиләр
Шаир Бәһман һәмин күн мүнасибәтилә демишди
Сталин өлкәни етди сәфәрбәр
Жуковла Конијев ејләди һүнәр
Гәһрәман дөјүшчү о гызыл әскәр
Фашизмин көкүнү кәсән күнүдүр.

çalıb oynadıq. Qoca kişilər, qarılar ortadan çıxmaq bilmirdilər. Aclıq hamının yadından çıxmışdı. Səhərisi gün hərə bir yaxşı bişmiş götürüb çölə gəlmişdi. Öküzləri biçənəyə buraxmışdıq ki, qoy bunlarda bayram eləsin. Bəzi kəndlərdə kolxozun öküzünü çöldə kəsib kef təşkil etmişdilər.

Şair Bəhman həmin gün münasibətilə demişdi:

Stalin ölkəni etdi səfərbər,
Jukovla Koniyev eylədi hünər.
Qəhrəman döyüşçü o qızıl əsgər,
Faşizmin kökünü kəsən günüdür.



Динҹ гуруҹулуг илләри.
Тәһсили давам етдирирәм.
1945-ҹи илин сентјабры јахынлашырды.
Мән охумаг һаггында дүшүнмәсәмдә атам
гәһрләнир, һарада олур олсун мәни охут-
мағa ҹан атырды. Зодда орта мәктәб
олсада IX-X синиф јох иди. Мүһарибә илә
әлагәдар олараг јухары синифләрдә ушаг
јох иди. 1945-ҹи илдә VIII синиф ачылмыш-
ды. Атам бир ҝүндә пијада Дашкәндә
орададанда Бөјүк Мәзријә ҝәлиб орада
X синиф олдуғуну өјрәнмишди.
1945-ҹи илин сентјабрында Асланов Сәфә-
әр Ҹәфәр (Бәјләр) оғлу, Вәлијев Әләсҝәр Мәһәм-
мәд оғлу вә мән Бөјүк Мәзрәнин орта
мәктәбинин X синифинә ҝетдик. Ил боју
ҝедиб ҝәлирдик. Гышын човғунлу ҝүнләрин-
дә белә дәрсдән галмырдыг. Мәзрәлиләр
бизим бу ҹүр инадымыза чох тәәҹҹүб-
ләнирдиләр. Ахы белә боранлы ҝүнләрдә
ҝетмәсәкдә оларды.
Мәктәбин директору Һаҹыјев Маһмуд
Гәһрәман оғлу иди. (Јенә дә о директор
ишләјир 1983 - август)

## *Dinc quruculuq illəri*

Təhsili davam etdirirəm.

1945-ci ilin sentyabrı yaxınlaşırdı. Mən oxumaq haqqında düşünməsəm də atam qəhrlənir, harada olur olsun mənim oxutmağa can atırdı. Zodda orta məktəb olsa da IX-X sinif yox idi. Müharibə ilə əlaqədar olaraq yuxarı siniflərdə uşaq yox idi. 1945-ci ildə VIII sinif açılmışdı. Atam bir gündə piyada Daşkəndə oradan da Böyük Məzriyə gəlib orada X sinif olduğunu öyrənmişdi. 1945-ci ilin sentyabrında Aslanov Səfər Cəfər (Bəylər) oğlu, Vəliyev Ələsgər Məhəmməd oğlu və mən Böyük Məzrənin orta məktəbinin X sinifinə getdik. İl boyu gedib gəlirdik. Qışın çovğunlu günlərində belə dərsdən qalmırdıq. Məzrəlilər bizim bu cür inadımıza çox təəccüblənirdilər. Axı belə boranlı günlərdə getməsəkdə olardı. Məktəbin direktoru Hacıyev Mahmud Qəhrəman oğlu idi (yenə də o direktor işləyir 1983 - avqust).


О чох ишҝүзар, аз тамаһлы вә дүзҝүн
адам иди. 1946-чы илин мај ијун
ајларында имтаһанлар башлады
Имтаһанлары вердик. Имтаһан комис-
јонунун сәдри Әлијев Мәдәд Ағамалы
оғлу иди. (О Зод орта мәктәбинин ди-
ректору иди) О вахты савадлы гадролар
чатышмадығына ҝөрә X синфи битирәни
бир баша мүәллим тәјин едирдиләр.
Сентјабрда аттестат алмаға ҝетдик.
Билдирдиләр ки ҝуја мән вә Әләсҝәр
кәсилибләр. Әлбәттә бу Әлијев Мәдәдин
тамаһкарлығы үзүндән олмушду.
Нә етмәк оларды. Мән 1946-чы илин сен-
јабрында дүбарә Бөјүк Мәзрәјә X синфә
ҝетмәли олдум. Сәфәр гуртармышды вә
Нәриманлыда мүәллим ишләјирди. Әлә-
кәр исә Зод орта мәктәбиндә охумалы
олду. Мән тәк олдуғум үчүн гыш-
ајларыны Мәзрәдә Тојузҝилдә галдым.
Тојуз Мәзрәдә Әһмәд мүәллимә әрә ҝетмиш-
ди. Әһмәд вә Мәһәммәд Гулијев гардаш-
лары әсҝәр ҝедиб һәлә гајытмамышды.

O çox işgüzar, az tamahlı və düzgün adam idi. 1946-cı ilin may-iyun aylarında imtahanlar başladı. İmtahanları verdik. İmtahan komisiyonunun sədri Əliyev Mədəd Ağamalı oğlu idi (o Zod orta məktəbinin direktoru idi). O vaxtı savadlı qadrolar çatışmadığına görə X sinfi bitirəni birbaşa müəllim təyin edirdilər. Sentyabrda attestat almağa getdik. Bildirdilər ki, guya mən və Ələsgər kəsiliblər. Əlbətdə bu Əliyev Mədədin tamahkarlığı üzündən olmuşdu. Nə etmək olardı. Mən 1946-cı ilin sentyabrında dübarə Böyük Məzrəyə X sinfə getməli oldum. Səfər qurtarmışdı və Nərimanlıda müəllim işləyirdi. Ələsgər isə Zod orta məktəbində oxumalı oldu. Mən tək olduğum üçün qış aylarını Məzrədə Toyuzgildə qaldım. Toyuz Məzrədə Əhməd müəllimə ərə getmişdi. Əhməd və Məhəmməd Quliyev qardaşları əsgər gedib hələ qayıtmamışdı.


Евдә Тојуз елтиси Мүшкүнат вә онун
ики оғлу Абузәр вә Фәрман иди.
Мән һәфтәдә бир дәфә кәндә кәлир кедәндә
бир аз шордан гурутдан апарырдым.
Тојузкилин сағылан јох иди. Колхозлары
варлы иди чөрәкдән корлуг чәкмирдиләр.
Арпа уну олсада елә јахшы чөрәји олур-
дуки, адамын хошуна кәлирди. Күнорта
вә ахшам тәндирә салыб гыздырар, күр-
сүнүн үстүндә јуван олсада ширин-
ширин јејәрдик. Тојуз вә Мүшкүнат мәнә
ана, бачыдан артыг һөрмәт едирдиләр.
Кефим көк иди. Тарих-әдәбијјат дәрслә-
рини чох марагла өјрәниб вә бәзәкли
конспектләр тутурдум. Буда тарих
мүәллимимиз Ибраһим Әсәдовун вә әдәбијјат-
мүәллимимиз Џаһанкирин чох хошуна
кәлир мәним ишләрими ушаглара
нүмунә кими көстәрирдиләр. Бала-бала
шеирдә јазырдым. Мүәллим вә шакирд-
ләр мәним шеирләримлә марагланыр-
дылар. О вахт автоучканын адында
ешитмәмишдик. Чирнел, перо, ручка

Evdə Toyuz, eltisi Müşkünat və onun iki oğlu Abuzər və Fərman idi. Mən həftədə bir dəfə kəndə gəlir gedəndə bir az şordan, qurutdan aparırdım. Toyuzgilin sağılanı yox idi. Kolxozları varlı idi, çörəkdən korluq çəkmirdilər. Arpa unu olsa da elə yaxşı çörəyi olurdu ki, adamın xosuna gəlirdi. Günorta və axşam təndirə salıb qızdırar, kürsünün üstündə yuvan olsada şirin-şirin yeyərdik. Toyuz və Müşkünat mənə ana, bacıdan artıq hörmət edirdilər. Kefim kök idi. Tarix-ədəbiyyat dərslərini çox maraqla öyrənib və bəzəkli konspektlər tuturdum. Buda tarix müəllimimiz İbrahim Əsədovun və ədəbiyyat müəllimimiz Cahangirin çox xoşuna gəlir, mənim işlərimi uşaqlara nümunə kimi göstərirdilər. Bala-bala şeirdə yazırdım. Müəllim və şagirdlər mənim şeirlərimlə maraqlanırdılar. O vaxt avtoruçkanın adını da eşitməmişdik. Çirnel, pero, ruçka,


дәфтәр вә дәрсликләр чох аз тапылырды.
Чирнели гара чырағын гурумундан һазыр-
лајыр чох гәнаәтлә ишләдирдик.
X синфин ССРИ тарихи олмадығындан
партија тарихиндән һазырлашырдыг.
Ешитдик ки, Кәлбәҹәрдә ССРИ тарихи
вар 1945-ҹи илин Нојабр ајында Сәфәрлә
кедиб Кәлбәҹәрдән 14 ССРИ тарихи алыб
ахшама гајытдыг кәндә. Әлбәтдә пијада
Мәзрәдә Тојузкилин гоншусунда бир гыз
севирдим ады Мајсара иди. Тојуз дејирди
бу гызы сәнә алаҹам. Дејәсән гыза демиш-
ди о мәни көрәндә чох утаныр вә јығыш-
рылырды. Һәгиги мәнада чох көзәл вә гочаг
гыз иди. Инди аиләлиди Кировабадда ја-
шајыр. Мән мәктәби гуртардым
мүәллим ишләдим. Евләнмәк сорағына
дүшән заман ешитдимки, ону апарыб-
лар. Кубуш бурада стартда дур-
мушду. Гырсаггыз олуб јапышды
боғазымдан. Инди дә гопармаг
гејри мүмкүндү.

dəftər və dərsliklər çox az tapılırdı. Çirneli qara çırağın qurumundan hazırlayır çox qənaətlə işlədirdik.
X sinfin SSRİ tarixi olmadığından partiya tarixindən hazırlaşırdıq. Eşitdik ki, Kəlbəcərdə SSRİ tarixi var. 1945-ci ilin noyabr ayında Səfərlə gedib Kəlbəcərdən 14 SSRİ tarixi alıb axşama qayıtdıq kəndə. Əlbətdə piyada Məzrədə Toyuzgilin qonşusunda bir qız sevirdim adı Maysara idi. Toyuz deyirdi bu qızı sənə alacam. Deyəsən qıza demişdi, o məni görəndə çox utanır və yığşırılırdı. Həqiqi mənada çox gözəl və qoçaq qız idi. İndi ailəlidi, Kirovobadda yaşayır. Mən məktəbi qurtardım, müəllim işlədim. Evlənmək sorağına düşən zaman eşitdimki, onu aparıblar. Kubuş burada startda durmuşdu. Qırsaqqız olub yapışdı boğazımdan. İndi də qoparmaq qeyri mümkündü.


Ишә башладым, аилә гурдум.
1947-ҹи илин сентјабриндә Бала Гарагојун кәнд ибтидаи мәктәбинә тәјинат алдым.
Атам чалышырды ки, өз кәндимизә дүзәлтсин. Лакин Надиров Гараҹа Әли оғлу һәмин кәндә мәктәб мудири тәјин олдуғундан Маариф шө'бә мудири Әскәр Мамедовдан хаһиш едиб мәним тәјинатымыда Бала Гарагојуна алмышды.
Һәр күн кедиб кәлирдик. Ҹәми үч нәфәр мүәллим идик. Бири дә Сарјагублу Јагуб иди. 60-70 шакирд вар иди. Мәктәб бинасы олмадығындан хүсуси евдә дәрс кечмәли олурдуг. Шакирдләр чох аз кәлирди. Дөрд синиф бир отагда мәшғул олурду. Ушаглары һәр күн чағырыб күҹлә топлајырдыг. Ушаг олсаларда мүәјјән ишләрдә ата-аналарына көмәклик едирдиләр. Мүһарибә гуртармыш олсада онун аҹы нәтиҹәләри һәлә һисс олунурду.

## *İşə başladım, ailə qurdum*

1947-ci ilin sentyabrında Bala Qaraqoyun kənd ibtidai məkəbinə təyinat aldım. Atam çalışırdı ki, öz kəndimizə düzəltsin. Lakin Nadirov Qaraca Əli oğlu həmin kəndə məktəb müdiri təyin olduğundan, Maarif şöbə müdiri Əsgər Mamedovdan xahiş edib mənim təyinatımı da Bala Qaraqoyuna almışdı. Hər gün gedib gəlirdik. Cəmi üç nəfər müəllim idik. Biri də Saryaqublu Yaqub idi. 60-70 şagird var idi. Məktəb binası olmadığından xüsusi evdə dərs keçməli olurduq. Şagirdlər çox az gəlirdi. Dörd sinif bir otaqda məşğul olurdu. Uşaqları hər gün çağırıb güclə toplayırdıq. Uşaq olsalarda müəyyən işlərdə ata-analarına köməklik edirdilər. Müharibə qurtarmış olsa da onun acı nəticələri hələ hiss olunurdu.


Ушагларын бир һиссәси палтары олмадығына ҝөрә ҝәлә билмирди. Ајағы чарыглы ушаға аз-аз тәсадүф етмәк оларды. Әксәријјәтинин ајаглары јалын иди. Мүәллимләрдә чарыг ҝејинирди. Мәнә језнә Иса әҹәми ([illegible]) чарыг тикмишди бир мүддәт ону ҝејдим. Сонра боғазды чәкмә тикдирдим.
Мүһарибә илләри тәдбиг едилмиш талон һәләлик гүввәдә иди. Мүһарибә әлилләринә, мүһарибәдә һәлак оланларын аиләләринә мүәллимләр талонла ајда 16-30 кг буғда бәзи ширнијјат шејләри верирдиләр.
Лакин өлкәнин вәзијјәти ҝет-ҝедә јахшылашырды. Әсҝәри јашы өтмүш минләрлә адамлары, әнчох исә мүтәхәссисләри ордудан тәрхис едирдиләр. Онларын күтләви сурәтдә бурахылмасы халг тәсәррүфатынын тәдриҹән инкишаф етмәсинә сәбәб олду.
1947-ҹи илин сонунда талон ләғв олунду. Кәндләрдә шәнликләр бир-биринә ҹаланмышды. Ҝүләнләр, ојнујанлар

Uşaqların bir hissəsi paltarı olmadığına görə gələ bilmirdi. Ayağı çarıqlı uşağa az-az təsadüf etmək olardı. Əksəriyyətinin ayaqları yalın idi. Müəllimlərdə çarıq geyinirdi. Mənə yeznə İsə əcəmi çarıq tikmişdi. Bir müddət onu geydim. Sonra boğazdı çəkmə tikdirdim. Müharibə illəri tədbiq edilmiş talon hələlik qüvvədə idi. Müharibə əlillərinə, müharibədə həlak olanların ailələrinə müəllimlər talonla ayda 16-30 kq buğda bəzi şirniyyat şeyləri verirdilər. Lakin ölkənin vəziyyəti get-gedə yaxşılaşırdı. Əsgəri yaşı ötmüş minlərlə adamları, ən çox isə mütəxəssisləri ordudan tərxis edirdilər. Onların kütləvi surətdə buraxılması xalq təsərrüfatının tədricən inkişaf etməsinə səbəb oldu. 1947-ci ilin sonunda talon ləğv olundu. Kəndlərdə şənliklər bir-birinə calanmışdı. Gülənlər, oynuyanlar


шәнләнәнләрлә бирликдә, көзү јолларда
галыб, ата, оғул, гардаш интизары илә
ағлајанларда аз дејилди.
Бизим кәндән 104 нәфәр вәтән муһа-
рибәсинә кетмиш онлардан 67 нәфәри
гајытмамышды.
1947-ҹи илин пајызында мәним 18 јашым
вар иди. Евдә атам, анам Гәнбәр бир дә
мән идим. Дедиләр долана билмирик
Јусифи евләндирмәк лазымды. Мән тәрәд-
дүт етмәдән дәрһал разылыг вердим.
Һәр һалда вахтындан чох тез разы-
лыг вермәјим кобут сәфлик вә наданлыг
иди. Мән ҹаванлыг вә „султанлыг" деври-
ни лазымы гајдада гијмәтләндирә бил-
мәдим. Һәлә севиб севилмәк деври иди.
Баҹым Сәфијјә Гулијев Һәсәндә иди.
О ата-анама мәсләһәт көрүб тәриф-
ләјир ки, Әсәд әминин гызы Күбрәни
Јусифә алаг. О мәндән бөјүк олсада
бунлар разы олур. Дүзүну дејим ки,
мәндә разы олдум. Онлар мәни
мәҹбур етмәдиләр. Беләликлә аиләнин

şənlənənlərlə birlikdə, gözü yollarda qalıb, ata, oğul, qardaş intizarı ilə ağlayanlarda az deyildi.

Bizim kənddən 104 nəfər vətən müharibəsinə getmiş, onlardan 67 nəfəri qayıtmamışdı.

1947-ci ilin payızında mənim 18 yaşım var idi. Evdə anam, atam, Qənbər bir də mən idim. Dedilər dolana bilmirik. Yusifi evləndirmək lazımdı. Mən tərəddüd etmədən dərhal razılıq verdim. Hər halda vaxtından çox tez razılıq verməyim kobut səflik və nadanlıq idi. Mən cavanlıq və “sultanlıq” devrini lazımi qaydada qiymətləndirə bilmədim. Hələ sevib sevilmək devri idi. Bacım Səfiyyə Quliyev Həsəndə idi. O, ata-anama məsləhət görüb tərifləyir ki, Əsəd əminin qızı Kübrəni Yusifə alaq. O məndən böyük olsada bunlar razı olur. Düzünü deyim ki, məndə razı oldum. Onlar məni məcbur etmədilər. Beləliklə ailənin


тәмәл дашыны 1947 декабрында уҹалтдыг.
Гәһрләр, гаргашалар деври башланды.
Амма етираф етмәлијәмки, бөјүтдүјүм
алты ушағын бүтүн ағырлығыны,
гаргашасыны вә зәһмәтини атам-
анам чәкирдиләр. Мән ушағым кими
анҹаг Нуруну гуҹағыма алыб овун-
дурурдум. Мән ата-анамын јанында
ушағымы гуҹағыма алыб, бир дәфә дә
олса ојнатмамышам. Бу о демәк дејилки
мән даш гәлблијәм. Хејр мән ушаглары-
мын һамысыны да чох истијирдим вә јенә-
дә чох истәјирәм. Гумру илә Асими исә
даһа чох истәјирәм.

təməl daşını 1947 dekabrında ucaltdıq. Qəhrlər, qarqaşalar devri başlandı. Amma ehtiraf etməliyəm ki, böyütdüyüm altı uşağın bütün ağırlığını, qarğaşasını və zəhmətini atam-anam çəkirdilər. Mən uşağım kimi ancaq Nurunu qucağıma alıb ovundururdum. Mən ata-anamın yanında uşağımı qucağıma alıb, bir dəfə də olsa oynatmamışam. Bu o demək deyil ki, mən daş qəlbliyəm. Xeyr, mən uşaqlarımın hamısını da çox istiyirdim və yenə də istəyirəm. Qumru ilə Asimi isə daha çox istəyirəm.


Института дахил олдум.
Мән мүәллим тәјин олунмагла иши битмиш һесаб едирдим. Атам исә мәндән тәһсилими давам етдирмәји Али тәһсил алмагы тәләб едирди.
1948-ҹи илин мај ајында атам өјрәнди ки Јереван Дөвләт Педагожи институтуна гәбул вар. Онун тәкиди илә һәмин илин ијун ајында институтун Тарих факултәсинә гәбул олдум.
О вахты бир баша Јеревана кетмәк үчүн тәсадүфи һалларда нәглијјат олурду. Јеревана кетмәк үчүн Загалы кәндинә кедиб, параходла Севана орадан да Јеревана кетмәли олурдулар.
Мәним һәвәсим ән чох әдәбијјат факултәсинә иди. Ахы бала-бала шеирдә јазырдым. Амма елә олду ки, тарих факултәсинә имтаһан вериб гәбул олдум. Һәмин ил Шаһмалы Һачыјев вә Әлиф Намазовда тарих факултәсинә дахил олдулар. Башланғыч курсуну Јереванда охудуг вә бир нечә зачот вердик.

## *İnstituta daxil oldum*

Mən müəllim təyin olunmaqla işi bitmiş hesab edirdim. Atam isə məndən təhsilimi davam etdirməyi Ali təhsil almağı tələb edirdi. 1948-ci ilin may ayında atam öyrəndi ki Yerevan Dövlət Pedaqoji institutuna qəbul var. Onun təkidi ilə həmin ilin iyun ayında institutun Tarix fakültəsinə qəbul oldum. O vaxtı birbaşa Yerevana getmək üçün təsadüfi hallarda nəqliyyat olurdu. Yerevana getmət üçün Zağalı kəndinə gedib, paraxodla Sevana oradan da Yerevana getməli olurdular.

Mənim həvəsim ən çox ədəbiyyat fakültəsinə idi. Axı bala-bala şeir də yazırdım. Amma elə oldu ki, arix fakültəsinə imtahan verib qəbul oldum. Həmin il Şahmalı Hacıyev və Əlif Namazov da tarix fakültəsinə daxil oldular. Başlanğıc kursunu Yerevanda oxuduq və bir neçə zaçot verdik.


О вахт Ерменистанда јашајан
Азәрбајҹанлылар гәрар әсасында
Аз. ССР-нин ајры-ајры рајонларына
көчүрдүләр. Јереван шәһәриндән вә
әтраф рајонлардан көчәнләрин сајы
чох иди.
Одур ки, Јереван Дөвләт Педагожи
Институту Азәрбајҹан ССР-нә
көчүрдүләр. Биз 1949-ҹу илин јанвар
сессијасыны Бакыда кечирмәли
олдуг. Дилиҹан јолу илә маршурут
автобусу олмадығындан биз гәрар-
лашыб Кәлбәҹәр јолу илә кетмәли олдуг.
Гышын шахталы боранлы күнләриндә
өз комларымызын габағындан Кәлбә-
ҹәрә ашдыг. Сәһәри күнү машынла
анҹаг Нәдирханлы кәндинә кедә билдик.
Бу кеҹәдә Нәдирханлыда галыб, сәһәри
күнү пијада Гозлу көрпүсүнә гәдәр кетдик.
Орада кеҹәләјиб орадан да чох чәтин-
ликлә Мардакерд рајонунун бир кәндинә
самасвалд машынын гузасында
кетдик. Орадан Мардакертә јенә пијада

O vaxt Ermənistanda yaşayan Azərbaycanlılar qərar əsasında Az. SSSR-nin ayrı-ayrı rayonlarına köçürdülər. Yerevan şəhərindən və ətraf rayonlardan köçənlərin sayı çox idi. Odur ki, Yerevan Dövlət Pedaqoji İnstitutu Azərbaycan SSSR-yə köçürdülər. Biz 1949-cu ilin yanvar sessiyasını Bakıda keçirməli olduq. Dilican yolu ilə marşurut avtobusu olmadığından biz qərarlaşıb Kəlbəcər yolu ilə getməli olduq. Qışın şaxtalı boranlı günlərində öz komlarımızın qabağından Kəlbəcərə aşdıq. Səhəri günü maşınla ancaq Nədirxanlı kəndinə gedə bildik. Bu gecə də Nədirxanlıda qalıb, səhəri günü piyada Qozlu körpüsünə qədər getdik. Orada gecələyib oradan da çox çətinliklə Mardakerd rayonunun bir kəndinə samasvald maşının quzasında getdik. Oradan Mardakertə yenə piyada


кетмəли олдуг. О вахт Гозлу көрпусүн-
дə анҹаг бир тикили бина вар иди.
Машынын гузасында, гышын оғлан
чағында бу јоллары кетмəк бизи руһдан
салмырды.
Белə бир əһвалатда 1949-ҹу илин ијун
ајында олмушду. Бизə Бакыдан чағырыш
кəлди ки, сиз јај сессијанызы Шəки шəһə-
риндə кечирəҹəксиниз. Шəкијə кетмəк
лазым иди. Əлиф Намазов деди ки,
мəним баҹанағым Һаҹыјев Əмирхан
Сары јердəн дəвə илə кəлиб, кедəҹəк
Хачбулагдан көч кəтирəҹəк. Биз оту-
раг дəвəлəрин белиндə Хачбулаға, ора-
данда көч машыны илə Кирова-
бада ораданда Шəкијə кетмəли олдуг.
Низамланыб (һəр биримиз 3 кг əридил-
миш јағ, чохлу кутаблар вə с. шејлəр)
јола чыхдыг, амма нə Əмирхан
нə дə дəвə кəлмəди. Јола чыхдығымыза
көрə кери гајытмадыг. Јуклу пијада Ағ-
јохуш јолу илə аддымладыг. Амма
дəвəлəрдəн үмүдүмүзү кəсмəмишдик

getməli olduq. O vaxt Qozlu körpüsündə ancaq bir tikili bina var idi. Maşının quzasında, qışın oğlan çağında bu yolları getmək bizi ruhdan salmırdı.

Belə bir əhvalat da 1949-cu ilin iyun ayında olmuşdu. Bizə Bakıdan çağırış gəldi ki, siz yay sessiyanızı Şəki şəhərində keçirəcəksiniz. Şəkiyə getmək lazım idi. Əlif Namazov dedi ki, mənim bacanağım Hacıyev Əmirxan Sarı yerdən dəvə ilə gəlib, gedəcək Xaçbulaqdan köç gətirəcək. Biz oturaq dəvələrin belində Xaçbulağa, oradan da köç maşını ilə Kirovabada, oradan da Şəkiyə getməli olduq. Nizamlanıb (hər birimiz 3 kq əridilmiş yağ, çoxlu qutablar və s. şeylər)  yola çıxdıq, amma nə Əmirxan nə də dəvə gəlmədi. Yola çıxdığımıza görə geri qayıtmadıq. Yüklü piyada Ağyoxuş yolu ilə addımladıq. Amma dəvələrdən ümüdümüzü kəsməmişdik.


Кери баха-баха Хачбулага гәдәр
пијада кетмәли олдуг. Бу әзаб әзиј-
јәтләри она көрә јазырам ки, гој
муасир кәнҹләримиз (модабаз кәнҹләримиз)
билсинләр ки, јери кәләндә һәр ҹүр әзаб
әзијјәтләрә гатлашмаг лазымдыр.
Сонракы сессијалар Бакы шәһәриндә
кечирилди. Биз бир һазырлыг вә беш
курс кечдик. Сонра дөрд курс кечдиләр.
Сонракы илләрдә каһ Дилиҹан Ағстафа
маршуруту илә каһда Кәлбәҹәр Јевлах
јолу илә кедиб кәлирдик. Сессија ијул
ајынын 1-дә башлајыр август ајынын 25-26-
да гуртарырды. Дәрсләр чох интизам-
лы кечирилир, имтаһанлар објектив көтү-
рулурду. Һеч бир танышлыг, достлуг вә
башга вәсаит ишләмирди она көрә
ҹидди чалышмалы олурдуг. Һеч бир
дәрс вәсаити јох иди. Одур ки, күндә
сәккиз саат мүәллимләрин мүһази-
рәсини јазмалы олурдуг.
Мән 1949-ҹу илин сентјабриндә Нәри-
манлы мәктәбинә дәјиширилдим.

Geri baxa-baxa Xaçbulağa qədər piyada getməli olduq. Bu əzab-əziyyətləri ona görə yazıram ki, qoy müasir gənclərimiz (modabaz gənclərimiz) bilsinlər ki, yeri gələndə hər cür əzab-əziyyətlərə qatlaşmaq lazımdır. Sonrakı sessiyalar Bakı şəhərində keçirildi. Biz bir hazırlıq və beş kurs keçdik. Sonra dörd kurs keçdilər. Sonraki illərdə gah Dilican-Ağstafa marşurutu ilə, gah da Kəlbəcər-Yevlax yolu ilə gedib gəlirdik. Sessiya iyul ayının 1-də başlayır, avqust ayının 25-26-da qurtarırdı. Dərslər çox intizamlı keçirilir, imtahanlar obyektiv götürülürdü. Heç bir tanışlıq, dostluq və başqa vəsait işləmirdi, ona görə də ciddi çalışmalı olurduq. Heç bir dərs vəsaiti yox idi. Odur ki, gündə səkkiz saat müəllimlərin mühazirəsini yazmalı olurduq.

Mən 1949-cu ilin sentyabrında Nərimanlı məktəbinə dəyişirildim.


Елә һәмин илин пајызында Бала-
Гарагојун ҹамаатынын јарысы Зода
јарысыда Бөјүк Гарагојуна көчдүләр
Беләликлә Бала Гарагојун кәнди дағылды.
Август ајынын сонунда сессијадан гајы-
дан кими шакирдләри топлујуб сүнбүл
јығдырырдыг. Ушаг топлајыб сүнбүл јығ-
дырмаг ән чәтин иш иди.
Бу бир нечә илдә јајын даг һавасына
һәсрәт галмаг бу көзәл јајлаглары
кәзә билмәмәк бизи интизарда гојурду.
Ҹаванлыгда белә јерләри кәзмәк адама
ләззәт верирди. (Индидә имканымыз
вар амма ҹаванлыг јохдур)
Бакынын исти һавасы сыхдыгҹа дағын
сәрин һавасыны, јајлаглары, диш көјнәдән
булаглары һәсрәтлә јада салырдыг.
Ахы мән әввәлҹә дедим ки, аз-аз јазырам
Һәр ил јајда һәсрәтини
Чох чәкирәм билин дағлар
Аранын гәза-гәдәрни
Мән дејим сиз күлүн дағлар

Elə həmin ilin payızında Bala Qaraqoyun camaatının yarısı Zoda, yarısı da Böyük Qaraqoyuna köçdülər. Beləliklə Bala Qaraqoyun kəndi dağıldı. Avqust ayının sonunda sessiyadan qayıdan kimi şagirdləri topluyub sünbül yığdırırdıq. Uşaq toplayıb sünbül yığdırmaq ən çətin iş idi. Bu bir neçə ildə yayın dağ havasına həsrət qalmaq bu gözəl yaylaqları gəzə bilməmək bizi intizarda qoyurdu. Cavanlıqda belə yerləri gəzmək adama ləzzət verirdi (indidə imkanımız var amma cavanlıq yoxdur).

Bakının isti havası sıxdıqca dağın sərin havasını, yaylaqları, diş göynədən bulaqları həsrətlə yada salırdıq. Axı mən əvvəlcə dedim ki, az-az yazıram.

Hər il yayda həsrətini,
Çox çəkirəm bilin dağlar,
Aranın qəz-qədərni,
Mən deyim siz gülün dağlar.



Һәр август ајы ҝәләндә
Гајыдарам сизә мән дә
Ҝөрәрәм солуб синәндә
Сүсәнин сүнбүлүн дағлар.
Һәр ил ҝәзмәк арзуларам
Арзумдан кәнар галарам
Гуртарар мәскән саларам
Оларам бүлбүлүн дағлар. вә саирә.
Белә дә олду 1954-ҹү ил августун 14-дә
дөвләт имтаһаныны мүвәффәгијјәтлә
вердим. Сонракы јај мәзунијјәтләрими
дағлары ҝәзмәклә кечирдим.
50-ҹи илләрин әввәлиндә Ҝөјчә ҹамаатын-
нын игтисади вә мәдәни вәзијјәти хејли
јахшылашды. Даһа ушаглар ајағы
ҝејинҹәкли мүәллимләр костјумлу иди.
Амма һәлә ушаглар вә бөјүкләр ҝен
туман, кофта, зывыны (кәрик) вә
ағ ҹуна өртүрдүләр. Кишиләр
јекә папаг, сырыхлы пенҹәк, кал-
маны чарыг вә архалыг ҝејирдиләр.
Адәтән һамы ев дамында јаша-
јырды. Отағы оланда ев дамын-
да олур. Отағы бәзәкли сахлајырды.

Hər avqust ayı gələndə,
Qayıdaram sizə mən də,
Görərəm solub sinəndə,
Süsənin, sünbülün dağlar.

Hər il gəzmək arzularam,
Arzumdan kənar qalaram,
Qurtarır məskən salaram,
Olaram bülbülün dağlar  və s.

Belə də oldu 1954-cü avqustun 14-də dövlət imtahanını müvəffəqiyyətlə verdim. Sonrakı yay məzuniyyətlərimi dağları gəzməklə keçirdim.

50-ci illərin əvvəlində Göyçə camaatının iqtisadi və mədəni vəziyyəti xeyli yaxşılaşdı. Daha uşaqlar ayağı geyincəkli müəllimlər kostyumlu idi. Amma hələ uşaqlar və böyüklər gen tuman, kofta, zıvını (kərik) və ağ cuna örtürdülər. Kişilər yekə papaq, sırıxlı pencək, kalmanı çarıq və arxalıq geyirdilər.

Adətən hamı ev damında yaşayırdı. Otağı olan da ev damında olur. Otağı bəzəkli saxlayırdılar.



Инди (1983-ҹү ил) мән бу сәтрләри
јазаркән чох көтүр-ғој еләдим, 360
тәсәррүфата гәдәр олан бу Нәри-
манлы кәндиндә 3-4 аиләдән башга
бүтүн Нәриманлы дөшәмәли, ишыг-
лы вә јарашыглы биналарда јашајыр.
1952-ҹи илдә биздә 5х3,8 өлчүдә бир отаг тикиб
гонаг еви кими бачардығымыз кими
бәзәдик. Галан евләри 1958-ҹи илдә дикиб,
1959-ҹу илдән дөшәмә вуруб ичиндә јаша-
дыг.
Бакыда гыз-кәлинин бәр-бәзәјинә,
әнлик-киршанына бахыб тәәҹҹүблә-
нирдим. Һәтда һәјәтиндә олдуғумуз
гыз-кәлини сәһәр тездән бир фор-
мада бир аз кечмиш башга форма-
да көрүб танымаг олмурду.
Онлар додагларына гырмызы,
гаш-кирпикләринә гара, үзләринә
ағ киршанлар вурур, сачларыны
јумрулајыб башынын үстүндәдә
бир кичик баш дүзәлдирдиләр.
(Инди исә сачларыны кәсирләр)

İndi (1983-cü il) mən bu sətrləri yazarkən çox götür-qoy elədim, 360 təsərrüfata qədər olan bu Nərimanlı kəndində 3-4 ailədən başqa bütün Nərimanlı döşəməli, işıqlı və yaraşıqlı binalarda yaşayır. 1952-ci ildə bizdə 5x3.8 ölçüdə bir otaq tikib qonaq evi kimi bacardığımız kimi bəzədik. Qalan evləri 1958-ci ildə dikib, 1959-cu ildən döşəmə vurub içində yaşadıq.

Bakıda qız-gəlinin bər-bəzəyinə, ənlik-kirşanına baxıb təəccüblənirdim. Hətda həyətində olduğumuz qız-gəlini səhər tezdən bir formada bir az keçmiş başqa formada görüb tanımaq olmurdu. Onlar dodaqlarına qırmızı, qaş-kirpiklərinə qara, üzlərinə ağ kirşanlar vurur, saçlarını yumrulayıb başının üstündədə bir kiçik baş düzəldirdilər (indi isə saçlarını kəsirlər).


Ашағыдакы шеири дә елә она ҝөрә јазмышдым.

Истәјирәм шәһәр ҝөзәлләрини
Сәһәр јухусундан дурмамыш ҝөрүм
Тәбии ҝөркәмин һәсрәтиндәјәм
Әнлији киршаны вурмамыш ҝөрүм

Гашлары гүдрәтдән сүрмәләнмәмиш
Кирпикләр нештәрдәк ијнәләнмәмиш
Зүлфләри габаға дүјмәләнмәмиш
Кәлләсиндә кәллә бурмамыш ҝөрүм

Ҝүнәш вурар јағыш дөјәр јел әсәр
Сүни ҝөзәллик солар сәрасәр
Јусиф дејәр сөзүм будур мүхтәсәр
Әлики әндаза гурмамыш ҝөрүм.

Сон 10-15 илә кими мүәллимин ҝөзәл һөрмәти вар иди. Демәк олар ки мүәллимдән башга кәнддә мааш алан јох иди. Елә бир шәнлик мәҹлиси олмазды ки, мүәллим орада иштирак етмәсин.

Aşağıdakı şeiri də elə ona görə yazmışdım.

İstəyirəm şəhər gözəllərini,
Səhər yuxusundan durmamış görüm.
Təbii görkəmin həsrətindəyəm,
Ənliyi kirşanı vurmamış görüm.

Qaşları qüdrətdən sürmələnməmiş,
Kirpiklər neştərdək iynələnməmiş,
Zülfləri qabağa düymələnməmiş,
Kəlləsində kəllə burmamış görüm.

Günəş vurar yağış döyər yel əsər,
Süni gözəllik solar sərasər,
Yusif deyər sözüm budur müxtəsər,
Əlliki əndaza qurmamış görüm.

Son 10-15 ilə kimi müəllimin gözəl hörməti var idi. Demək olar ki, müəllimdən başqa kənddə maaş alan yox idi. Elə bir şənlik məclisi olmazdı ki, müəllim orada iştirak etməsin.


Билдијимиз кими спиртли ички-
ләр олмадан шәнлик мәҹлиси кечин-
мәз. Мән 18 јашындан кәндин бүтүн
мәҹлисләриндә демәк олар ки, иşти-
рак етмишәм. Бир дәфәдә олсун
сәрхош олмамышам. Һеч бир мәҹ-
лисдә ичкинин тә'сирилә ағзымдан
нәлајиг сөз чыхарыб, башгасынын
хатиринә дәјмәмишәм.
Мәни чох јердә һәддиндән артыг
ичмәјә вадар етсәләрдә һәддини
ашмамышам. Ахы һәддини ашан-
ларын нә вәзијјәтдә олдуғуну көзлә-
римлә көрмүш, онлара нифрәт етми-
шәм. Бу сәтирләри охујанлара да
төвсијә едирәм ки, инсан бәдәнини
зәдәләјән бу спиртли ичкидән кәнар
вәзијјәтдә галсынлар. Өзүнүзү сахлаја
билмәсәниз һәддини ашмајын әкси
тәгдирдә мән ашағыда јаздығым
кими олачагсыныз. Беләликлә дә
кәнд ичәрисиндә вә аиләнизин јанында
тамамилә һөрмәтдән дүшәҹксиниз.

Bildiyimiz kimi spirtli içkilər olmadan şənlik məclisi keçinməz. Mən 18 yaşından kəndin bütün məclislərində demək olar ki, iştirak etmişəm. Bir dəfə də olsun sərxoş olmamışam. Heç bir məclisdə içkinin təsirilə ağzımdan nəlayıq söz çıxarıb, başqasının xatirinə dəyməmişəm. Məni çox yerdə həddindən artıq içməyə vadar etsələr də həddini aşmamışam. Axı həddini aşanların nə vəziyyətdə olduğunu gözlərimlə görmüş, onlara nifrət etmişəm. Bu sətirləri oxuyanlara da tövsiyyə edirəm ki, insan bədənini bu spirtli içkidən kənar vəziyyətdə qalsınlar. Özünüzü saxlaya bilməsəniz həddini aşmayın, əksi təqdirdə mən aşağıda yazdığım kimi olacaqsınız. Beləliklə də kənd içərisində və ailənizin yanında tamamilə hörmətdən düşəcəksiniz.


Ичәндә.
Дунја мәнә ҹәннәт бағы корунур
Мәҹлисләрдә бала-бала ичәндә
Отурмарам јарымчығын јанында
Сарсағлајыр бир пијалә ичәндә.

Болду араг вурки кәлир хошума
Бир јарымы исти верир башыма
Тез тәсир ејләјир нијә гоншума
Мән кәлирәм тәзә һала ичәндә

Мәртләширәм әмликләри сојурам.
Сәхавәтдә Һатәми мат гојурам
Керчәјин үстүндән јалан гурурам
Тез дүшүрәм кәҹ хәјала ичәндә.

Ојнамагда мејданы тәк алырам
Чыхдесәләр бир вәлвәлә салырам
Ајыланда маты мәтәл галырам
Нијә дүшдүм галмагала ичәндә

## *İçəndə*

Dünya mənə cənnət bağı görünür,
Məclislərdə bala-bala içəndə.
Oturmaram yarımçığın yanında,
Sarsaqlayır bir piyalə içəndə.

Boldu araq vurki gəlir xoşuma,
Bir yarımı isti verir başıma,
Tez təsir eyləyir niyə qonşuma,
Mən gəlirəm təzə hala içəndə.

Mərtləşirəm əmlikləri soyuram,
Səxavətdə Hatəmi mat qoyuram,
Gerçəyin üstündən yalan qururam,
Tez düşürəm gəc xəyala içəndə.

Oynamaqda meydanı tək alıram,
Çıx desələr bir vəlvələ salıram,
Ayılanda matı-mətəl qalıram,
Niyə düşdüm qalmaqala içəndə.


Һарда мәҹлис варса орда һазырам
Һәддини ашантәк ағлым азырам
Говуллар бајырда сәккиз јазырам
Јеријирәм дала-дала ичәндә

Ушаглар гысганыр горхунҹ үзүмдән
Арват фүрсәт тапыб гачыр көзүмдән
Кимин нә һәдди вар чыха сөзүмдән
Һај саларам бу маһала ичәндә

Гәл сән ешит бу Јусифин сөзүну
Јад сүфрәјә тикмәјинән көзүну
Утан дост танышдан сахла өзүну
Пүнһан јердә чәк далдала ичәндә

Јәгинки анлајана бу гәдәр кифајәт едәр.

Harda məclis varsa orda hazıram,
Həddini aşantək ağlım azıram,
Qovurlar bayırda səkkiz yazıram,
Yeriyirəm dala-dala içəndə.

Uşaqlar qısqanır qorxunc üzümdən,
Arvad fürsət tapıb qaçıb gözümdən,
Kimin nə həddi var çıxa sözümdən,
Hay salaram bu mahala içəndə.

Gəl sən eşit bu Yusifin sözünü,
Yad süfrəyə tikməyinən gözünü,
Utan dost tanışdan saxla özünü,
Pünhan yerdə çək dal-dala içəndə.

Yəqinki anlayana bu qədər kifayət edər.


Институту гуртардыгдан
сонра
Институту гијаби охујуб гуртардым
1963 јахуд 1964-ҹү ил олардыр. Мән ајрыл-
дым. Атам-анам Гәнбәрлә чыхдылар
Ајрылығын тарихини она ҝөрә
дәгиг билмирәм ки һәлә дә бизим
ајрылығымыз о гәдәр һисс олунмур.
Баҹым Чичәк ушаглары илә бирликдә
1945-ҹи илдән Ағдам рајонунда олурду.
Онлар әввәлҹә Хындырыстан ферма-
сында сонрада Конзавод ферма-
сында јај ајлары Ағҹагыз јајла-
ғына, Истису тахтасына вә
Сары јерин мүхтәлиф саһәләринә дүшүрдү.
Мән 1954-ҹү илдән сонра һәр јај
кедиб 8-10 күн јајлаглары ҝәзирдим
Һәр күн Чичәк мәним чох севдијим
сүд гајмағыны алар гојардн мәндә
чох иштаһла јејәрдим. Сон илләр
онларын ҝүзаранны нәзәрә чарпаҹаг

## *İnstitutu qurtardıqdan sonra*

İnstitutu qiyabi oxuyub qurtardım. 1963 yaxud 1964-cü il olardı, mən ayrıldım. Atam-anam Qənbərlə çıxdılar. Ayrılığın tarixini ona görə dəqiq bilmirəm ki, hələ də bizim ayrılığımız o qədər hiss olunmur. Bacım Çiçək uşaqları ilə birlikdə 1945-ci ildən Ağdam rayonunda olurdu. Onlar əvvəlcə Xındırıstan fermasında sonra da Konzavod fermasında yay ayları Ağcaqız yaylağına, İstisu taxtasına və Sarı yerin müxtəlif sahələrinə düşürdü. Mən 1954-cü ildən sonra hər yay gedib 8-10 gün yaylaqları gəzirdim. Hər gün Çiçək mənim çox sevdiyim süd qaymağını alar qoyardı məndə çox iştahla yeyərdim. Son illər onların güzaranı nəzərə çarpacaq


дәрәҹәдә јахшылашмышды. Ушаглар
бөјүмүш вә көмәкләшмишди.
Онларын јохсул вахтларында пијада
вә улагла онлары ахтарыб тап-
мышам. Инди исә архајын јејиб ичиб
кәзирдим.
Бир дәфә Ағҹагыз јајлағына кет-
мишдим ахшам тәрәфи човғун баш-
лады кеҹә о гәдәр гар јағмышдыки
архаҹда јалныз гојунларын көзләри
гаралырды. Һәмән вахт Көјчәјә дә
гарламыш хејли гојун мал гыр-
ғынына сәбәб олмушду.(1957-ҹи ил 4 ијул)
Көрмүшәм рәдифли шеиримдә Хын-
дырыстан овасынын гыса тәсви-
рини вермишәм.
Бир неҹә күн галмағыма бахмајараг
човғун, лејсан јағыш, гар мәни
јаман дарыхдырырды. Одур ки аша-
ғыдакы шеирими дејиб атымы
миниб гајытдым Көјчәјә. Мәним
бу ҹүр гајытмағым Чичәјин гәлбин-
дән олмады. Амма тәбиәтин гану-
ну ким дәјишдирә биләрди.

dərəcədə yaxşılaşmışdı. Uşaqlar böyümüş və köməkləşmişdi. Onların yoxsul vaxtlarında piyada və ulaqla onları axtarıb tapmışam. İndi isə arxayın yeyib içib gəzirdim. Bir dəfə Ağcaqız yaylağına getmişdim. Axşam tərəfi çovğun başladı. Gecə o qədər qar yağmışdıki, arxacda yalnız qoyunların gözləri qaralırdı. Həmən vaxt Göyçəyə də qarlamış, xeyli qoyun, mal qırğınına səbəb olmuşdu(1957-ci il 4 iyul). Görmüşəm rədifli şeirimdə Xındırıstan ovasının qısa təsvirini vermişəm. Bir neçə gün qalmağıma baxmayaraq, çovğun, leysan yağış, qar məni yaman darıxdırırdı. Odur ki, aşağıdaki şeirimi deyib atımı minib qayıtdım Göyçəyə. Mənim bu cür qayıtmağım Çiçəyin qəlbindən olmadı. Amma təbiətin qanunu, kim dəyişdirə bilərdi.


Дағлар
Илин лаләзәр чағында
Меһман олдум сизә дағлар
Белә билсәм ҝәлмәзидим
Сөзүн дүзү үзә дағлар.

Лејсанын һәддини ашыб
Ҝүлләрин гәмә уғрашыб
Човғун думана гарышыб
Ҝөз ҝөрүнмүр ҝөзә дағлар

Ҝөр нә зилләт вердин елә
Ҝурулдадын ҝәлдин дилә
Обалар гәрг олду селә
„Һөрмәт" гојдун бизә дағлар

Хејли мүддәтди ҝәлмишәм
Бир дојунҹа ҝәзмәмишәм
Јај ҝүнүндә гар ҝөрмүшәм
Һеј верирсән мәзә дағлар

Јохса мәни севмәјирсән
Гонаг гәбул етмәјирсән
Мән ҝедәндән сонраса сән
Көһсүн әлван бәзә дағлар

## *Dağlar*

İlin laləzər çağında,
Mehman oldum sizə dağlar.
Belə bilsəm gəlməzidim,
Sözün düzü üzə dağlar.

Leysanın həddini aşıb,
Güllərin qəmə uğraşıb,
Çovğun dumana qarışıb,
Göz görünmür gözə dağlar.

Gör nə zillət verdin elə,
Güruldadın gəldin dilə,
Obalar qərq oldu selə,
“Hörmət” qoydun bizə dağlar.

Xeyli müddətdi gəlmişəm,
Bir doyunca gəzməmişəm,
Yay günündə qar görmüşəm,
Hey verirsən məzə dağlar.

Yoxsa məni sevməyirsən,
Qonaq qəbul etməyirsən,
Mən gedəndən sonrasa sen,
Köhsün əlvan bəzə dağlar.


Ат белиндә јај ајлары Ағҹагыздан
тутмуш Тикпилләкәнә гәдәр ајры-ајры
илләрдә кәзмишәм.
Амма бу азды мән кәрәк өлкәми-
зин көрмәли јерләрини бөјүк шәһәр-
ләрини һәтда харичи өлкәләрин
һеч олмаса бирини көрәјдим. Чох
тәәссүфки һәләлик Загафгазија
республикаларындан башга јерә
кетмәмишәм. Амма нәзәрдә тутму-
шамки, Москва-Ленинграды көрүм.
Асим Батумда забит кими гуллуг
едирди. Амма бизә мәктуб јазмырды.
Дејәсән һисс етмирдики, ата-ана
нараһатдыр. Одурки, 1974-ҹү илин
јанвар ајынын 4-дә Меһдијев Мамед-
лә Батума кетдик. Бурада һәм
Асимлә көрүшдүк һәмдә бу курорд
зонасыны јахшы кәздик. Кедәндә
Тифлисдән гатарла кетдик кәләндә
Јеревана тәјјарә илә кәлдик.
Нәдәнсә мәндә дағлары кәзмәклә
һәзз алырам.

At belində yay ayları Ağcaqızdan tutmuş Tikpilləkənə qədər ayrı-ayrı illərdə gəzmişəm. Amma bu azdı mən gərək ölkəmizin görməli yerlərini böyük şəhərlərini, hətda xarici ölkələrin heç olmasa birini görəydim. Çox təəssüfki hələlik Zaqafqaziya respublikalarından başqa yerə getməmişəm. Amma nəzərdə tutmuşam ki, Moskva-Leninqradı görüm.

Asim Batumda zabit kimi qulluq edirdi. Amma bizə məktub yazmırdı. Deyəsən, hiss etmirdi ki, ata-ana narahatdır. Odur ki, 1974-cü ilin yanvar ayının 4-də Mehdiyev Mamedlə Batuma getdik. Burada həm Asimlə görüşdük, həmdə bu kurord zonasını yaxşı gəzdik. Gedəndə Tiflisdən qatarla getdik, gələndə Yerevana təyyarə ilə gəldik. Nədənsə mən də dağları gəzməklə həzz alıram.



Ҝәрәк 1976-ҹы илин јајы иди. Кировабада
ҝетмишдим Сулидин деди ки, анамы
вә ушаглары Хачбулаг јајлағына
апармышам. Сәнәм баҹымла Хачбулаг-
да ҝөрүшмәјин хүсуси ләззәти вар иди.
Мүһарибәнин дәһшәтли чәтинликләри
Сәнәм баҹымы нечә дәфә бу јајлагдан
пијада Ҝөјчәјә апармыш орададанда
Азәрбајҹана гајтармышды.
Сулидин бир гәдәр мер мејвә алды
бирдә бир Волга тутду ҝетдик
Хачбулаға Сәнәм баҹымла вә ушаглар-
ла ҝөрүшүб ики ҝүн галыб ҝәздик-
дән сонра Ҝәнҹәјә гајытдыг. Бир
нечә ил бундан габаг һеч кәсин диггә-
тини ҹәлб етмијән Хачбулаг
јајлағы инди бир издиһамлы
шәһәри хатырладырды. Бу јајлаг
һамынын хошуна ҝәлдији кими
мәнимдә чох хошума ҝәлди. Ахы ашыг
Әләсҝәр әбәс јерә демәјибки:
„Хачбулаг јајлағы хош тамашады"
Сәнәм баҹыма даһа мәнзәрәли

Gərək 1976-cı ilin yayı idi. Kirovabada getmişdim, Sulidin dedi ki, anamı və uşaqları Xaçbulaq yaylağına aparmışam. Sənəm bacımla Xaçbulaqda görüşməyin xüsusi ləzzəti var idi. Müharibənin dəhşətli çətinlikləri Sənəm bacımı neçə dəfə bu yaylaqdan piyada Göyçəyə aparmış, oradanda Azərbaycana qaytarmışdı. Sulidin bir qədər mer-meyvə aldı, birdə bir Volqa tutdu, getdik Xaçbulağa Sənəm bacımla və uşaqlarla görüşüb iki gün qalıb gəzdikdən sonra Gəncəyə qayıtdıq. Bir neçə il bundan qabaq heç kəsin diqqətini cəlb etmiyən Xaçbulaq yaylağı indi bir izdihamlı şəhəri xatırladırdı. Bu yaylaq hamının xoşuna gəldiyi kimi mənimdə çox xoşuma gəldi. Axı aşıq Ələsgər əbəs yerə deməyib ki: “Xaçbulaq yaylağı xoş tamaşadı”. Sənəm bacıma daha mənzərəli


көрүнән бу јајлагда онун гәлби ачылмышды. Кечмишлә индији о гәлбиндә мүгајисә едиб, мәнзәрәли бир јердә гурдуғу хүсуси алачығында кәлини, оғлу вә нәвәләрилә јејиб-ичиб, дејиб-күлдүјүнә чох-чох шүкүр охујурду.

Гәнбәр Университети гуртарыб кәлди. 1958-ҹи илин ~~феврал~~ сентјабрында ону Зод орта мәктәбинә физика мүәллими тәјин етдиләр. 1959-ҹу илин феврал ајынын 3-5-дә Гәнбәрә тој етмәли олдуг. Адәт үзрә тоја јахын гохумлары вә достлары јахын-узаг олмасындан асылы олмајараг дәвәт едирләр. О вахт Басаркечәр-Кировабад автобус маршуруту јох иди. Кет-кәлдә чох аз иди. Сәнәм бачыма, Сулидинә, Пакизәјә вә о бири гызлара дәвәтнамә көндәрмишдик. Лакин онлардан кәлән олмамышды. Одур ки, мән ашағыдакы шеири јазыб көндәрмишдим. Онлар да ҹавабында мүхтәлиф бәһанәләр јазыб көндәрмишдиләр.

görünən bu yaylaqda onun qəlbi açılmışdı. Keçmişlə, indiyi o qəlbində müqaisə edir, mənzərəli bir yerdə qurduğu xüsusi alaçığında gəlini, oğlu və nəvələrilə yeyib-içib, deyib-güldüyünə çox-çox şükür oxuyurdu.

Qənbər Universiteti qurtarıb gəldi. 1958-ci ilin sentyabrında onu Zod ora məktəbinə fizika müəllimi təyin etdilər. 1959-cu ilin fevral ayının 3-5-də Qənbərə toy etməli olduq. Adət üzrə toya yaxın qohumları və dostları yaxın-uzaq olmasından asılı olmayaraq dəvət edirlər. O vaxt Basarkeçər-Kirovabad avtobus maşurutu yox idi. Get-gəldə çox az idi. Sənəm bacıma, Sulidinə, Pakizəyə və o biri qızlara dəvətnamə göndərmişdik. Lakin onlardan gələn olmamışdı. Odur ki, mən aşağıdakı şeiri yazıb göndərmişdim. Onlar da cavabında müxtəlif bəhanələr yazıb göndərmişdilər.


Әвәзиндә
Нә олду ҝәлмәдин ај Сәнәм бачы
Ҝөзләдик бир ҝүнү ај әвәзиндә
Ҝәрәк сән бу јолда ҝәләјдин ҹуша
Кечәјдин дәрјаны чај әвәзиндә

Ҝәлмәдин Сулидин сәнсә дә бары
Натамам ејләдин там арзулары
Мән олсам санмаздым бораны гары
Ашардым Гошгардан јај әвәзиндә

Елсиз нә ләззәти мәҹлисин тојун
Ҝәләрдин бирликдә тутардыг ојун
Демәдимки, мән ҝөндәрән мәктубун
Әллики бәһанә сај әвәзиндә.

Етираф едирәмки, Сәнәм бачым, Сулидин вә бүтүн гызлар Гәнбәрин тојуна чох мәмнунијјәтлә ҝәләрдиләр Сәнәм бачым һәмишә өзүнү мән ҝөстәрән, дејиб-ҝүлән, дәрдини башгасына билдирмәјиб пүнһан чәк адам иди Гышын бу оғлан чағында 350 км. јолу ајры-ајры машынларда дәјишдирилмәклә нечә ҝәлмәк оларды.

## *əvəzində*

Nə oldu gəlmədin ay Sənəm bacı,
Gözlədik bir günü ay əvəzində.
Gərək sən bu yolda gələydin cuşa,
Keçəydin dəryanı çay əvəzində.

Gəlmədin Sulidin sənsə də barı,
Natamam eylədin tam arzuları,
Mən olsam sanmazdım boranı qarı,
Aşardım Qoşqardan yay əvəzində.

Elsiz nə ləzzəti məclisin toyun,
Gələrdin birlikdə tutardıq oyun,
Demədimki, mən göndərən məktubun,
Əlliki bəhanə say əvəzində.

Etiraf edirəm ki, Sənəm bacım, Sulidin və bütün qızlar Qənbərin toyuna çox məmuniyyətlə gələrdilər. Sənəm bacım həməşə özünü mən göstərən, deyib-gülən, dərdini başqasına bildirməyib pünhan çək adam idi. Qışın bu oğlan çağında 350 km yolu ayrı-ayrı maşınlarda dəyişirilməklə necə gəlmək olardı.


Бәзән күнләрлә јоллар бағланырды. Биз ҝәлин ҝәтирән ҝүнү ат гары јарыб кечә билмирди. Машын јолу јох иди.

Bəzən günlərlə yollar bağlanırdı. Biz gəlin gətirən günü at qarı yarıb keçə bilmirdi. Maşın yolu yox idi.


Ушаглар јаваш-јаваш бөјүјүрдү.
Гумру.
1948-ҹи илин декабр ајынын 21-дә илк ушаг Гумру (сәнәдиндә Валидәдир) анадан олду. Чохдан бәри евдә ушаг гығылтысы ешидилмәдијиндән атам-анам ону гуҹагларындан јерә гојмурдулар. Виктор Һүго дејир ки; Дүнјада ушаг гығылтысындан ширин вә адама хош ҝәлән мусиги" јохдур.
Гумру бөјүдүјү мүддәтдә зәһмәтлә бағлы олду. О һәм колхозда түтүнчү ишләди һәмдә евин тәсәррүфат ишләринә чох көмәклик етди. Чох тәәссүфләнирәм ки нијә ону охутмадым. Мәндәдә ҝүнаһ јох иди. О вахт гызлары VIII синифдән сонра охутмурдулар. Гумруда орта тәһсили гијаби јолла алды.
1967-ҹи илин нојабрында ону тојла евләндирдик. Инди үч оғлу үчдә гызы вар. Аиләдә јенә зәһмәткешди. Һеч кәсә еһтијаҹы олмадан доланыр.

### *Uşaqlar yavaş-yavaş böyüyürdü*

### *Qumru*

1948-ci ilin dekabr ayının 21-də ilk uşaq Qumru (sənədində Validədir) anadan oldu. Çoxdan bəri evdə uşaq qığıltısı eşidilmədiyindən atam-anam onu qucağlarından yerə qoymurdular. Viktor Hüqo deyir ki: Dünyada uşaq qığıltısından şirin və adam xoş gələn musiqi yoxdur.

Qumru böyüdüyü müddətdə zəhmətlə bağlı oldu. O həm kolxozda tütünçü işlədi, həmdə evin təsərrüfat işlərinə çox köməklik etdi. Çox təəssüflənirəm ki, niyə onu oxutmadım. Məndə də günah yox idi. O vaxt qızları VIII sinifdən sonra oxutmurdular. Qumru da orta təhsili qiyabi yolla aldı. 1967-ci ilin noyabrında onu toyla evləndirdik. Indi üç oğlu, üçdə qızı var. Ailədə yenə zəhmətkeşdi. Heç kəsə ehtiyacı olmadan dolanır.


Асим
Асим
Ушаглыгдан әркөјүн бөјүмәјә башлады.
Атамла чох отуруб дурар, атамын
ҹибиндә олан пулун ахырына о
даш атарды. 1952-ҹи илин сентјаб-
риндә бәрк хәстәләнмишди. Анасы
Зод балнисәсинә апарды. Һәким
Јерҹо Ајвазјан деди ки, 1 милјон пени-
селлин олмаса ушагдан әлинизи
үзүн. Һәмин ҝеҹә Зодлу Әзиз мүәллим-
дән пенисиллин алыб ҝәтирдим. Сәһәр
ушаг ҝөзүнү ачды, вәзијјәти јахшы-
лашды. Ҝәзмәји ојнамағы һәр шеј-
дән үстүн тутарды.
VIII синифдән етибарән охумаға
даһа чох мејл ҝөстәрди. Орта
мәктәби беш гијмәтлә гуртарды.
Медалда алмаг оларды нә исә истәмәдик.
Онун института һазырланма-
сында вә гәбулунда әсас ролу
әмиси Гәнбәр ојнады. Апарыб иши-
ни Аз. Нефт кимја институтуна

## *Asim*

Asim uşaqlıqdan ərköyün böyüməyə başladı. Atamla çox oturub durar, atamın cibində olan pulun axırına o daş atardı. 1952-ci ilin sentyabrında bərk xəstələnmişdi. Anası Zod balnisəsinə apardı. Həkim Jerqo Ayvazyan dedi ki, 1 milyon penisellin olmasa uşaqdan əlinizi üzün. Həmin gecə Zodlu Əziz müəllimdən penisellin alıb gətirdim. Səhər uşaq gözünü açdı, vəziyyəti yaxşılaşdı. Gəzməyi, oynamağı hər şeydən üstün tutardı.

VIII sinifdən etibarən oxumağa daha çox meyl göstərdi. Orta məktəbi beş qiymətlə qurtardı. Medalda almaq olardı, nə isə istəmədik. Onun instituta hazırlanmasında və qəbulunda əsas rolu əmisi Qənbər oynadı. Aparıb işini Azərbaycan Neft Kimya institutuna.


верди гәбул олана гәдәр орада
галыб онунла мәшғул олду.
Институту гуртардыгдан сонра
ики ил забит кими орду сыраларын-
да олду. Ордуда икән Сов. ИКП-нин
үзвлүјүнә намизәд олду. Ордудан
бурахылдыгдан сонра Кировабад
шәһәриндәки електро-мантаж ида-
рәсиндә праграф ишләди. Сов. ИКП-нин
үзвлүјүнә дәјиширилди. Бир нечә ај-
дан сонра јенә вәтәнә хидмәт етмәли
олду. Кировабад шәһәр военкомуна
ишә көндәрдиләр. Асим Бакыда Али
Һәрби мәктәбидә гуртарды. Кирова-
бад шәһәриндә Марксизм-Ленинизм уни-
верситетини гуртарды. Бу илин 1983
јанварындан башлајыб ијунун
10-а кими Саратовда һәрб курсу
гуртарды. 1976-cы илин август
ајынын 22-дә Асими тојла евлән-
дирдик (Зодлу Һачалынын гызы
Таһирә илә) Инди үч ушаглары
вар Әли, Самир вә Емин.

verdi, qəbul olana qədər orada qalıb onunla məşğul oldu.

Institutu qurtardıqdan sonra iki il zabit kimi ordu sıralarında oldu. Orduda ikən Sovet İKP-nin üzvlüyünə namizəd oldu. Ordudan buraxıldıqdan sonra Kirovobad şəhərindəki elektro-mantaj idarəsində praqraf işlədi. Sovet İKP-nin üzvlüyünə dəyişirildi. Bir neçə aydan sonra yenə vətənə xidmət etməli oldu. Kirovabad şəhər voenkomuna göndərdilər. Asim Bakıda Ali Hərbi məktəbi də qurtardı. Kirovabad şəhərində Marksizm-Lenizm universitetini qurtardı. Bu ilin 1983 yanvarından başlayıb, iyunun 10-na kimi Saratovda hərb kursu qurtardı. 1976-cı ilin avqust ayının 22-də Asimi toyla evləndirdik (Zodlu Hacalının qızı Tahirə ilə). İndi üç uşaqları var Əli, Samir və Emin.

Asimin indiki iş yeri Mingəçevir şəhər voenkomunda II oddelin naçalnikidir. Izvaniyası Mayordur.


Асимин индики иш јери Минкәче-
вир шәһәр военкомунда II оддели
началникидир. Извaнијасы Мајордур.
biz


Мәһбубә.
Мәһбубәни дә бир мүддәт анам вә атам
сахлады. Анасы колхозда ишләдијинә көрә
ушагларын әзијјәтини нәнә, бабасы
чәкмәли олурдулар. Түтүндә ишләмәк
асан дејилди. Адамлар ишләмәк истәмирди.
Әмәкҝүнүнә пул бөлүнмүрдү. Аз мигдарда
тахыл бөлүрдүләр. Гадынлары мәҹбури
гајдада түтүнә ҹәлб едирдиләр.
(Инди исә бәзиләри чох ҹәһд етсәдә
ҝөтүрмүрләр)
Мәһбубә чох гочагдыр, тәсәррүфатчыл-
дыр. Һәмдә гәнаәтҹилдир. Орта мәктәб-
дә о гәдәрдә јахшы охумасада Али
мәктәбә ҝирмәјә чох ҹан атырды.
Она көрәдә инадындан дөнмәди.
Кировабад Дөвләт Педагожи Инсти-
тутунун ибтидаи тәһсил методика-
сы факүлтәсинә дахил олду.
Мән сөз вермишдимки, гызларымы
кәнар кәндләрә дејил өз кәндимизә әрә
верәҹәм. Баҹыларымын бирини Сарја-
губа, бириндә Гошабулаға вермишдик

## *Məhbubə*

Məhbubəni də bir müddət anam və atam saxladı. Anası kolxozda işlədiyinə görə uşaqların əziyyətini nənə, babası çəkməli olurdular. Tütündə işləmək asan deyildi. Adamlar işləmək istəmirdi. Əmək gününə pul bölünmürdü. Az miqdarda taxıl bölürdülər. Qadınları məcburi qaydada tütünə cəlb edirdilər (indi isə bəziləri çox cəhd etsədə götürmürlər).

Məhbubə çox qoçaqdır, təsərrüfatçıldır. Həm də qənaətcildir. Orta məktəbdə o qədərdə yaxşı oxumasa da, Ali məktəbə girməyə çox can atırdı. Ona görə də inadındn dönmədi. Kirovabad Dövlət Pedoqoji İnstitutunun ibtidai təhsil metodikası fakültəsinə daxil oldu. Mən söz vermişdim ki, qızlarımı kəndlərə deyil öz kəndimizə ərə verəcəm. Bacılarımın birini Saryaquba, birinidə Qoşabulağa vermişdik. Gedib-gəlməkdə çətinlik çəkirdik. Amma dediyim kimi olmadı. Yaxın kəndlərə vermək istəmədiyim Məhbubə daha uzağa Qaraimana verəsi olduq. Indi orada müəllimə işləyir. Vəziyyətləri yaxşıdır. Öç uşağı var Zamin, Ziba və Aqşin. Daha sonra iki uşağıda oldu Elxan və Ayna.


Ҝедиб ҝәлмәкдә чәтинлик чәкирдик.
Амма дедијим кими олмады. Јахын
кәндләрә вермәк истәмәдијим Мәһбубу
даһа узаға Гараимана верәси олдуг.
Инди орада мүәллимә ишләјир. Вәзиј-
јәтләри јахшыдыр. Үч ушағы вар
Замин, Зиба вә Агшин.
Даһа сонра ики ушағыда олду Елхан вә Ајна




Rizvan




İqrar


Нуру
1963. 16 sentyabr.
Altmış üçüncü ildə SSRİ ərazisində qıtlıq yaranmışdı. Azərbaycandan gəlib Göyçədən taxıl aparırdılar. Bu qıtlıq bizə və bizim kəndimizə o qədərdə tə'sir etmirdi. Nurunun uşaqlığı gümrah idi. 4 yaşında kənddə gəzən qızılcıq xəstəliyinə tutuldu. Bəlkə də elə ona görə o biri qardaşlarına nisbətən boyca xırda qaldı. Nurunun uşaqlıq dövrünün bütün əziyyətləri Məhbub çəkib. Onun böyüməsində Məhbubun əməyi anasının əməyindən çoxdur. Nuru birinci sinfə gedəndən oxumağa həvəskar idi. Onu kitabdan ayırmaq olmurdu. Təsərrüfatımıza az kömək göstərərdi. Çoxlu şirni yeyirdi. Anası kişmişi çaydana doldurub şqafın başına qoymuşdu. Iqrarla birləşib onu boşaltmışdı. Xətrinə dəyən olmadı, çünki yaxşı oxuyurdu. Birinci sinifdən XI sinfi qurtarana kimi onun nə jurnalda nə də rüblük və illik

**Nuru**

1963-cü il 16 sentyabrında anadan olub. Altmış üçüncü ildə SSR ərazisində qıtlıq yaranmışdı. Azərbaycandan gəlib Göyçədən taxıl aparırdılar. Bu qıtlıq bizə və bizim kəndimizə o qədər də təsir etmirdi. Nurunun uşaqlığı gümrah idi. 4 yaşında kənddə gəzən qızılcıq xəstəliyinə tutuldu. Bəlkə də elə ona görə o biri qardaşlarına nisbətən boyca xırda qaldı. Nurunun uşaqlıq dövrünün bütün əziyyətlərinə Məhbub çəkib. Onun böyüməsində Məhbubun əməyi anasının əməyindən çoxdur. Nuru birinci sinfə gedəndən oxumağa həvəskar idi. Onu kitabdan ayırmaq olmurdu. Təsərrüfatımıza az kömək göstərərdi. Çoxlu şirni yeyirdi. Anası kişmişi çaydana doldurub şkafın başına qoymuşdu. Iqrarla birləşib onu boşaltmışdı. Xətrinə dəyən olmadı, çünki yaxşı oxuyurdu. Birinci sinifdən XI sinfi qurtarana kimi onun nə jurnalda, nə də rüblük və illik


qiymət vərəqəsində, orta məktəb imtahanlarında 5-dən başqa özgə qiymət olmayıb. Nurunun attestatında bütün beş idi. O uşaq yaşlarından həkim olmaq istəyirdi. Nurunun xalası xəstə idi. Həkimlər onu düzgün müalicə etmədiyinə görə vaxtsız vəfat etdi. Nuru deyirdi ki, həkim olacam. Bəsti xalamı müalicə edəcəm. O ildə Tibb institutuna daxil olub, oranı qırmızı diplomla qurtardı. ildə Moskvada Aspiranturanı qurtarıb, vaxtından əvvəl müdafiə etdi. İki il Tibb Universitetində işlədikdən sonra doktorluq elmi dərəcəsi almaq üçün Türkiyəyə getdi. Orada qara ciyərin köçürülməsi üzrə doktorluq dissertasiyası üçün iki kitab və bir neçə elmi məqalə yazdı. İndi onun elmi işləri hazırdır. Nuru oxuduğu illərdə mən onu vacib iş olanda da oxumaqdan ayıra bilməmişəm. Ona görə onun həm oxumağından, həmdə əsl həkim kimi yetişməsindən çox-çox razı qalıram

qiymət vərəqəsində orta məktəb imtahanlarında “5” –dən başqa özgə qiymət olmayıb. Nurunun attestatıda bütün beş idi. O uşaq yaşlarından həkim olmaq istəyirdi. Nurunun xalası xəstə idi. Həkimlər onu düzgün müalicə etmədiyinə görə vaxtsız vəfat etdi. Nuru deyirdi ki, həkim olacam. Bəsti xalamı müalicə edəcəm. O tibb institutuna daxil olub, oranı qırmızı diplomla qurtardı. ildə Moskvada aspiranturanı qurtarıb, vaxtından əvvəl müdafiə etdi. Iki il Tibb Universitetində işlədikdən sonra doktorluq elmi dərəcəsi almaq üçün Türkiyəyə getdi. Orada qaraciyərin köçürülməsi üzrə doktorluq dissertasiyası üçün iki kitab və bir neçə elmi məqalə yazdı. Indi onun elmi işləri hazırdır. Nuru oxuduğu illərdə mən onu vacib iş olanda da oxumaqdan ayıra bilməmişəm. Ona görə onun həm oxumağından, həmdə əsl həkim kimi yetişməsindən çox-çox razı qalıram.


O, ağıllıdı, təmkinlidi, səbrlidi və tamah-
kar deyil. Tibb universitetində neçə-neçə
adamları uğurla operasiya edib
Müharibə gedən vaxtı onlarla yaralını
həyata qaytarıb. İndi onların valideynləri
məni görəndə səmimiyyətlə minnətdarlıq
edirlər. Bu da mənəvi cəhətdən mənə
ləzzət verir. Mən uşaq yaşlarımdan,
yəni orta məktəbdə oxuduğum vaxtdan
həvəskar kimi şeirlər yazırdım. Lakin nə
vaxtsa bu şeirlər toplanıb bir kitabça ha-
lında çap olunacağı yatanda yuxumada
girməzdi. Bu il 1999-cu ilin fevral ayı-
nın 3-də mənim 70 yaşımın tamam oldu-
ğu gün Nuru məni bir kitabla təbrik edib
sevindirdi Bu kitab mənim illərlə san-
dıqda saralmış şeirlərim idi. Adını da
Nuru qoymuşdur. „Dərmanım Göyçənin
havasındadır". Bu kitab məni yenidən
ruhlandırdı. Yaşım yetmişi ötsə də
yeni-yeni şeirlər yazmağa
həvəsləndirdi

O, ağıllıdı, təmkinlidi, səbrlidi və tamahkar deyil. Tibb universitetində neçə-neçə adamları uğurla operasiya edib. Müharibə gedən vaxtı onlarla yaralını həyata qaytarıb. İndi onların valideynləri məni görəndə səmimiyyətlə minnətdarlıq edirlər. Bu da mənəvi cəhətdən mənə ləzzət verir. Mən uşaq yaşlarımdan, yəni orta məktəbdə oxuduğum vaxtdan həvəskar kimi şeirlər yazırdım. Lakin nə vaxtsa bu şeirlər toplanıb bir kitabça halında çap olunacağı yatanda yuxumada girməzdi. Bu il 1999-cu ilin fevral ayının 3-də mənim 70 yaşımın tamam olduğu gün Nuru məni bir kitabla təbrik edib sevindirdi. Bu kitab mənim illərlə sandıqda saralmış şeirlərim idi. Adını da Nuru qoymuşdur. “Dərmanım Göyçənin havasındadır”. Bu kitab məni yenidən ruhlandırdı. Yaşım yetmişi ötsə də yeni-yeni şeirlər yazmağa həvəsləndirdi.



Бир нечә кәлмә Көјчәнин дағылмасы
һаггында

Көјчәдән азәрбајҹанлылар бир нечә дәфә
(1918-ҹи илдә, 1948-ҹи илдә) дағылмышдыр
1918-ҹи илин апрел ајында дашнагларын
ордусу силаһлы һүҹум тәшкил етмишдиләр
Силаһлы ордуда дөврүн һәр ҹүр силаһы, һәтда
ағыр артиллеријада варымыш
Барышыг ады илә бир чох адамлара Бала
Мәзрәдә вә Шишгајада бөјүк төвләләрә
долдуруб јандырмышдылар. Дашкәндли
чох көзәл мәлаһәтли сәси олан ашыг
Нәҹәфи Басаркечәрдә ишкәнҹә илә өлдүрмүш-
дүләр. Ону сојундуруб гајнар самавары
күрәјинә бағлајыб сазыны әлинә вериб охуда-
охуда өлдүрмүшдүләр. Барышыг ады илә
Зодлу Сәмәд ағаны да чағыр Басаркечәрдә
өлдүрмүшдүләр. Бизим кәнддән 4-5 нәфәри
Бала Мәзрдә јандырмыш, 3 нәфәри дә Дашлы
Күнејдә өлдүрмүшдүләр. Бәлаларинин сајы чох-
чох иди. Кәндимиздән гачанлар Кәлбәҹәр
јолунда о гәдәр гырылмышдыр ки, о дәрәјә

## *Bir neçə kəlmə Göyçənin dağılması haqqında*

Göyçədən Azərbaycanlılar bir neçə dəfə (1918-ci ildə, 1948-ci ildə) dağılmışdır. 1918-ci ilin aprel ayında daşnaqların arzusu silahlı hücum təşkil etmişdilər. Silahlı orduda dövrün hər cür silahlı, hətda ağır artileriya da varımış.

Barışıq adı ilə bir çox adamlara Bala Məzrədə və Şişqayada böyük tövlələrə doldurub yandırmışdılar. Daşkəndli çox gözəl məlahətli səsi olan aşıq Nəcəfi Basarkeçərdə işkəncə ilə öldürmüşdülər. Onu soyundurub qaynar samavarı kürəyinə bağlayı, sazını əlinə verib oxuda-oxuda öldürmüşdülər. Barışıq adı ilə Zodlu Səməd ağanı da çağır Basarkeçərdə öldürmüşdülər. Bizim kənddən 4-5 nəfəi Bala Məzrədə yandırmış, 3 nəfəri də Daşlı Güneydə öldürmüşdülər. Belələrinin sayı çox-çox idi. Kəndimizdən qaçanlar Kəlbəcər yolunda o qədər qırılmışdır ki, o dərəyə


Сүмүк төкүлән дәрә дејирләр.
Саламат галанларында бир һиссәси
Азәрбајҹанда малерија (гыздырма) хәстәлијинә
тутулуб гырылмышды.
1920-ҹи илин апрелиндә Азәрбајҹанда нојабрында
да Ермәнистанда Совет һөкүмәти гурулду
1921-ҹи илин јазындан етибарән Көјчәлиләр
өз доғма јурдларына гајыдыр тәзәдән гуру-
ҹулуға башлајырлар.
1948-ҹи илдә хариҹдә олан ермәниләрин
Ермәнистана гајытмасы илә әлагәдар
олараг М.Ҹ. Бағыров азәрбајҹанлылары
Азәрбајҹана көчүрмәјә башлады. Бу ермәнис-
танда азәрбајҹанлыларын азалмасына
сәбәб олду.
Көјчәнин бәзи кәндләриндән (Дашкәнд
Зод, Мәзрәләр Чахырлы) хејли адам
көнүллү Вәтәни тәрк етдиләр. Онларын
бир нечәси Көјчәјә гајытдылар. Нәриман-
лыдан 40-а гәдәр аилә Бәрдә рајонунун
Кәтәлпараг кәндиндә мәскунлашмышды.
Онларын чоху ҝери гајытдылар 5 аилә
исә чох ағыллы чыхыб сон мүсибәти
ҝөрмәдиләр.

sümük tökülən dərə deyirlər. Salamat qalanlarında bir hissəsi Azərbaycanda maleriya (qızdırma) xəstəliyinə tutulub qırılmışdı.

1920-ci ilin aprelində Azərbaycanda, noyabrında Ermənistanda Sovet höküməti quruldu. 1921-ci ilin yazından etibarən Göyçəlilər öz doğma yurdlarına qayıdır, təzədən quruculuğa başlayırlar.

1948-ci ildə xaricdə olan ermənilərin Ermənistana qayıtması ilə əlaqədar olaraq M.C. Bağırov azərbaycanlıları Azərbaycana köçürməyə başladı. Bu Ermənistanda azərbaycanlıların azalmasına səbəb oldu. Göyçənin bəzi kəndlərindən (Daşkənd, Zod, Məzrələr, Çaxırlı) xeyli adam könüllü vətəni tərk etdilər. Onların bir neçəsi Göyçəyə qayıtdılar. Nərimanlıdan 40-a qədər ailə Bərdə rayonunun Kətəlparaq kəndində məskunlaşmışdı. Onların çoxu geri qayıtdılar, 5 ailə isə cox ağıllı çıxıb son müsibəti görmədilər.



1988-ci ilin fevralında Dağlıq Qarabağla əlaqədar baş verən hadisələr Ermənistanda yaşıyan azərbaycanlıların onsuz da yaxşı olmayan vəziyyətlərini ağırlaşdırdı.

Rayon mərkəzilə tez-tez əlaqəni kəsirdilər, rayona gedənləri incidir və döyürdülər. Belə vəziyyət gah nisbətən yaxşılaşır, gah da ciddiləşirdi. Iyun ayında Çaxırlıların üstünə hücuma keçdilər. Ziddiyət kəskinləşirdi.

Payız girənə qədər sükutlu vəziyyət yaratmışdı. Elə ki, bütün kənd təsərrüfatı məhsulları toplandı, atalar demişkən: “qılcıqlı quyuya, quyruqlu tovluya” girdi, Böyük Məzrədəki azərbaycanlıları sıxışdırmağa başladılar. Rayonda, kəndlərdə saqqallılar peyda oldu.

Onlara qoşulmuş millətçilər fürsət düşən kimi azərbaycanlıları döyür, maşınlarını qırıb dağıdırdılar. Bu vəziyyəti olduğu kimi qeyd etmək üçün böyük bir kitab bağlamaq lazım gələr.



Təhlükəli vəziyyət getdikcə yaxınlaşırdı. Hər kənd özünü müdafiə postu yaratmış, noyabr, dekabr aylarının şaxtalı gecə və gündüzündə dəstə-dəstə kəndə qaravul çəkirdi. Hələ bizim kənddə arxayınçılıq olsada, Göy körpüdən o tərəfə keçmək olmurdu. Kolxozdan dövlətə verilən südü gəlib Göy körpüdə təhfil götürdülər. Poçt işləmir, mağazaya ərzaq məhsulları gəlmirdi. Rayonda keçirilən mühüm yığıncaqlara kənd rəhbərləri gedə bilmirdi.

Yerevandan televizor və radioda millətçi verilişlər verilirdi. Qəzet ola bilmirdik, şayələr həddini aşmışdı. Bəzi kəndlərin köçü bizim kənddən keçib, Zod mədənindən keçirdi. Bizim dağdan da yüngül maşınlar və mal-qoyun keçirdi.

Belə köçlər noyabr ayının 9-10-da
Saqqallıların hücumundan sonra başladı.
Bu vəziyyət bizim kəndi də silkələdi.
Adamlar bir-bir ailə-uşaqlarını və ağırlığını
çox çətinliklə Kəlbəcərə aşırırdılar.


Артыг нојабрын сон күнләри иди. Хәбәр
кәлдики Асим 2 камаз маркалы машын
кәтирир. Хәбәр бизә чатанда күндүз саат
2⁰⁰ оларды. Амма машынлар кәлиб чых-
мырды. Габағына кетмәк үчүн чох ҹәһд
көстәрсәмдә мүмкүн олмады. Кеҹә сәһә-
рә кими нәләр чәкдијимизи тәсәввүрә кә-
тирмәк чох-чох чәтиндир. Һәр күн, һәр кеҹә
5 дәгигә машын күјүлтүсү ара вермирди.
Асим ики машынла бир сутка Зод
јалында галмышдылар. Боран-гар
јолу бағлајыр, јүзләрлә кәлән вә кедән
машынлар бири-биринә јол верә билмирди.
О кәдикдә бәзән јај күнләри машынлар
кечә билмирди. Белә јердә гыш күнү кеҹә-
ләмәк дәһшәтдир.
Ертәси күн саат 12 оларды машынлар
кәлди. Ики машына үч евин әшјаларыны
мүмкүн гәдәр јығдыг. Мән, Гәнбәр вә Гумру.
Ахшам саат 10 оларды машынлар
јола дүшдү. Кәндимизин кирәҹәјиндәки
постда 4-5 адам варды. Һалбуки әввәл-
ки күнләрдә бу јолдан адам әлиндән

Artıq noyabrın son günləri idi. Xəbər gəldiki Asim 2 kamaz markalı maşın gətirir. Xəbər bizə çatanda gündüz saat 2 olardı. Amma maşınlar gəlib çıxmırdı. Qabağına getmək üçün çox cəhd göstərsəm də mümkün olmadı. Gecə səhərə kimi nələr çəkdiyimizi təsəvvürə gətirmək çox-çox çətindir. Hər gün, hər gecə 5 dəqiqə maşın küyültüsü ara vermirdi. Asim iki maşınla bir sutka Zod yalında qalmışdılar. Boran-qar yolu bağlayır, yüzlərlə gələn və gedən maşınlar biri-birinə yol verə bilmirdi. O, gədikdə bəzən yay günləri də maşınlar keçə bilmirdi. Belə yerdə qış günü gecələmək dəhşətdir.

Ertəsi gün saat 12 olardı, maşınlar gəldi. Iki maşına üç evin əşyalarını mümkün qədər yığdıq. Mən, Qənbər və Qumru. Axşam saat 10 olardı, maşınlar yola düşdü. Kəndimizin girəcəyindəki postda 4-5 adam vardı. Halbuki əvvəlki günlərdə bu yoldan adam əlindən


кечмәк мүшкүл дејилди. Бу вәзијјәт
мәнә чох тәсир етди ичин-ичин ағладым.
Јол маршуруту белә иди: Нәриманлы-Зод-
-Инәкдағы-Ағјохуш-Гараиман-Кәсәмән-Көјсу
Шишгаја-Красны-Кәдәбәј Шамхор Ханлар
Саат 5-оларды чатдыг.
Кубуш, Насты, Гумру вә Шөвгү кәнддә галды.
Бүтүн ушаглары кәтирдик.
Декабрын 5-дә кәндә гајытдым. Јолда мәнә
дедиләр ки кәндин мал-ҹојунуну бүтүн
талан етдиләр. Бу доғру иди. Рајондан
тәшкил едирләр ки ҹамаатын малларыны
һазырлыға көтүрүрләр. Инәјин бири
250-300, ҹојунун бири 50 манат.
Кәндә Шамхор рајонунун Нүзкар вә
Чаир кәндиндән чохлу адам долмушду.
Декабрын 11-дә Гәнбәр мәктәби тәһфил
верди. Машын сорағында олдуг ки тәмиз
јығышырылыб чыхаг. Артыг биз тәрәф-
дә Гәнбәрлә мән галмышдыг. Адам
өз доғма кәндләриндә гәрибсәјирди.
Һарда, кимлә дәрдләшәсән. Кәнддә
5-6 адам галмышды. Машын
тапылмырды.

keçmək müşkül deyildi. Bu vəziyyət mənə çox təsir etdi, için-için ağladım. Yol marşurutu belə idi: Nərimanlı-Zod-İnəkdağı-Ağyoxuş-Qaraiman-Kəsəmən-Göysu-Şişqaya-Krasnı-Gədəbəy-Şamxor-Xanlar. Saat 5 olardı çatdıq. Kubuş, Nastı, Qumru və Şövqü kənddə qaldı. Bütün uşaqları gətirdik.

Dekabrın 5-də kəndə qayıtdım. Yolda mənə dedilər ki, kəndin mal-qoyununu bütün talan etdilər. Bu doğru idi. Rayondan təşkil edirlər ki, camaatın mallarını hazırlığa götürürlər. İnəyin biri 250-300, qoyunun biri 50 manat. Kəndə Şamxor rayonunun Nüzgar və Cəir kəndindən çoxlu adam dolmuşdu. Dekabrın 11-də Qənbər məktəbi təhfil verdi. Maşın sorağında olduq ki, təmiz yığşırılıb çıxar. Artıq biz tərəfdə Qənbərlə mən qalmışdıq. Adam öz doğma kəndlərində qəribsəyirdi. Harda, kimlə dərdləşəsən. Kənddə 5-6 adam qalmışdı. Maşın tapılmırdı.


Декабрын 16-сы ҝеҹә Играр Шәриф
кишилә өзүнү јетирди. Гәнбәр вә мән
галан әшјаларымызы (галан да олду)
камаз тутунҹа јүкләјиб јола
дүшдүк. Беләликлә 60 ил аҹысына
ширининә дөздүјүм, боја-баша
чатдығым ата-баба јурдундан, ата
вә анамдан әбәди ајрылдым.
Мән Ҝөјчәнин вәфасызлығыны јашлы-
лардан ешитмишдим. Амма ону да
һәм ешидиб һәм дә ҝөрүрдүм ки, Ҝөјчәлиләр
һәм вәфалыды, һәм сәдагәтлиди һәм дә
сәхавәтлиди.
Мән Ҝөјчәнин етибарсыз бир јер олдуғуну
ҝет-ҝедә даһа дәгиг һисс едирдим. Одур ки белә бир
шеирдә јазмышдым
Дејирләр гәдимдән даша јазылмыш
Кәм ҝөрүнән етибары Ҝөјчәнин
Вәфасыз дејибләр ата бабалар
Чох олса да дөвләт вары Ҝөјчәнин....
Јолдашларын бир нечәси мәни мәзәммәт
едирдиләр ки, нијә сән Ҝөјчә һаггында белә
бөһтан јазырсан.

Dekabrın 16-sı gecə İqrar Şərif kişilə özünü yetirdi. Qənbər və mən qalan əşyalarımızı (qalan da oldu) kamaz tutunca yükləyib yola düşdük. Beləliklə, 60 il acısına şirininə dözdüyüm, boya-başa çatdığım ata-baba yurdundan, ata və anamdan əbədi ayrıldım.

Mən Göyçənin vəfasızlığını yaşlılardan eşitmişdim. Amma onu da həm eşidib həm də görürdüm ki, Göyçəlilər həm vəfalıdı, həm sədaqətli, həmdə səxavətlidi.

Mən Göyçənin etibarsız bir yer olduğunu get-gedə daha dəqiq hiss edirdim. Odur ki, belə bir şeir də yazmışdım.

Deyirlər qədimdən daşa yazılmış,
Kəm görünən ehtibarı Göyçənin.
Vəfasız deyiblər ata-babalar,
Çox olsa da dövlət varı Göyçənin...

Yoldaşların bir neçəsi məni məzəmmət edirdilər ki, niyə sən Göyçə haqqında belə böhtan yazırsan.


„Јағ јахшы јағды анҹаг ит дәрисиндәдир"
дејибләр бабалар
Инди Көјчәнин вәзијјәтини бачардығым
гәдәр көрдүјүм кими тәсвир едирәм
Дағылды
Һәшдад сәккиз чох бәд уғур ил олду
Көјчәли Көјчәдән јаман дағылды
Гапылар бағланды ишыглар сөндү
Малы-мүлкү олду талан дағылды

Тәнһа галды Әләсгәрин мәзары
Гәддим әјди ата-ана губары
Елләр чәкә билмәз бу интизары
Галмады Вәтәндә инсан дағылды

Ашыг гардаш ејлә дилин әзбәри
Һиҹран Кәрәмилә оху сөзләри
Гој ағласын гачгынларын көзләри
Де Көјчәдә гопду туфан дағылды

Бағланды бәрәси бәнди Көјчәнин
Бахты ~~[illegible]~~ тәрәггидән енди Көјчәнин
Дөндү дөнәркәси дөндү Көјчәнин
Кеҹә-күндүз ашкар-пүнһан дағылды

"Yağ yaxşı yağdı, ancaq it dərisindədir" deyiblər babalar. Indi Göyçənin vəziyyətini bacardığım qədər gördüyüm kimi təsvir edirəm.

### *Dağıldı*

Həşdad səkkiz çox bəd uğur il oldu,
Göyçəli Göyçədən yaman dağıldı.
Qapılar bağlandı işıqlar söndü,
Malı-mülkü oldu talan dağıldı.

Tənha qaldı Ələsgərin məzarı,
Qəddim əydi ata-ana qubarı,
Ellər çəkə bilməz bu intizarı,
Qalmadı Vətəndə insan dağıldı.

Aşıq qardaş eylə dilin əzbəri,
Hicran Kərəmilə oxu sözləri,
Qoy ağlasın qaçqınların gözləri,
De Göyçədə qopdu tufan dağıldı.

Bağlandı bərəsi bəndi Göyçənin,
Baxtı tərəqqidən endi Göyçənin,
Döndü dönərgəsi döndü Göyçənin,
Gecə-gündüz aşkar-pünhan dağıldı.


Кимә галды дурна көзлү булаглар
Гарыш-гарыш кәздијимиз јајлаглар
Гоҹалар ҹаванлар көрпә ушаглар
Јарандығына олду пешман дағылды

Ашды кәдикләри јенди арана
Гоһум гоншу һәрә дүшдү бир јана
Тарих нә дејәҹәк белә дөврана
Бирләшмәјә јохду күман дағылды

Јусифин 60-ы јетәндә јашы
Дидәркин чағырды гардаш-гардашы
Бир груб милләтчи надүрүст нашы
Гатды аралығы шејтан дағылды

Кәндимизин ҹамааты Азәрбајҹанын Шәргиндән Гәрбинә, Ҹәнубундан Шималына дағылды. Һәр кәс өз севдији вә истәдији јерә дүшә билмәди. Ким һарда имкан тапдыса орада да галмаға мәҹбур олду. Гардаш-гардашдан, оғул атадан, гоншу-гоншудан аралы дүшмәли олду.

Kimə qaldı durna gözlü bulaqlar,
Qarış-qarış gəzdiyimiz yaylaqlar,
Qocalar, cavanlar körpə uşaqlar,
Yarandığına oldu peşman dağıldı.

Aşdı gədikləri, yendi arana,
Qohum qonşu hərə düşdü bir yana
Tarix nə deyəcək belə dövrana,
Birləşməyə yoxdu güman dağıldı.

Yusifin 60-ı yetəndə yaşı,
Didərgin çağırdı qardaş-qardaşı,
Bir qrub millətçi nadürüst naşı,
Qatdı aralığı şeytan dağıldı.

Kəndimizin camaatı Azərbaycanın Şərqindən Qərbinə, Cənubundan-Şimalına dağıldı. Hər kəs öz sevdiyi və istədiyi yerə düşə bilmədi. Kim harda imkan tapdısa da, orada da qalmağa məcbur oldu. Qardaş – qardaşdan, oğul atadan, qonşu-qonşudan aralı düşməli oldu.



*Mən bu sətrləri yazana qədər (16 mart 89) 400 təsərrüfatdan (ailədən) ibarət olan kəndimizin, ancaq 30-35%-i müxtəlif yerlərdə yerləşə bilib. Mən çox cəhd etdim ki, Qənbərlə bir yerə düşək, mümkün olmadı. O, Bakıda mən Kirovabadda qalası olduq. Hələlik Qumrugil məskunlaşmayıb. Məhbubəgil Xanlar rayonunun Qumru kəndinə getmək üçün məşğuldurlar. Artıq 4 aydır işləmirik və əməkhaqqı almırıq. Adamlarda fiziki və mənəvi solğunluq hiss olunur. Ehtiyatlar azalır iqtisadiyyat çətinləşir.*





Mən fani dünyadan kamım almışam,
Halal zəhmətimlə yaşa dolmuşam,
Yurdumda layiqli övlad qoymuşam,
Arxayın məzarda yataram indi.

Əziz övladlarım nəticə, nəvə,
Məni yada salın ildə bir dəfə,
Atam, anam, balam qalan tərəfə,
Yönümü Göyçəyə dəfn edin məni.

### *Əbədi*

Bu kitabı mən yadigar verirəm. Vaxt yetişər bir gün mən də gedərəm. Həftədə demirəm, ayda demirəm, ildə bircə dəfə yada sal məni açanda kitabı.

Elektron nəzr - ISBN: 978-9952-536-01-0